

“Məqsədimiz Azərbaycanın hər bir bölgəsini inkişaf etdirməkdir”.

**Heydər ƏLİYEV**
*Ümummilli lider*



"Biz üçüncü proqramı da 2018-ci ilə qədər uğurla icra etməliyik. Əminəm ki, üçüncü proqramın icrası ilə də bağlı heç bir problem olmamalıdır. Proqramı icra etmək üçün bütün cəmiyyət səfərbər olmalıdır və biz buna nail olacağıq".

**İlham ƏLİYEV**
*Azərbaycan Respublikasının Prezidenti*


ASTARAÇAY















AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ

## "AZƏRBAYCAN RESPUBLİKASI REGİONLARININ 2014-2018-Cİ İLLƏRDƏ SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMI"NIN İCRASININ İKİNCİ İLİNİN YEKUNLARI

# UĞURLU SİYASƏTİN NƏTİCƏLƏRİ

BAKI - 2016


Quba-Xaçmaz
Şəki-Zaqatala
Dağlıq-Şirvan
Gəncə-Qazax
Abşeron
Aran
Kəlbəcər-
Laçın
Yuxarı
Qarabağ
Naxçıvan
Lənkəran

### "AZƏRBAYCAN RESPUBLİKASI REGİONLARININ 2014-2018-Cİ İLLƏRDƏ SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMI"NIN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına, nəticədə əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan vermişdir.

Dövlət proqramlarının icra olunduğu 10 il ərzində ümumi daxili məhsul 3,2 dəfə, o cümlədən qeyri-neft sektoru 2,6 dəfə, sənaye 2,7 dəfə, kənd təsərrüfatı 1,5 dəfə, investisiyalar 6,5 dəfə, əhalinin gəlirləri 6,5 dəfə, orta aylıq əməkhaqqı 5,5 dəfə artmışdır.

Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 900 mini daimi olmaqla 1,2 milyondan çox yeni iş yeri, 55,6 min müəssisə yaradılmış, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,3 faizə enmişdir. Dövlət proqramları çərçivəsində görülmüş genişmiqyaslı işlər regionların qarşıdakı illərdə də inkişafı üçün möhkəm zəmin yaratmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq, ölkədə növbəti illərdə iqtisadiyyatın diversifikasiyasının, qeyri-neft sektorunun və regionların inkişafının davamlılığının təmin edilməsi, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması məqsədi ilə qərara alıram:

1. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:
   - 2.1. aidiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə birlikdə Dövlət Proqramının icrasını təmin edən zəruri tədbirlər görsün;
   - 2.2. Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə birlikdə hər il üçün Dövlət İnvestisiya Proqramı tərtib edilərkən Dövlət Proqramında illər üzrə nəzərdə tutulan tədbirlərin icrasını təmin etsin;
   - 2.3. Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi ilə birlikdə Dövlət Proqramının maliyyələşdirilməsinə investisiyaların cəlb edilməsi məqsədi ilə beynəlxalq maliyyə institutları, xarici ölkələrin müvafiq qurumları və iş adamları ilə danışıqlar aparsın;
   - 2.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.
3. Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi Dövlət Proqramında nəzərdə tutulan

tədbirlərin həyata keçirilməsini əlaqələndirsin və onun icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 fevral 2014-cü il.
№ 118

"Üçüncü Regional Proqram da əvvəlki proqramlar kimi çox müfəssəl bir sənəddir. Bu Proqramın qəbul edilməsi əminəm ki, qalan sosial və iqtisadi məsələlərin növbəti beş il ərzində həlli üçün bizə böyük dəstək olacaqdır".

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

# "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" haqqında

Regionların hərtərəfli inkişafı sahəsində 2004-cü ildən başlanılmış məqsədyönlü siyasətin davamı olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2014-cü il 27 fevral tarixli 118 nömrəli Fərmanı ilə "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir.

Dövlət Proqramında bütün regionlarda mövcud potensialdan daha səmərəli istifadə etməklə qeyri-neft sektorunun inkişafı, kommunal xidmət və digər infrastruktur obyektlərinin, yeni istehsal və emal müəssisələrinin yaradılması, mövcud müəssisələrdə istehsal fəaliyyətinin genişləndirilməsi, rabitə və informasiya texnologiyalarının tətbiqinin sürətləndirilməsi, sosial infrastrukturun yaxşılaşdırılması, o cümlədən müasir standartlara uyğun təhsil, elm, səhiyyə, mədəniyyət və idman obyektlərinin inşası, yenidən qurulması, əlillər və şəhid ailələri üçün yaşayış binalarının tikintisi üzrə kompleks tədbirlər nəzərdə tutulmuşdur.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əsas məqsədi ölkədə qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın diversifikasiyası, regionların sürətli inkişafı istiqamətində tədbirlərin davam etdirilməsi, xüsusi ilə kəndlərin inkişafı ilə bağlı infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılmasından ibarətdir.

Ümumilikdə, Dövlət Proqramının Tədbirlər Planı çərçivəsində həyata keçiriləcək tədbirlər 2 səviyyədə müəyyənləşdirilmişdir:

- Ölkə əhəmiyyətli tədbirlər;
- Ölkənin iqtisadi rayonları səviyyəsində həyata keçiriləcək tədbirlər.

Dövlət Proqramının Tədbirlər Planında ümumilikdə 1127 tədbir, o cümlədən ölkə əhəmiyyətli 43, iqtisadi rayonlar üzrə 1084 tədbir nəzərdə tutulmuşdur.



Dövlət Proqramının Tədbirlər Planı aşağıdakı sahələr üzrə tərtib edilmişdir:

- Vergi və pul-kredit siyasəti;
- Sənaye və kənd təsərrüfatı sahəsinin inkişafı tədbirləri;
- Turizm sahəsinin inkişafı;
- Ekologiya və təbii sərvətlərdən istifadə tədbirləri;
- Yol təsərrüfatı və nəqliyyat tədbirləri;
- Elektrik enerji təchizatı;
- İstilik təchizatı;
- Qaz təchizatı;
- Rabitə xidmətlərinin yaxşılaşdırılması tədbirləri;
- Su təchizatının və kanalizasiya xidmətlərinin yaxşılaşdırılması tədbirləri;
- Meliorasiya və irriqasiya tədbirləri;
- Əhalinin təhlükəsizliyi tədbirləri;
- Mənzil təsərrüfatı və abadlıq-quruculuq tədbirləri;
- Sosial müdafiə tədbirləri;
- Mədəniyyət müəssisələrinin tikintisi və yenidənqurulması;
- Gənclər və idman müəssisələrinin tikintisi və yenidənqurulması;
- Səhiyyə müəssisələrinin tikintisi və yenidənqurulması;
- Təhsil müəssisələrinin tikintisi və yenidənqurulması.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası ölkə iqtisadiyyatında mühüm əhəmiyyət kəsb etməklə, 2015-ci il ərzində makroiqtisadi sabitliyin təmin olunmasında, sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və yeni iş yerlərinin yaranmasında, infrastruktur və kommunal xidmətlərin səviyyəsinin daha da yüksəldilməsində və əhalinin rifah halının daha da yaxşılaşdırılmasında müstəsna rol oynamışdır.

Ölkədə, o cümlədən regionlarda yeni iş yerlərinin yaradılması, sahibkarlığın inkişafı, infrastruktur təminatının yaxşılaşdırılması və əhalinin kommunal xidmətlərə olan tələbatının ödənilməsi, sosial problemlərinin həlli istiqamətində tədbirlər 2015-ci il ərzində də uğurla icra olunmuşdur.

# "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfransda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin giriş nitqi




Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı üçüncü Dövlət Proqramı keçən il qəbul edilmişdir. Keçən il biz Heydər Əliyev Mərkəzinin bu salonunda ikinci Dövlət Proqramının yekunlarını müzakirə etmişdik və üçüncü proqramın qəbul olunması məsələsi o vaxt qoyulmuşdur. Bir il keçibdir və bir il ərzində görülən işlər haqqında bu gün məlumatlar veriləcək, eyni zamanda, bu il görüləcək işlər haqqında danışacağıq.

Bir il ərzində dünyada müxtəlif hadisələr baş vermişdir, müxtəlif proseslər getmişdir. Dünyada gərginlik artır, həm Yaxın Şərqdə, həm Avropada qanlı toqquşmalar baş verir, müharibələr davam edir. Bir sözlə, dünyada siyasi böhran davam edir, maliyyə və iqtisadi böhranın yeni mərhələsi başlamışdır.

Azərbaycanda isə keçən il ərzində bütün işlər müsbət istiqamətdə getmişdir. Azərbaycan inamla irəliyə gedir, dayanıqlı inkişaf təmin edilmişdir. Azərbaycan dünyada sabitlik adasıdır, inkişaf məkanıdır. Çünki Azərbaycanda xalqla iqtidar arasında birlik var, bizim bütün təşəbbüslərimiz xalq tərəfindən dəstəklənir. Bizim atılan bütün addımlarımız Azərbaycanın inkişafına xidmət edir. Ölkəmizdə ictimai, siyasi vəziyyət sabitdir, iqtisadiyyata böyük həcmdə investisiyalar qoyulur və iqtisadiyyatımızın şaxələndirilməsi

istiqamətində çox önəmli addımlar atılır. Yəni, bu gün Azərbaycan nəinki regionda, dünya miqyasında seçilən ölkələrdən biridir və dünyada bizə olan maraq artır. Bu yaxınlarda Davos Dünya İqtisadi Forumu çərçivəsində keçirdiyim çoxsaylı görüşlər, orada səslənən fikirlər bunu bir daha göstərir və Azərbaycanın inkişaf modelini yüksək qiymətləndirirlər.

Yəni, budur bizim bugünkü reallıqlarımız. Dünyada çağırışların sayının artmasına baxmayaraq, Azərbaycanın inamlı, uğurlu inkişafı davam edəcək. Yaxın Şərqdə siyasi və hərbi böhran yaşanır, Avropada vəziyyət gərginləşir, Ukraynadakı vəziyyət daha da kəskinləşir, neftin qiyməti kəskin şəkildə aşağı düşmüşdür. Yəni, son bir il ərzində bütün bu və digər amillər əslində mənfi tərəfə gedən amillərdir. Yəni, mən bu amillərin arasında bir dənə də müsbət amil görmürəm. Amma buna baxmayaraq, Azərbaycan inkişaf edir, insanların rifah halı yaxşılaşır. Regionlar sürətlə inkişaf edir. Azərbaycan nəhəng enerji və nəqliyyat layihələrini icra edir.

2004-cü ildə birinci proqramın qəbul edilməsi tarixi hadisə idi. Yadımdadır, 2003-cü ildə prezident seçkiləri ərəfəsində bəyan etmişdim ki, əgər xalq mənə etimad göstərərsə, ilk növbədə, regionların inkişafı ilə məşğul olacağam və proqram qəbul ediləcəkdir. Belə də oldu, 2004-cü ilin fevralında regionların sosial-iqtisadi inkişafı birinci Dövlət Proqramı qəbul olunmuşdur və 5 il ərzində uğurla icra edilmişdir. O vaxt bəyan etmişdim ki, 600 min iş yeri yaradılacaqdır. Ancaq ondan daha çox iş yeri yaradılmışdır. Baxmayaraq ki, o vaxt bizim böyük maliyyə resurslarımız yox idi, valyuta ehtiyatlarımız çox məhdud idi, iqtisadiyyat çoxşaxəli deyildi və neftdən gələn gəlirlər hələ ki, qabaqda idi. Buna baxmayaraq, düşünülmüş siyasət nəticəsində və xalqın böyük dəstəyi ilə biz birinci proqramı uğurla başa vurduq və ikinci proqram qəbul edildi. Əlbəttə ki, ikinci proqramı qəbul edərkən artıq Azərbaycan dəyişmişdi. 2009-cu ildə Azərbaycan artıq ayaqda möhkəm dayanmışdı. Artıq bizim gəlirlərimiz gəlməyə başlamışdı. Ona görə hələ 2009-cu ildə ikinci proqramın icrası ilə bağlı demişdim ki, mən heç bir problem görmürəm. O proqram da artıqlaması ilə icra edilmişdir.

Biz üçüncü proqramı da 2018-ci ilə qədər uğurla icra etməliyik. Baxmayaraq, bir daha demək istəyirəm ki, ətrafda gedən xoşagəlməz proseslər mənzərəni tam dəyişmişdir. İstisna edilmir ki, gələcək illərdə bölgədə gərginlik daha da artacaq. Çünki bu vaxta qədər görmədiyimiz təhlükələr meydana çıxır. İstisna olunmur ki, böhranla, iqtisadi, maliyyə böhranı ilə bağlı bizi qarşıda daha da böyük sınaqlar gözləyə bilər. Ancaq biz bütün bu çağırışlara hazır olmalıyıq və hazırıq. Çünki vaxtında bütün tədbirləri görmüşük, heç vaxt populist bəyanatlarla çıxış etməmişik, heç vaxt xaricdə yerləşən hansısa quruma xoşa gəlmək üçün addımlar atmamışıq. Ancaq praqmatik siyasət aparmışıq, Azərbaycan xalqının maraqlarını qorumuşuq və ölkəmizi inamla idarə etmişik. Ona görə əminəm ki, üçüncü proqramın icrası ilə də bağlı heç bir problem olmamalıdır. Proqramı icra etmək üçün bütün cəmiyyət səfərbər olmalıdır və əminəm ki, biz buna nail olacağıq.

Bu gün bu salonda bütün rayonların, şəhərlərin icra hakimiyyəti başçıları, tanınmış biznes strukturlarının rəhbərləri əyləşiblər. Yəni, bu proqramın icrası məsələsi böyük dərəcədə sizin fəaliyyətinizdən asılı olacaq. Əlbəttə ki, dövlət öz siyasətini aparır, bu il və gələn illərdə investisiya proqramı icra ediləcək. Bizim düşünülmüş siyasət imkan verir ki, bütün məsələlər həll olunsun. Sahibkarlara kömək davam etdiriləcək, quruculuq-abadlıq, infrastruktur layihələrinin icrası təmin ediləcək, ancaq yerlərdə dövlət qurumlarının və biznes strukturlarının nümayəndələri birgə çalışmalıdırlar ki, işlər daha da sürətlə getsin.

Əgər biz 2004-cü ilə nəzər salsaq görərik ki, son 11 il ərzində Azərbaycan dünya miqyasında iqtisadi və sosial baxımdan ən sürətlə inkişaf edən ölkə olmuşdur. Bütün göstəricilər bunu təsdiq edir. Sadəcə olaraq bəzi rəqəmləri qeyd etmək istərdim. 2004-cü ildən bu günə qədər ümumi daxili məhsulumuz 3,4 dəfə artmışdır. Bu, dünya miqyasında rekord göstəricidir. Sənaye istehsalı 2,7 dəfə artmışdır. On bir il ərzində ölkə iqtisadiyyatına 180 milyard dollar investisiya qoyulmuşdur. 2004-cü ildə bizim valyuta ehtiyatlarımız 1,8 milyard dollar idisə, bu gün 50 milyard dollardan çoxdur. Görün, biz nə qədər ehtiyat yığmışıq. Baxmayaraq ki, bizim son illərdəki investisiya proqramlarımız çox genişmiqyaslıdır. Ancaq biz valyuta ehtiyatlarımızı ildən-ilə artırmışıq ki, ilk növbədə bu, bizə böyük inam verir, eyni zamanda, kredit reytinqlərimizi artırır və bununla bərabər bu, bir sığortadır, istənilən xoşagəlməz hadisəyə qarşı ciddi sığortadır. Bu gün bizim valyuta ehtiyatlarımız xidmət edir. Bu, sadəcə olaraq mücərrəd anlayış deyil. Hər

bir insan bunu öz gündəlik həyatında hiss edir. Çünki manatın məzənnəsi sabit olaraq qalır. Baxmayaraq ki, neftin qiyməti düşüb, böyük valyuta ehtiyatlarımız, düşünülmüş makroiqtisadi siyasət imkan verir ki, Azərbaycan vətəndaşları bu böhranı hiss etməsinlər.

Bu illər ərzində 1 milyon 360 min yeni iş yeri yaradılmışdır. Onlardan 1 milyonu daimi iş yeridir. Bu da daimi proses olmalıdır. Mən bu barədə dəfələrlə demişəm. Çünki əhalinin sayının artması tələb edir ki, iş yerlərinin açılması daimi proses olsun. İşsizliklə bağlı aparılan tədbirlər nəticəsində işsizlik 5 faizə düşmüşdür, yoxsulluq da 5 faiz səviyyəsindədir. Dünyanın aparıcı kredit reytinq agentlikləri Azərbaycanın suveren reytinqlərini artırmışlar. Davos Dünya İqtisadi Forumu ölkəmizi iqtisadi sahədə rəqabətqabiliyyətliliyinə görə 38-ci yerə layiq görmüşdür. Bax, budur əsas makroiqtisadi göstəricilərimiz. İnflyasiya da çox aşağı səviyyədədir, manat da ildən-ilə öz dəyərini artırır.

Ona görə bu statistik rəqəmlərə baxdıqda hər kəs görə bilər ki, biz nə qədər böyük yol keçmişik. Deyə bilərəm ki, heç kim bizə kömək etməmişdir. İndi dünyanın hətta inkişaf etmiş ölkələri xarici yardımdan bəhrələnmək istəyirlər. Xarici yardım olmadan o iqtisadiyyatlar çökür, defolt vəziyyətinə düşür. Qapı-qapı gəzirlər, yalvarırlar ki, onlara vəsait ayırsınlar. İndi yəqin ki, özlərini bir növ o qədər də rahat hiss etmirlər.

Amma Azərbaycan bütün nailiyyətlərə təkbaşına çatıbdır. Bəzi hallarda əsassız təzyiqlərə də məruz qalmışıq. Bəzi hallarda bizə qarşı kampaniyalar da aparılıbdır və aparılır. Bəlkə bəzilərinin xoşuna gəlmir ki, Azərbaycan bu qədər müstəqil ölkədir, Azərbaycanda hər şey yaxşıdır, Azərbaycan çiçəklənir, gündən-günə inkişaf edir. Bu, bəzilərinin, necə deyərlər, gözünü deşir. Bizi bunu da bilirik.

Əlbəttə, iqtisadi güc imkan verir ki, siyasi səhnədə də heç kimdən çəkinmədən sözümüzü deyək, milli maraqlarımızı qoruyaq, qoruyacağıq və qoruyuruq. Ona görə iqtisadi güc bizə, bax, bu imkanları yaradır. Ona görə xatırlayıram, hələ 2003-cü ildə demişdim ki, əgər biz iqtisadi müstəqilliyə nail olmasaq, bizim siyasi müstəqilliyimiz də yarımçıq olacaq. Bu gün biz ətrafdakı ölkələrin vəziyyətini görürük. Baxın, dilənçi Ermənistana nəzər yetirin. Ermənistan nəinki müstəmləkə deyil, hətta o, bəlkə heç nökər adına da layiq deyil. Milli ləyaqət kriminal xunta tərəfindən tapdalanır və son hadisələr bunu bir daha göstərir. Görün, nə qədər bunlar aciz durumdadırlar ki, hətta haqlı tələbləri də irəli sürə bilmirlər. Bu ölkə artıq sübut edib ki, müstəqil ölkə kimi yaşaya bilmir. Müstəmləkə kimi yaşaya bilər. O qədər xalqlar var ki, onların müstəqilliyi yoxdur. Əgər öz çirkin siyasətindən əl çəkməsə, onlardan biri də Ermənistan olacaq.

Məhz iqtisadi güc bizə bu imkanları yaratdı və bu gün biz müstəqilik. İqtisadi və siyasi cəhətdən heç kimdən asılı deyilik. Heç kim bizimlə diktat dili ilə danışa bilməz. Bəziləri bunu istəyir, ancaq alınmır və alınmayacaq. Biz öz sözümüzü təmkinlə, çox soyuqqanlı deyirik və heç kimin qabağında başıaşağı deyilik, ölkəmizi ləyaqətlə idarə edirik.

Ona görə iqtisadi amil, bax, bu imkanları yaradır. Eyni zamanda, ciddi iqtisadi islahatlar ciddi sosial siyasətlə də tamamlanmalıdır. Bu olmasa, cəmiyyətdə islahatlara o qədər də böyük dəstək olmayacaq. Ona görə biz sosial sahəni də prioritet kimi götürmüşük. Yaxşı başa düşürdük, sosial sahə ancaq o vaxt inkişaf edə bilər ki, güclü iqtisadiyyat olsun. Yoxsa, gəl xaricdən alınan kreditlər hesabına sosial sahəni inkişaf etdir. Biz defolta düşən ölkələrin vəziyyətinə düşərdik. Burada rəhbərliyin məsuliyyətli davranışı da qeyd edilməlidir. Bəzi ölkələr ki, indi xarici yardımsız yaşaya bilmirlər, onların rəhbərliyi hakimiyyətə gəlmək naminə çoxlu vədlər vermişlər - maaşları on dəfə qaldıracağıq, pensiya yaşını aşağı salacağıq və s. İnsanlar da onlara inanıb, onlara səs verib. Onlar da hakimiyyətə gələndən sonra gərək o sözləri yerinə yetirərdilər. Bunun üçün resurs yox idi. Ona görə nə etdilər? Getdilər xarici bazarlardan borc aldılar, özlərini asılı vəziyyətə saldılar. Ondan sonra borcun üstünə borc gəldi. Bir borcu qaytarır, o biri borcu götürür və beləliklə, piramida yaranır. Piramidanı təkcə dələduz şirkətlər yaratmır. Bəzi hallarda hökumətlər də yaradır. Bir gün bu piramida dağılmış və həmin ölkələr çox ağır vəziyyətə düşmüşlər. Ona görə siyasi məsuliyyət də çox böyük əhəmiyyət daşıyır.

Sosial sahəyə gəldikdə, sosial islahatların təməlində güclü iqtisadiyyatımız dayanır. Mən bu sahədə də bəzi rəqəmləri qeyd etmək istərdim. 2004-cü ildə Azərbaycanda orta aylıq əmək haqqı 100 dollar idisə, hazırda bu, 565 dollardır. Orta aylıq pensiya 24 dollar idi, hazırda 221 dollardır. Azərbaycanda sosial infrastruktur layihələri son on bir ildə uğurla icra edilmişdir. 2900 məktəb binası, 560 tibb ocağı tikilmiş və ya təmir edilmişdir. Təkcə regionlarda 41 olimpiya idman mərkəzi və 30 gənclər mərkəzi yaradılmışdır.

Bax, bu, sosial sahəyə, sosial infrastruktura qoyulan vəsaitin və ayrılan diqqətin təzahürüdür.

Bu illər ərzində sosial cəhətdən ən ağır vəziyyətdə olan soydaşlarımıza - məcburi köçkünlərə də biz daim qayğı ilə yanaşmışıq. Son on bir il ərzində 84 qəsəbə yaradılmışdır. Hazırda, 210 min köçkün yeni, gözəl evlərə, mənzillərə köçürülmüşdür. Bu məqsədlər üçün 2 milyard manat, yəni, 2,6 milyard dollar vəsait ayrılmışdır. On bir il ərzində 210 min insanı yerləşdirmək asan məsələ deyil. Bu, böyük bir şəhər boyda qəsəbələrdir. Bunu da biz edirik və edəcəyik. Hələ ki, ağır vəziyyətdə yaşayan köçkünlərimiz var. Bu il də onların problemlərinin həlli üçün həm dövlət büdcəsində, həm Dövlət Neft Fondunda kifayət qədər böyük vəsait nəzərdə tutulur.

Biz bu illər ərzində bütün əsas tarixi, mədəni, dini abidələrimizi əsaslı şəkildə bərpa etmişik və yenilərini tikmişik. Teatrlar, muzeylər - bu sahəyə də nəinki Bakıda, hər bir yerdə, bütün bölgələrdə böyük diqqət göstərilir. Çünki bu, bizim tariximizdir, mədəniyyətimizdir. Biz bunu gələcək nəsillər üçün qorumalıyıq ki, Azərbaycanın davamlı, uzunmüddətli inkişafı təmin edilsin. Biz öz köklərimizə həmişə bağlı olmalıyıq və gənc nəsil də bu ruhda tərbiyə almalıdır. Çünki bu gün qloballaşma prosesi gedir. Düzdür, son vaxtlar bu "qloballaşma" sözü daha az çəkilir. Ancaq proses gedir. Sadəcə olaraq bəzi ölkələr qloballaşma adı altında öz təsir dairələrini genişləndirmək, xalqları bir növ öz milli köklərindən ayırmaq, qoparmaq, o tarixi bağları qırmaq istəyirlər. Budur bunun təməlində dayanan əsas məqsəd. Əlbəttə ki, indi qloballaşma deyəndə bəziləri bunu inteqrasiya, dünyanın yeni inkişaf modeli kimi qələmə verirlər. Ola bilər, müsbət məqamlar da var, onları mən inkar etmək istəmirəm. Ancaq, eyni zamanda, açıq-aydın görünür, bu siyasətlə böyük dairəyə hakim olmaq, təsir imkanlarını genişləndirmək istəyirlər ki, xalqlar öz köklərindən ayrılsınlar, öz əcdadlarını, tarixlərini unutsunlar, sadəcə amorf, kosmopolit bir kütləyə çevrilsinlər ki, onları istənilən istiqamətə göndərmək mümkün olsun. Ona görə milli ruhda tərbiyə almaq hər bir gəncin borcudur. Yaşlı nəslin borcudur ki, bax, bu ənənələri yaşatsınlar və gəncləri milli ruhda böyütsünlər. Ona görə bizim tarixi, dini abidələrimiz, mədəniyyətimiz sadəcə olaraq, memarlıq abidələri deyil. Bu, eyni zamanda, tərbiyə vasitəsidir. Bax, Azərbaycan belə inkişaf etməlidir. Bu gün Azərbaycan müasir, inkişaf edən ancaq öz köklərinə sıx bağlı olan dövlət və cəmiyyətdir. Həmişə də belə olmalıdır. Nə qədər ki, bizim hökumət iqtidardadır, bu, belə olacaq. Ancaq bu, həmişə belə olmalıdır. Ölkəmizin müstəqil həyatı üçün bu, əsas şərtdir.

Bu illər ərzində infrastruktur layihələrinə böyük diqqət göstərilmişdir və görülən işlər göz qabağındadır. Düzdür, bəzi hallarda bu görülən işlər unudulur, bəzilərinə elə gəlir ki, həmişə belə olubdur. Ancaq indi bəzən o köhnə görüntüləri televiziya ilə göstərəndə hər kəs yada salır ki, əvvəlki vəziyyət necə idi. Son illərdə həm Bakıda, həm bütün bölgələrdə infrastruktur layihələrinin icrası prioritet xarakter daşıyırdı. Çünki bu olmasa, heç bir regional inkişaf proqramı icra edilə bilməz. Bu, necə icra edilsin, o müəssisə necə yaradılsın ki, o bölgədə, rayonda elektrik enerjisi, yol yoxdur?

Ona görə, bax, ilk növbədə, infrastruktur layihələri, - onu da mən 2003-cü ildə demişəm, - elektrik təminatı və yollar olmalıdır. Ondan sonra prioritet olaraq qazlaşdırma, içməli su, meliorasiya. Biz, bax, bu ardıcıllıqla da gedirik. Ona görə ilk növbədə, elektrik enerjisi qurğularının yaradılmasına böyük vəsait ayrıldı. Son 11 il ərzində 23 elektrik stansiyası tikilmişdir ki, onların gücü 2400 meqavatdır. Müqayisə üçün deyə bilərəm ki, ölkəmizin ümumi enerji potensialı 6300 meqavatdır. 2400 meqavat son 11 ildə yaradılmışdır. Əgər yaranmasaydı, bu gün ölkəmizin üçdəbir hissəsi işıqsız qalacaqdı, heç bir inkişafdan söhbət gedə bilməzdi, heç bir müəssisə yaradılmazdı. Müəssisələrə gəldikdə, son 11 ildə 64 min müəssisə yaradılmışdır. Ona görə elektrik enerjisi ilə təchizat təmin edildi.

Bütün şəhərlərdə qazlaşdırma yüz faiz səviyyəsindədir. Bu da tarixi nailiyyətdir. Heç vaxt belə olmamışdır. Hətta sovet dövründə bəzi rayonlarda ümumiyyətlə təbii qaz çəkilişi aparılmamışdır. İndi bütün şəhərlərimizdə hər bir evdə yüz faiz təbii qaz var. Kəndlərdə də bu proses gedir. Hər rübdə bir dəfə mənə məlumat verilir. Hansı kəndlərdə qazlaşdırma işləri aparılıb. Biz böyük işlər görmüşük və qazlaşdırma Azərbaycanda minimum 90-95 faiz olmalıdır. Biz proqramın sonunda - 2018-ci ildə bu məqsədə də çatacağıq.

Son 11 il ərzində 10 min kilometr yol çəkilmişdir. Magistral yollar, kənd yolları, 340 körpü və tunel tikilmişdir. Bakı-Tbilisi-Qars kimi beynəlxalq strateji əhəmiyyət daşıyan layihə Azərbaycanın təşəbbüsü ilə

başlamışdır, indi tikintisi başa çatır. Bölgələrdə 6 aeroport tikilmişdir, onlardan 4-ü beynəlxalq aeroportdur. Heydər Əliyev beynəlxalq aeroportunun yeni terminal binası tikilmişdir. İndi bölgələrdən beynəlxalq uçuşlar təşkil edilir. Bu aeroportların bəziləri yenidən quruldu, bəziləri heç yox idi, tikilmişdir. Bu işə başlayanda bəziləri hesab edirdilər ki, buna - əlavə vəsait xərclənməsinə ehtiyac yoxdur. Amma görün indi nə qədər insan cənub, şimal-qərb bölgələrindən müxtəlif ölkələrə rahat gedir, daha Bakıya gəlməyə ehtiyac yoxdur.

Bu infrastruktur layihələrinin arasında əlbəttə, içməli su layihələri də prioritet xarakter daşıyır və son illər ərzində bu sahəyə daha da böyük diqqət göstərilir. Bizim bütün şəhərlərimizdə Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su 24 saat təmin ediləcək. Artıq bir neçə şəhərdə bu layihələr başa çatıb. Mən də hər bir layihənin başa çatması tədbirlərində şəxsən iştirak edirəm və yerlərdən gələn məlumatlar da məni çox sevindirir. Bu da tarixi hadisədir. Çünki Azərbaycanın daxili su mənbələri məhduddur. Bizim əsas mənbələrimiz xaricdə formalaşan çaylardır. Ona görə bu çayların sularından səmərəli şəkildə istifadə etmək, orada təmizləyici qurğuların tikintisi, eyni zamanda, daxili mənbələrin aşkarlanması prosesi gedirdi. Oğuz-Qəbələ-Bakı su kəməri tikilmişdir. Bu da simvolik xarakter daşıyır.

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin gəlirlərindən əldə edilmiş vəsait su kəmərinin tikintisinə qoyulmuşdur. Bax, bizim siyasətimiz bundan ibarətdir. Hər kəs yaxşı bilir ki, o sahəyə qoyulan vəsait heç vaxt qayıtmayacaq. Yəni, onlar sırf sosial xarakter daşıyan layihələrdir. Əgər elektriklə, yolların tikintisi ilə bağlı görülən müxtəlif işlər nəticəsində o vəsait uzun müddətdən sonra qayıdacaqsa, su təsərrüfatına qoyulan vəsait qayıtmayacaq. Su təsərrüfatına yüz milyonlarla, milyardlarla vəsait qoymuşuq. İndi Bakının su ilə təminatı 78 faizə çatmışdır, 2004-cü ildə 29 faiz idi. Yəni, şəhərin 24 saat su ilə təchizatı nəzərdə tutulur. Ölkə üzrə 60 faizdən çoxdur, amma 11 il bundan əvvəl bəlkə 10-15 faiz idi.

İnfrastruktur layihələrinin arasında meliorasiya layihələri də böyük önəm daşıyır. Biz bu layihələrin icrasını təmin etmişik. İki nəhəng meqalayihəni icra etmişik - Şəmkirçay və Taxtakörpü su anbarları, kanallar, elektrik stansiyaları. Bu da Azərbaycana bundan sonra xidmət edəcək. Yəni, onilliklər, yüzilliklər bundan sonra bu anbarlar, çəkilən bu kanallar kənd təsərrüfatının inkişafına xidmət edəcək. Eyni zamanda, suların idarə edilməsi məsələlərinin həllində də bu layihələrin böyük əhəmiyyəti var. Bu da böyük vəsait tələb edən layihələrdir. Ancaq biz bunu etmişik. Bir daha demək istəyirəm ki, infrastruktura, real sektora vəsait qoyulmalıdır. Eyni zamanda, qeyd etdiyim kimi, ehtiyatlar da yığılmalıdır. Bax, biz belə etmişik. Həm ehtiyatlarımızı artırmışıq, həm də investisiya qoymuşuq. Vaxtında real sektora, infrastruktura investisiya qoymayan ölkələr bu gün peşman olurlar. Onlar bu işə indi başlayırlar, amma artıq gecdir. İndi neftin qiyməti düşəndən sonra böyük investisiya qoymaq o qədər də asan məsələ deyil. Biz hər şeyi vaxtında etməli idik və etmişik. Ona görə deyəndə ki, bu gün Azərbaycan modeli var, biz səhv etmirik. Bu model var və bu model başqa tərəflər üçün də maraq doğurur. Mən hələ enerji layihələrini qeyd etmirəm. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, “Şahdəniz”, TANAP, TAP, “Cənub” qaz dəhlizi - bu layihələr regionun, Avropanın enerji xəritəsini dəyişir. Bunların hər biri nadir tarixi layihədir. Bu layihələr son 9 il ərzində icra edilib. Bakı-Tbilisi-Ceyhan 2006-cı ildə istifadəyə verilmişdir, dəhliz yaradılmışdır. O dəhliz indi xidmət göstərir, yeni layihələr ortaya çıxır. Yenə də Azərbaycan liderlik keyfiyyətlərini ortaya qoyur. Əgər biz liderliyi göstərməsəydik, heç vaxt “Cənub” qaz dəhlizi icra edilməyəcəkdi. Mən vaxtilə şəxsən Nabukko layihəsinin müzakirəsi ilə bağlı azı 10 beynəlxalq tədbirdə iştirak etmişəm. Yəni, orada müzakirədən başqa heç nə yox idi. Bəyanatlar, çıxışlar, qətnamələrin qəbul edilməsi, vəssalam. Ondan sonra hamı dağılır gedir, iş də qalır kənarda. Mən minimum on tədbirdə iştirak etmişəm. Hər dəfə də demişəm ki, burada liderlik olmalıdır. Bu layihəni necə icra etmək lazımdır? Bunun əsas elementləri nədən ibarətdir? Bu o qədər də çətin məsələ deyil. Amma elə mən deyirdim, mən eşidirdim. Daha sonra gördük ki, artıq bu layihə yerində sayır. Yenə də təşəbbüs göstərmişik, TANAP layihəsini təklif etmişik. Adı da biz qoymuşuq, təşəbbüskarı da biz olmuşuq. 2012-ci ildə Türkiyə ilə bu layihəni imzaladıq. Ondan sonra artıq “Cənub” qaz dəhlizi üçün yol açıldı. Bunu etməsə idik nə olacaqdı?! Elə belə də qalacaqdı. Ya da ki, Bakı-Tbilisi-Qars. Bu məsələ on il bundan əvvəl müzakirə olunurdu və hələ müzakirə kimi gedirdi. Əgər təşəbbüs göstərməsəydik, real təklifi, maliyyə resurslarını ortaya qoymasaydıq, elə indi də danışacaqdıq. Nazirlər indi də gedib orada-burada konfranslar keçirəcəkdilər. Biz real işlərlə məşğuluq. Real işlər həyatda öz əksini tapır. Ona görə bu gün Azərbaycan modeli var. Ona görə ki, biz boşboğazlıqla yox, real işlərlə məşğuluq, xalqa xidmət edirik və edəcəyik.

# "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfransda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yekun nitqi



Bu il görüləcək işlərlə bağlı müvafiq göstərişlər verilmişdir. Dövlət İnvestisiya Proqramı qəbul edilmişdir. Kifayət qədər geniş həcmli proqramdır. Əminəm ki, proqram icra ediləcək və beləliklə, 2015-ci il də Azərbaycanda uğurlu il kimi tarixdə qalacaq. Bütün planlarımızı həyata keçirmək üçün ilk növbədə, ölkədə makroiqtisadi vəziyyət sabit olmalıdır. Bu istiqamətdə böyük işlər aparılmışdır. Uzun illər makroiqtisadi vəziyyət diqqət mərkəzindədir. Bizim göstəricilərimiz də çox müsbətdir. Keçən il inflyasiya cəmi 1,4 faiz olmuş, iqtisadiyyat təxminən 3 faiz, qeyri-neft sektorumuz isə 7 faiz artmışdır.

Qeyd etdiyim kimi, manatın məzənnəsi sabitdir. Dünyada neftin qiymətinin düşməsi ilə bağlı manatın məzənnəsinə heç bir mənfi təsir olmamışdır. Əksinə, manat daha da güclənir. Hesab edirəm ki, biz bu məsələyə baxmalıyıq. Çünki o vaxt biz pul islahatını apararkən bir manat bir dollara bərabər idi. Ondan sonra manatın qiyməti qalxdıqca 1 manat 1,3 dollar olmuşdur. Bir növ manat avroya bağlı idi. Bir manat bir avro. İndi isə bir manat bir avrodan daha da qiymətlidir və bahalıdır. Əlbəttə ki, sosial məsələlərin həlli üçün bu, müsbət amildir. Ancaq biz bütün məsələlərə kompleks şəkildə yanaşmalıyıq. İqtisadiyyat, ixrac potensialımız üçün bu, o qədər də müsbət hal deyil. Ona görə hesab edirəm ki, manatın bundan sonra da avroya qarşı bahalaşması müsbət hal deyil. Hesab edirəm ki, bir manat bir avro səviyyəsində qalarsa,

makroiqtisadi vəziyyət təmin ediləcək. Eyni zamanda, bu, insanların gündəlik həyatına ancaq müsbət təsir göstərəcək. Eyni zamanda, bizim ixracımız üçün heç bir problem yaranmamalıdır. Çünki Azərbaycan iqtisadiyyatı bundan sonra ixracyönümlü iqtisadiyyat kimi inkişaf etməlidir. Bir qədər sonra mən bu barədə öz fikirlərimi daha da geniş şəkildə deyəcəyəm. Ona görə ixracın inkişafı, təşviqi indi gündəlikdə duran məsələlərdir. Manatın məzənnəsi isə burada önəmli rol oynayır. Ona görə hesab edirəm, müvafiq qurumlar, hökumət, Mərkəzi Bank bu məsələlərə diqqətlə yanaşmalıdırlar ki, manat həddindən artıq bahalaşmasın.

Maliyyə resurslarımız kifayət qədər böyükdür. Xarici borc ümumi daxili məhsulun cəmi 8 faizini təşkil edir. Bu, dünya miqyasında ən gözəl göstəricilərdən biridir. Bu göstəriciyə görə bəlkə də biz dünyada birinci 10 ölkənin arasındayıq. Bütün işləri daxili resurslar hesabına görmüşük. Bax, bu göstərici onu əyani şəkildə təsdiq edir. Biz borclanmamışıq, lazım olan borcları götürməmişik. Halbuki götürə bilərdik. Hazırda Azərbaycanın kredit reytinqi, makroiqtisadi vəziyyəti, valyuta ehtiyatları o qədər müsbət mənzərə yaradır ki, biz xarici bazarlardan istənilən məbləğdə - 10 milyard, 20 milyard, 30 milyard dollar vəsait götürə bilərik, ancaq götürmürük. Çünki bayaq qeyd etdiyim kimi, bu məsələyə məsuliyyətlə yanaşırıq. Xarici borc daim aşağı səviyyədə olmalıdır. Biz əslində bu borcu bir gündə də ödəyə bilərik. Çünki xarici borcumuz valyuta ehtiyatlarımıza nisbətdə təxminən 10 faizdən bir qədər çox rəqəm təşkil edir. Ona görə xarici borc aşağı səviyyədədir. Bu, müsbət haldır. Müsbət hal kimi də qalmalıdır. Bu il də bizim büdcəmizdə xarici borcun qaytarılması üçün vəsait nəzərdə tutulur.

Bununla bərabər, qeyd etməliyəm ki, neftin qiymətinin düşməsi istər-istəməz bizim gəlirlərimizə təsir göstərir. Biz daha əvvəlki illərdə olduğu kimi, valyuta ehtiyatlarımızı artıra bilməyəcəyik. Bu, reallıqdır, bunu hamı bilməlidir. Belə olan halda əlbəttə ki, israfçılığa yol verilməməlidir. Əgər əvvəlki illərdə biz bəzi hallarda o qədər də böyük prioritet təşkil etməyən layihələri də investisiya proqramına daxil edirdiksə, artıq o dövr bitdi. İnvestisiya proqramına ancaq prioritet məsələlər salınır. Eyni zamanda, ciddi nəzarət aparılmalıdır. Həm dövlət strukturları, həm dövlət şirkətləri artıq xərclərə yol verməməlidirlər. İsrafçılığa, ümumiyyətlə, yol vermək olmaz - nə həyatda, nə siyasətdə, nə də ki, iqtisadi məsələlərin həllində, o cümlədən indiki şəraitdə. Neftlə zəngin olan bütün ölkələr, böyük potensiala malik olan ölkələr öz büdcələrini ixtisar edirlər, özü də böyük dərəcədə. Xərcləri ixtisar edirlər. Bu da təbiidir. Hər adam yorğanına görə ayağını uzatmalıdır. Hökumətlər də, dövlətlər də eyni qayda ilə hərəkət etməlidirlər. Ona görə bir daha demək istəyirəm ki, bizim nəzarət orqanlarımız buna nəzarət etsinlər, yerlərdə israfçılığa yol verilməməlidir. Hər bir vəsaitdən böyük səmərə ilə istifadə edilməlidir ki, bizim ümumi makroiqtisadi vəziyyətimiz bundan sonra da yüksək səviyyədə olsun.

Bununla bərabər, prioritet xarakter daşıyan bütün layihələr icra ediləcək, o cümlədən infrastruktur layihələri, sosial layihələr. Bu il məktəblərin tikintisi və təmiri nəzərdə tutulur. Tibb ocaqlarının, idman qurğularının, xüsusilə uşaq bağçalarının tikintisi son illərdə Azərbaycanda geniş vüsət almışdır. Bu proses davam etdirilməlidir. Çünki işsizliyin aradan qaldırılması nəticəsində indi ailədə hər iki valideyn işlə təmin olunur. Belə olan halda uşaq bağçalarının sayının artırılmasına çox böyük ehtiyac var. Yəni, bu məsələlər bir-biri ilə görürsünüz, nə qədər bağlıdır. İqtisadi inkişaf, iş yerlərinin yaradılması, işsizliyin aradan qaldırılması bax, diktə edir ki, bu məsələ də öz həllini tapsın. Eyni zamanda, iqtisadi inkişaf və müsbət demoqrafik vəziyyət diktə edir ki, iş yerlərinin yaradılmasına diqqət daim yüksək səviyyədə olmalıdır. Çünki Azərbaycan üçün bu, daimi prosesdir. Bizdə demoqrafik vəziyyət müsbətdir, əhali artır, artıq əhalimiz 10 milyona yaxınlaşır. Ona görə hər il biz on minlərlə yeni iş yerlərini yaratmalıyıq ki, işsizlik aşağı səviyyədə olsun.

İnfrastruktur layihələrinin icrası davam etdiriləcək. Burada elektrik xətlərinin təmiri xüsusi əhəmiyyət daşıyır, çünki artıq yeni güclər yaranıb. Ötürücü xətlərə də vəsait ayrılıb. Bütün xətlər yenidən qurulmalıdır, təmir edilməlidir. İçməli su, kanalizasiya layihələri, - burada qeyd olundu “Azərsu”, eyni zamanda, “Meliorasiya və Su Təsərrüfatı” Səhmdar Cəmiyyəti, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən icra edilir. Yəni, üç qurum bu işlərlə məşğul olur. Çaylar boyunca yerləşən kəndlərdə modul tipli təmizləyici qurğular quraşdırılır. Bu məqsədlə Prezidentin ehtiyat fondundan vəsait ayrılmışdır. Artezian quyularının qazılması bu il davam etdiriləcək. Bu məqsədlə də Prezidentin ehtiyat fondundan vəsait ayrılmışdır. Bu il üç yüzdən çox artezian quyusu qazılacaqdır. Bu sahə daim diqqət mərkəzindədir.

Bütün şəhərlərdə ictimai yerlər, parklar, xiyabanlar, gəzinti yerləri yaradılır. Mən bunu alqışlayıram. Əslində, bu işin təşəbbüskarı mən olmuşam. Bakıda, bütün rayonlarda həm şəhərlər gözəlləşir, eyni zamanda, insanların asudə vaxtlarını səmərəli keçirmələri üçün yeni, gözəl imkanlar yaradılır. Bu sahə də diqqətdən kənarda qalmamalıdır.

Qeyri-neft sektorunun inkişafı bizim üçün həmişə prioritet olub. Bunun nəticəsidir ki, bu gün ölkə iqtisadiyyatı dünyada çoxşaxəli iqtisadiyyat kimi tanınır. Keçən il qeyri-neft sektorumuz 7 faiz, 2013-cü ildə isə 9 faiz artmışdır. Bizim ümumi daxili məhsulumuzun tərkibində qeyri-neft sektoru üstünlük təşkil edir. Getdikcə bu rəqəm daha da artacaq və artmalıdır. Biz əlbəttə ki, bu məqsədlərə çatmaq üçün lazımi tədbirləri görürük. Burada sahibkarlığın inkişafı əlbəttə ki, öz müsbət rolunu oynayır. Çünki qeyri-neft sektorumuz sahibkarlığın inkişafı hesabına böyük dərəcədə tərəqqi edir.

Son 11 il ərzində Sahibkarlara Kömək Milli Fondunun xətti ilə iki milyard dollar məbləğində güzəştli kreditlər verilmişdir. Bu kreditlər iqtisadiyyatın real sektoruna ayrılmışdır. Kreditlərin böyük əksəriyyəti kənd təsərrüfatı məsələlərinə, qalan hissə isə sənaye müəssisələrinin yaradılmasına yönəldilmişdir. Bu il də vəsait nəzərdə tutulur və biz görürük ki, bu kreditlər, doğrudan da, gözəl nəticələrə gətirib çıxarır. Həm sahibkarlarda inam artır, çünki Azərbaycan dövləti bu layihələrdə, necə deyərlər, onlarla ortaqdır və öz payını güzəştli şərtlərlə təqdim edir, vəsait ayırır. Eyni zamanda, sahibkarların uğurlu fəaliyyəti üçün İqtisadiyyat və Sənaye Nazirliyi müxtəlif metodik sənədlər də tərtib edib ki, istənilən həcmli biznesi başlamaq istəyən üçün gözəl vəsait, yəni, əyani vəsait kimi təqdim edilir.

Bank sektorunun inkişafı son illərdə sürətlə getmişdir. Azərbaycanda indi bank sektorunda konsolidasiya gedir. Nizamnamə kapitalının artırılması nəticəsində artıq bu, bank sisteminə, ümumiyyətlə, çox müsbət təsir göstərmişdir, ölkəni və əhalini hər hansı bir sürprizdən qoruyur. Çünki artıq banklarımızın kifayət qədər böyük nizamnamə kapitalı var. Bizim banklarımızın bir neçəsi artıq xarici bazarlara çıxır, xaricə investisiya qoyur. Mən prinsip etibarı ilə buna etiraz etmirəm. Ancaq hesab edirəm ki, ilk növbədə, o bankların ki, böyük resursları var, ölkə iqtisadiyyatına vəsait ayırsınlar. Mən bir dəfə bu barədə demişəm, bir daha demək istəyirəm ki, üstünlük istehlak kreditlərinə yox, real sektora verilməlidir. Bank sektorunun əsas fəaliyyəti yeni müəssisələrin yaradılmasına, iş yerlərinin açılmasına yönəldilməlidir. Çünki Azərbaycan dövləti bank sektorunun formalaşmasında çox böyük rol oynamışdır. Azərbaycan dövləti və hökuməti həmişə bank sektoruna dəstək olmuşdur, eyni zamanda, onlara maliyyə resursları da verir, təmin edir, onlar üçün qazanc mənbəyi yaradır. Yəni, bank sektoru bunu düzgün qiymətləndirməlidir və dövlətə minnətdar olmalıdır ki, bunlara bu qədər qayğı göstərir. Dövlət də, öz növbəsində, indi onlardan daha da fəal iş gözləyir. Hesab edirəm ki, ən azı ildə iki dəfə bu barədə məlumat verilməlidir.

Azərbaycan bankları hansı həcmdə, hansı layihələrə, hansı rayonlarda, yaxud da Bakı şəhərində hansı vəsait ayırıblar? Bax, bu məlumat olmalıdır. Mən də, ictimaiyyət də görsün ki, bank sektoru ancaq öz cibini güdmür, eyni zamanda, ölkənin inkişafı üçün də fəal çalışır. Mən bir dəfə bu barədə demişəm, bir daha demək istəyirəm ki, biz banklardan sosial məsuliyyət gözləyirik. Eyni zamanda, bu gün Azərbaycanda elə gözəl biznes mühiti yaranıb ki, ölkəmizə qoyulan vəsait özünü doğruldacaq və doğruldur.

Keçən il Azərbaycanda “Sənaye ili” elan edilmişdir. Bu, bizim siyasətimizi göstərir. Çünki sənayeləşmə Azərbaycanda uğurla aparılır. Sənayeləşmə aparılmasaydı, biz həmişə neft amilindən asılı vəziyyətdə olacaqdıq. Çoxsaylı sənaye müəssisələri yaradılıbdır. Mənim göstərişimlə indi hər bir rayonda sənaye zonası yaradılmalıdır. Artıq yaxın zamanlarda bu proses də başlayacaq. Burada yerli icra orqanlarının nümayəndələrinin də böyük dəstəyinə ehtiyac vardır. Çünki onlar bu işi yerlərdə təşkil etməlidirlər ki, bu zonalar müəyyən edilsin. Orada infrastruktur layihələri icra edilməlidir, kommunikasiyalar yaradılmalıdır. Əlbəttə ki, dövlət bu işi öz üzərinə götürür. Ancaq bütün təşkilati məsələlərin həllində də yerli icra orqanları fəal iştirak etməlidirlər.

Azərbaycanda texnoparklar yaradılır və bu proses sürətlə gedir. Sənaye klasterləri yaradılır, yaradılacaqdır. Böyük, nəhəng sənaye obyektləri tikiləcəkdir. Xüsusilə mən burada metallurgiya kompleksinin tikintisini qeyd etmək istəyirəm. Çünki bu, bir növ bizim üçün yeni sənaye sahəsi olacaq ki, bunun da xammal, resurs bazası var, ixrac imkanları da kifayət qədər genişdir. Ona görə bu sahəyə dövlət investisiyaları qoyulur. O sahələr ki, ölkəmiz üçün strateji əhəmiyyət daşıyır və o sahələr ki, öz növbəsində, həm ixrac potensialımızı

artıracaq, eyni zamanda, özəl sektorun fəaliyyətinə təkan verəcək, o sahələrə dövlət investisiyalar qoyur, qoymalıdır. Çünki böyük metallurgiya kompleksinin işə düşməsi nəticəsində minlərlə şirkət, özəl şirkət yaranacaq ki, orada hazırlanan məhsullardan son məhsulu Azərbaycanda istehsal etsin və biz idxaldan asılılığımızı azaldaq.

Bakı, Sumqayıt, Gəncə bizim əsas sənaye şəhərlərimizdir. Eyni zamanda, Mingəçevir də böyük sənaye şəhərinə çevrilməlidir. Sumqayıt, nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir. Gəncə şəhəri isə əminəm ki, gələcəkdə Cənubi Qafqazın üçüncü böyük sənaye şəhərinə çevriləcəkdir. Bu məqsədlər üçün lazımi tədbirlər görülür.

Son vaxtlar sürətlə inkişaf edən sənaye sektorumuz imkan verir ki, biz özümüzü tikinti materialları ilə də təmin edək. Tikinti materialları ilə də bağlı çox gözəl mənzərə yaranmışdır. İndi mən bəzi rəqəmləri səsləndirəcəyəm, ilk növbədə, ictimaiyyət, eyni zamanda, biznes qurumları da bunu bilsinlər ki, hansı sahələrə onlar daha çox investisiya qoysunlar.

Azərbaycan bazarı böyüyür. Azərbaycan indi kiçik ölkə sayıla bilməz. Əhali təxminən 10 milyona yaxınlaşır. Biz əhalinin sayına görə orta səviyyəli ölkəyik. Ancaq bu qədər sürətli inkişafın getdiyi bir ölkədə əlbəttə ki, daxili bazar ya yerli məhsullarla artıq tam dolacaq, ya da ki, bir neçə ildən sonra. Ona görə gələcəkdə Azərbaycan iqtisadiyyatının hərəkətverici qüvvəsi ixrac potensialımız olacaq. İxrac potensialı yaratmaq olar və yaradırıq. İndi söyləyəcəyim rəqəmlər bunu göstərəcək. Ancaq biz gərək ixrac bazarları da əldə edək.

İndi bazarlar uğrunda mübarizə gedir. Böyük dövlətlər, böyük sənaye potensialına, əlaqələrə, təsir gücünə malik olan ölkələr bütün mövcud bazarları əldə ediblər. Onlar bir çox hallarda siyasi nüfuzdan istifadə edərək digər ölkələrin bazarlarına öz məhsulları ilə çıxırlar və düz də edirlər. Biz də bunu edirik və etməliyik. Siyasi hakimiyyət biznesi dəstəkləməlidir. Azərbaycan dövləti də, biz də dəstəkləyirik. Sənaye məhsullarının istehsalında, ilk növbədə, iş adamları yeni bazarlara çıxmalıdırlar. Mən bunu dəfələrlə demişəm, xaricdə fəaliyyət göstərən səfirlərlə görüşlərdə onlara da tapşırmışam, gedin, çalışdığınız ölkələrdə Azərbaycan biznesi üçün şərait yaradın ki, gəlsinlər, öz ixrac məhsulları ilə o bazarlara girsinlər.

Bizim ümumi daxili məhsulumuzda neft amili artıq üstünlük təşkil etmir. Amma ixrac potensialımızın əksəriyyəti təbii resurslarımızdır. Biz hazır məhsullarla xarici bazarlara çıxmalıyıq, indi çıxırıq və çıxacağıq. Ona görə söyləyəcəyim rəqəmlər iş adamlarına da bir tövsiyə olmalıdır ki, artıq bu sahələrdə biz özümüzü təmin etmişik. Bu sahələrə vəsait qoymaq istəyirsinizsə siz artıq rəqabətqabiliyyətli sənaye müəssisəsi yaratmalısınız ki, indi mövcud olan şirkətlərlə rəqabətdə siz udasınız. Yoxsa, əgər biz hansısa bir məhsulla özümüzü yüz faizdən çox təmin ediriksə, indi buna bənzər başqa eyni sənaye müəssisəsinin yaranmasına nə ehtiyac var? Ona görə burada tənzimləmə işlərini aparan İqtisadiyyat və Sənaye Nazirliyi ixrac bazarlarına çıxmağımız üçün daha da çox iş görməlidir.

Beləliklə, əsas tikinti materiallarının istehsalı üzrə son məlumat: Sement istehsalı – Azərbaycanda istehlak 4,4 milyon ton. Daxili istehsal hazırda 3 milyon ton. Amma ölkə üzrə istehsal gücü 5,2 milyon ton. Yəni, gələn il, bəlkə də bu il biz özümüzü sementlə tam şəkildə təmin edəcəyik və sement zavodları məhsullarını ixrac edəcək. Ona görə hazırda yeni sement zavodunun tikintisinə ehtiyac yoxdur.

Bentonit – istehlak 8 min ton, istehsal 85 min ton, ixrac etmişik 72 min ton, istehsal gücü 250 min ton, yəni, 100 faizdən çox. Gips –istehlakımız 58 min tondur, daxili istehsal 193 min ton, potensial 3 yüz min ton, yəni, üç dəfə çoxdur.

Beton bloklar, borular – istehlak 100 min ton. 100 min ton da istehsal edirik, potensial 300 min ton, 100 faizdən çox. Alçipan, yəni, karton gips 12 milyon kubmetr istehlak edirik. Daxili istehsal 11 milyon, istehsal gücü 16 milyon, 100 faizdən çox.

Polietilen borular – daxili istehlak 22 min tondur. 18 min ton istehsal olunur. İstehsal gücü 300 min tondan çoxdur və artıq ixrac da edilir.

Mərmər və qranit - Azərbaycanda istehlak 83 min ton. İxrac edirik 30 ton. İstehsal edirik 62 min ton və potensial 100 min tondan çox.

Əhəng - 20 min ton istehlak olunur. 14 min ton daxili istehsal və 40 min tondan çox istehsal gücü. Bu da 100 faizdən çox.

Elektrik kabelləri - 10 min ton istehlak edirik. 5 min ton istehsal edirik, potensial 40 min tondan çoxdur.

Poladdan uzun yayma məhsullar - 335 min ton istehlak edirik. Daxili istehsal 235 min ton, potensial 500 min ton, yəni, burada biz özümüzü təmin etmirik.

Metal konstruksiyalar 114 min ton daxili istehsal, 200 min tondan çox istehsal gücü, 100 faizdən çox.

Seramik plitələr - 8 milyon kubmetr Azərbaycanda istehlak olunur və 4 milyon kubmetr bizim potensialımız var. Bax, budur əsas tikinti materialları. Demək olar ki, biz özümüzü əsas tikinti materialları ilə təmin etmişik və ona görə ixrac edirik. Gələcəkdə bax, bu sahəyə qoyulan investisiyalar bu statistikanı nəzərə almalıdır.

Bu il "Kənd təsərrüfatı ili" elan edilmişdir. Bu, bizim üçün prioritetdir. Gələcəkdə kənd təsərrüfatı, sənaye inkişafı bu qeyri-neft sektorunun əsas istiqamətləridir, islahatlar aparılır. Bu gün bu barədə məlumat verildi, həm struktur islahatları aparılır, eyni zamanda, kənd təsərrüfatının səmərəliliyinin artırılması üçün tədbirlər görülür. Ərzaq təhlükəsizliyi hər bir ölkə üçün böyük önəm daşıyır. Biz sovet dövründə özümüzü əsas ərzaq məhsulları ilə təmin edə bilməmişik. Ona görə yox ki, təmin edə bilmirdik. Ona görə ki, o vaxt - sovet dövründə bir bölgü var idi. Azərbaycanda neft, ağır sənaye, neft-kimya, pambıq, üzüm istehsalı və s. Ancaq o vaxt heyvandarlığın o qədər də inkişaf etməsinə imkan vermirdilər. Ona görə biz əsas ərzaq məhsullarını Rusiyadan, Ukraynadan gətirirdik. Yəni, belə bölünürdü. Sovet xalq təsərrüfatı sistemi belə idi. Ona görə müstəqilliyin ilk dövrlərində biz idxaldan böyük dərəcədə asılı vəziyyətə düşmüşdük. Bu vəziyyəti dəyişmək üçün çox ciddi tədbirlər görüldü və son illər ərzində biz ərzaq təhlükəsizliyimizi demək olar ki, təmin etmişik. Bu barədə də mən rəqəmləri bir qədər sonra səsləndirəcəyəm.

Müasir texnika, cins mal-qara alınır. Fermerlərə güzəştlər edilir. Fermerlər bildiyiniz kimi, torpaq vergisindən başqa bütün vergilərdən azaddırlar. Kənd təsərrüfatının inkişafında ən qabaqcıl təcrübə tətbiq edilməlidir. Taxılçılıqda iri fermer təsərrüfatları yaradılıbdır və biz bunun gözəl nəticələrini görürük. Bu iri fermer təsərrüfatlarında məhsuldarlıq orta məhsuldarlıqdan iki dəfə çoxdur - 55 sentner. Bu il isə bizdə taxılda məhsuldarlıq 23 və ya 24 sentnerdir. Yəni, bu proses davam etdiriləcək. Birinci mərhələdə 4 min 8 yüz hektar torpaq sahəsi əhatə edilmişdir. İndi icra edilən layihələr çərçivəsində 30 min hektar torpaqda iri fermer təsərrüfatları fəaliyyət göstərəcək.

Bir daha demək istəyirəm ki, biz dünyanın ən qabaqcıl təcrübəsini, müasir texnikanı tətbiq etməliyik, bütün lazımi tədbirləri görməliyik, xidmət lazımi səviyyədə göstərilməlidir. Burada səslənən məsələlər də öz həllini tapmalıdır. Yem təminatı əsas məsələdir, toxum fondu yaradılmalıdır. Biz özümüzü indi yeni texnika ilə təmin edirik. Hesab edirəm ki, yaxın illərdə biz bu məsələni tam şəkildə həll edəcəyik.

İstifadəsiz qalan torpaqlar da kifayət qədər çoxdur. Vaxtilə kimsə onları ya zəbt edib, ya icarəyə götürüb. İcarəyə götürüb və elə də qoyub gedib. Deyir ki, mənim orada, burada torpağım var. Sənin torpağın varsa, get, o torpaqda iş gör. Yəni, hesab edirəm ki, biz istifadəsiz torpaqların taleyi ilə bağlı tədbir görməliyik. Kim torpağı icarəyə götürüb istifadə etmirsə, gərək o icarə müqavilələri ləğv edilsin. O müqavilələr verilsin o torpaqda işləyənə. Yoxsa torpağı götürürlər, ondan sonra təyinatı dəyişdirirlər, daha sonra o torpaqlarda müxtəlif obyektlər tikilir və s. Bu, yolverilməzdir. Yerli icra orqanlarının nümayəndələri nəzarət etməlidirlər. Onların rayonlarında əgər kimsə bu işlə məşğul olursa, buna qarşı tədbir görülməlidir.

Mərkəzi orqanlar da burada yeni təkliflərlə çıxış etməlidirlər ki, istifadəsiz torpaqlar olmasın. Onsuz da bizim o qədər də çox torpağımız yoxdur. İcazə verə bilmərik ki, istifadəsiz qalsın, yaxud da ki, torpaqdan səmərəli şəkildə istifadə edilməsin. Əksinə, mən keçən il demişəm, bir daha demək istəyirəm ki, hər bir rayonda ixtisaslaşma aparılmalıdır. Hansı rayonda nə əkilməlidir, hansı məhsul yetişdirilməlidir?! Budur, bizim əsas işimiz.

Ona görə kənd təsərrüfatının inkişafı prioritet məsələdir. Bu, sosial, iqtisadi sahədir, qeyri-neft sektorunun inkişafı üçün dəstəkdir. Üstünlüyümüz ondan ibarətdir ki, bizim ətrafımızda böyük bazarlar var. O bazarlara bizim ənənəvi çıxışlarımız var. Azərbaycan məhsulları o bazarlarda tanınır və o bazarlarda Azərbaycan məhsulunun artımını gözləyirlər. Ona görə biz ənənəvi bazarlarda işləməliyik, daha fəal, daha da geniş əhatə dairəmiz olmalıdır və biz yeni bazarlara çıxmalıyıq, həm regional, həm beynəlxalq. Biz Avropa bazarlarına çıxmalıyıq. Bizdə indi emal müəssisələri dünya səviyyəsinə cavab verir, gözəl müəssisələrdir. Onların - əsas emal müəssisələrinin açılışlarında mən şəxsən olmuşam, yəni, bilirəm, onların vəziyyəti

necədir. İstehsal olunan məhsullar da keyfiyyətlidir. Biz niyə Avropa bazarlarına çıxmayaq?! Biz nə vaxtsa Dünya Ticarət Təşkilatına üzv olacağıq. Biz buna əlbəttə ki, hazır olanda. Hazır olmaq üçün gərək ixrac potensialımız çoxşaxəli olsun.

Ona görə kənd təsərrüfatı məhsullarının istehsalı, daxili tələbatın ödənilməsi və ixracı bir sistem olmalıdır. Kənd təsərrüfatı intensiv metodlarla inkişaf etməlidir. Eyni zamanda, Taxtakörpü, Şəmkirçay su anbarlarının tikintisi nəticəsində on minlərlə hektar torpaq sahələri dövriyyəyə buraxılacaq. Artıq bu il işlər başlanıbdır. Səhraya bənzəyən yerlər gül-çiçək, bostan, bağ olacaq. Budur, bizim işimiz.

Artıq o yerlər müəyyən edilib. İndi Azərbaycanda aqroparklar tikilir. Şəmkirçay su anbarının açılışı günü aqroparkın təməl daşı qoyuldu. Nə üçün? Çünki Şəmkirçay su anbarı tikildi. Şəmkirçay su anbarı tikilməsəydi, orada aqroparkı heç kim tikməzdi. Çünki su olmayan yerdə hansı aqropark ola bilər. Ona görə bunlar bir-biri ilə bağlı olan məsələlərdir. Aqroparkların tikintisi geniş vüsət almalıdır.

Biz özümüzü ərzaq məhsulları ilə 100 faiz təmin etməliyik və ixrac etməliyik. İndi mən rəqəmləri deyəcəyəm. Ümumiyyətlə, bir daha demək istəyirəm ki, ixrac olmadan Azərbaycan iqtisadiyyatı, həmçinin qeyri-neft sektoru inkişaf edə bilməz. Çünki biz daxili tələbatı artıq ödəyirik. İxrac, bir daha demək istəyirəm ki, düşünülmüş siyasət nəticəsində mümkündür.

"Yaşıl market"lər Azərbaycanda yaranmaqdadır. Bu da bir yenilik olacaq. Bakıda yaranır. Gələcəkdə bütün şəhərlərdə yaranmalıdır.

Torpaqların elektron uçot sistemi məsələsi var, - bu məsələ ilə bağlı mən öz fikirlərimi keçən il demişəm. Bu, torpaqlardan səmərəli istifadə etmək üçün əsas şərtdir. Biz bilməliyik ki, harada, nə qədər, hansı keyfiyyətə və münbitliyə malik olan torpaq sahələrimiz var. Bütün bu məsələlər dünyanın inkişaf etmiş ölkələrində çoxdan həll olunub. Bizim indi belə gözəl imkanımız var. "Azersky" ikinci peykimizdir. Bu peykin üstünlüyü ondadır ki, o, Yer səthini böyük dəqiqliklə müşahidə edir. Yəni, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi bu imkanlardan istifadə etməlidir. Bu, sizə əlavə bir dəstək olacaq. O peykdən bütün sahələri müşahidə etmək mümkündür ki, harada hansı torpaq var, bu torpaq kimə məxsusdur, bu torpağın ölçüləri nədir, orada nə əkilir və nə əkilməlidir. Bu tövsiyələr verilməlidir. Elektron uçot sistemi budur. Yoxsa, biz indi kortəbii, belə arayışda, kağızda, xəritə ilə işləyirik. İş belə getməyəcək. Bu işdə müasir yanaşma olmalıdır. Özü də bir daha demək istəyirəm ki, bütün şəraiti yaradırıq, vəsait ayırırıq. Dəfələrlə torpaqların elektron uçotu haqqında demişəm. Yaxşı, mən nəticə gözləyirəm. Ona görə nəticə çıxarın. Gələn müşavirədə torpaqların elektron uçotu ilə bağlı mənə məruzə edilməlidir.

Ümumiyyətlə, "elektron kənd təsərrüfatı" layihəsi lazımi səviyyədə getmir. Ona görə ciddi tədbir görün. Yerlərdə icra başçıları, şöbələr bütün məlumatları dəqiqliklə verməlidirlər. Bu təhlil bir yerdə aparılmalıdır. "Azersky"dan müşahidə aparılarkən bu məlumatlar təsdiq edilməlidir. Ondan sonra düyməni basıb biz biləcəyik ki, harada nəyimiz var, nə əkilməlidir və haradan istifadə olunmur. Çünki mən bilirəm ki, istifadəsiz torpaqlar çoxdur. Amma dəqiqliklə kim mənə deyə bilər ki, haradan istifadə olunur, haradan yox. İndi yerlərdən istənilən arayış da verilə bilər. Amma nəzarət mexanizmi olmalıdır. İnsanlar o yerlərə ezam edilməlidir, müşahidə aparılmalıdır, müşahidə də yuxarıdan təsdiqlənməlidir.

İndi peykimizin olduğu bir vaxtda nəyisə gizlətmək, yaxud da ki, əksinə nəyisə artırmaq, rəqəmləri şişirtmək çətin olacaq. Buna da son qoyulmalıdır və son qoyulur. Kənd təsərrüfatı məhsullarının bəzilərinin istehsalının aşağı düşməsi təkcə quraqlıqla bağlı deyil. İndi kənd təsərrüfatı naziri bəlkə də demək istəmirdi. Dedi ki, quraqlıqla bağlıdır. Təkcə quraqlıqla bağlı deyil. Çünki əvvəllər qiymətlər şişirdilirdi. Nəyə görə? Subsidiyalara görə. Məgər burada oturanlar bilmir subsidiyalarda hansı pozuntular baş verirdi? Yaxşı bilir və bəziləri bu pozuntuların iştirakçılarıdır. Ona görə buna son qoyulmalıdır. Dövlət bu pulu fermerlərə verir, məmurlara yox. Ona görə indi statistik göstəricilər daha da realdır.

Nəticə çıxarın. Bir daha demək istəyirəm ki, bütün işlərdə şəffaflıq olmalıdır. Bütün sahələrdə səmərəli iş aparılmalıdır. Ancaq o təqdirdə Azərbaycanın uğurlu inkişafı təmin oluna bilər.

Qeyd etdiyim kimi, təşviq sistemi yaradılmalıdır. Bir çox ölkələrdə belə sistem var. Əvvəllər biz buna o qədər də meyilli deyildik, çünki bizim ixrac potensialımız da yox idi, ancaq hələ idxaldan asılılığı azaltmaqla məşğul idik. İndi isə ixrac potensialımız var, ona görə təşviq sistemi yaradılmalıdır. Mən İqtisadiyyat və Sənaye Nazirliyinə tapşırıram ki, bu mexanizmi işləyin. Yaxın vaxtlarda biz bunu müzakirə edəcəyik. Bu,

sahibkarlara imkan verəcək ki, daha da maraqlı olsunlar və öz məhsullarını xaricə satsınlar. Beləliklə, onlar üçün əlavə güzəştlər olacaq.

Ərzaq təhlükəsizliyi ilə bağlı görülən işlərin statistik əksi bu arayışdadır. Mən indi bəzi rəqəmləri səsləndirəcəyəm. Mal əti - özümüzü təminetmə səviyyəsi 87 faiz, qoyun əti - 97 faiz, quş əti - 98 faiz, yumurta - 100 faiz, süd və süd məhsulları - 76 faiz, taxıl - 60 faiz, üzüm - 98 faiz, kartof - 90 faiz, bostan məhsulları - 100 faiz, meyvə və giləmeyvə - 120 faiz, tərəvəz - 103 faiz, duz - 87 faiz, şəkər və şəkərdən hazırlanan məhsullar - 170 faiz. Ancaq burada nəzərə alınmalıdır ki, şəkər tozunun istehsalının maya dəyərində 64 faiz xam şəkər idxal olunur, 36 faiz dəyər Azərbaycanda formalaşır. Bitki yağları və marqarin - 77 faiz, kərə yağı - 52 faiz, makaron məmulatları - 58 faiz. Bu cədvəldə göstərilir ki, bizim gələcək fəaliyyətimiz hansı istiqamətlərdə daha da ciddi olmalıdır. Biz bütün bu pozisiyalar üzrə 100 faiz səviyyəsinə çatmalıyıq. Burada ən ağır pozisiya əlbəttə ki, taxıldır. Ancaq hesab edirəm ki, iri fermer təsərrüfatlarının yaradılması nəticəsində biz bu məqsədə çatacağıq.

Mən hesab edirəm ki, üçüncü proqramın başa çatması nəticəsində biz bütün bu rəqəmləri 100 faizdən artıq səviyyədə görməliyik və görəcəyik.

Regionlarda, ümumiyyətlə, ekoloji vəziyyət yaxşıdır. Biz ekoloji tədbirlərin görülməsi üçün daha çox diqqəti Bakıya yönəldirik, bu da təbiidir. Bölgələrdə yaxşıdır, amma bu, daim diqqət mərkəzində olmalıdır.

Azərbaycanda turizmin inkişafı sürətlə gedir, yeni otellər, istirahət zonaları, beynəlxalq səviyyəli istirahət zonaları açılır. Bizdə turizm potensialı şimal, şimal-qərb, cənub və qərb bölgələrində, əlbəttə ki, Bakı şəhərində inkişaf edir. Biz vaxtilə fəaliyyət göstərən, sonra köhnəlmiş turizm yerlərimizi bərpa edirik. Misal üçün, indi Naftalan öz şöhrətini özünə qaytarır. Naftalan Sovet İttifaqı zamanında bir mərkəz idi. İndi beynəlxalq mərkəzdir. Burada üç gözəl otel fəaliyyət göstərir. Mən üçünün də açılışında olmuşam. Yeni otellər tikilir və gözəl bir turizm mərkəzidir. “Qalaaltı” müalicəvi su kurortunda da artıq böyük işlər görülür. Yəqin ki, bu il açılacaqdır. Qusar rayonunda yerləşən “Şahdağ” xizək kurortu da indi dünya səviyyəli turizm mərkəzidir. Digər bölgələrdə, cənub və qərb bölgələrində turizm imkanları genişlənir.

Bölgələrdə xidmətlər göstərilir. “ASAN xidmət” mərkəzlərinin sayı artıq yeddiyə çatıb. Üç mərkəz də bu il açılacaq. Beləliklə, bölgələrdə altı, Bakıda dörd mərkəz fəaliyyət göstərəcək. Gələcəkdə onların sayını artıracağıq. On avtobusla səyyar xidmət də göstərilir və bütün bölgələrdən “ASAN xidmət”lə bağlı çox müsbət məlumatlar gəlir. Korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədə “ASAN xidmət” bir dönüş yaratdı. Ona görə biz bu sistemi bütün sahələrdə tətbiq etməliyik.

Korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədə böyük uğurlar var. Beynəlxalq qurumlar da bunu qeyd edir, əhali də bunu yüksək qiymətləndirir. Cəza tədbirləri, inzibati tədbirlər və sistem xarakterli islahatlar aparılır ki, biz bu bəlanı, bu yaranı aradan götürək.

Ölkəmizin uğurlu inkişafı üçün vətəndaş-məmur münasibətləri mühüm əhəmiyyət kəsb edir. Azərbaycan bu sahədə də nümunəvi ölkə olmalıdır. Məmurlar yaddan çıxarmamalıdırlar ki, onlar xalq üçün işləyirlər, onlar xalqın xidmətçiləridir. Dəfələrlə demişəm ki, mən birinci xidmətçiyəm. Xalqın birinci xidmətçisi Prezident olmalıdır, çünki xalq bizə inanır, bizə bu missiyanı aparmağı həvalə edib, tapşırıb. Biz bütün məmurlar da bu yüksək etimadı doğrultmalıyıq. Məmurlar, dövlət qurumlarının nümayəndələri xalqla bir yerdə olmalıdırlar, onların qayğıları ilə yaşamalıdırlar, kobudluğa, yekəxanalığa yol verilməməlidir. Bəzi hallarda yekəxanalıq müşahidə olunur, bəzi hallarda məmurlar özlərini çox təkəbbürlü aparırlar. Buna yol vermək olmaz. Siyasi mədəniyyət olmalıdır və insanlara hörmətlə yanaşmaq lazımdır. Deyə bilərəm ki, əksər hallarda biz müsbət mənzərə görürük. Ancaq mənfi mənzərə ilə üzləşəndə tədbir də görülür, məmurlar cəzalandırılır. Etimadı doğrultmayan məmurlar bundan sonra da cəzalandırılacaqlar. Hər dəfə icra başçılarını işə təyin edərkən mən onlara öz sözlərimi deyirəm: Gedin təmiz işləyin, xalqla bir yerdə olun, rüşvətxorluqla məşğul olmayın, dövlətə, müstəqilliyə sadiq olun. Budur mənim tələblərim, əsas tələblərim. Hər yerdə belə olmalıdır. Çünki bir daha demək istəyirəm ki, Azərbaycanın inkişafı və ictimai-siyasi vəziyyətin müsbət istiqamətdə inkişafı bütün dünyada gedən böhranlardan asılı olmayaraq, bizim böyük sərvətimizdir. Müstəqil Azərbaycan bu gün nadir inkişaf dövrünü yaşayır. Azərbaycanda sürətli inkişaf prosesi gedir, düşünülmüş siyasət, müstəqil siyasət aparılır. Budur bizim uğurlarımızın təməlində dayanan əsas amillər. İqtisadi, siyasi islahatlar aparılır, bütün azadlıqlar təmin edilir, demokratiyanın

inkişafı sürətlə gedir və xalqla iqtidar arasındakı birlik uğurlu inkişafımızın əsas amilidir.

Bu gün dünyada nadir Azərbaycan inkişaf modeli var. Artıq biz bu barədə də danışa bilərik, çünki bu model, doğrudan da, bir nümunə kimi hər bir ölkə üçün maraqlı olmalıdır. Siyasi, iqtisadi islahatlar, müstəqil siyasət, dinlərarası dialoq, yüksək səviyyəli milli dini tolerantlıq, dözümlülük, sosial siyasət və görülən işlər göz qabağındadır. Bunu dost görür sevinir, düşmən gəlib görəndə kefi pozulur. Biz bundan sonra da elə işləməliyik ki, xalqımız, dostlarımız sevinsin, düşmənin pis niyyəti gözündə qalsın. Əminəm ki, belə də olacaq, Azərbaycan bundan sonra da uğurla inkişaf edəcəkdir.

"2015-ci ildə Azərbaycan iqtisadiyyatı inkişaf etmişdir. Bu da çox müsbət haldır. Regionların inkişafı sürətlə getmiş, bütün sosial proqramlar icra edilmişdir".

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

# Regionların sosial-iqtisadi inkişafı sahəsində nəzərdə tutulmuş tədbirlər 2015-ci ildə uğurla icra olunmuşdur

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 27 fevral tarixli 118 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb etməklə, makroiqtisadi sabitliyin təmin olunmasında, sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və iş yerlərinin yaranmasında, infrastruktur və kommunal xidmətlərin səviyyəsinin daha da yüksəldilməsində, yoxsulluq səviyyəsinin aşağı düşməsində və əhalinin rifah halının daha da yaxşılaşdırılmasında müstəsna rol oynamaqdadır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev regionların inkişafını 2015-ci il ərzində də diqqət mərkəzində saxlamış, Sumqayıt və Mingəçevir şəhərlərində, Naxçıvan Muxtar Respublikasında, Qusar, Bərdə, Astara, Lənkəran, Şabran, Siyəzən, Xızı, Kürdəmir, Ucar, Göyçay, Cəlilabad, Ağsu, Zaqatala və Şəki rayonlarında 80-dən çox infrastruktur obyektlərinin açılış və təməlqoyma mərasimlərində iştirak etmiş, istehsal təyinatlı müəssisələrin fəaliyyəti ilə tanış olmuş, yerlərdə ictimaiyyətin nümayəndələri ilə görüşlər keçirmiş, onların problem və qayğıları ilə yaxından maraqlanmışdır.

Məhz, bu səfərlərin nəticəsi olaraq 2015-ci il ərzində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müvafiq sərəncamlarla bütün regionlar əhatə olunmaqla müxtəlif rayon və şəhərlərin sosial-iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində 169 milyon manat vəsait ayrılmışdır.

Dövlət başçısının xüsusi diqqət və qayğısı nəticəsində regionlarda davamlı iqtisadi inkişafın təmin edilməsi ilə makroiqtisadi göstəricilərin daha da yaxşılaşmasına nail olunmuş, 2015-ci ildə ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fiziki şəxslər tərəfindən 54,4 milyard manat və ya əvvəlki ildəkindən 1,1 faiz çox Ümumi Daxili Məhsul (ÜDM) istehsal edilmişdir. ÜDM-in hər nəfərə düşən həcmi 5704 manat təşkil etmişdir. Əlavə dəyərin 33,9 faizi sənayedə, 12,1 faizi tikintidə, 10,0 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 6,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 5,4 faizi nəqliyyat və anbar təsərrüfatı, 2,7 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2,0 faizi informasiya və rabitə, 19,3 faizi isə digər sahələrdə istehsal edilmişdir.

Qeyri-neft sektorunda 37,7 milyard manat əlavə dəyər istehsal olunmuş, əvvəlki illə müqayisədə istehsal 1,1 faiz artmış, onun ÜDM-də xüsusi çəkisi 69 faizə yüksəlmişdir.

Azərbaycan Respublikası Prezidentinin ölkənin sosial-iqtisadi inkişafı sahəsində həyata keçirdiyi məqsədyönlü siyasəti nəticəsində 2015-ci il ərzində 84 mini daimi olmaqla 110 min yeni iş yeri yaradılmış, 6,3 min müəssisə açılmışdır. Açılmış yeni müəssisələrin 11,9 faizi Aran, 8,1 faizi Abşeron, 5,4 faizi Gəncə-Qazax və 10,8 faizi Lənkəran iqtisadi rayonlarının, qalanları isə digər bölgələrin payına düşmüşdür. Yeni müəssisələrin çox hissəsi təhsil, ticarət, nəqliyyat vasitələrinin təmiri, tikinti, peşə, elmi və texniki fəaliyyət, inzibati və yardımçı xidmətlərin göstərilməsi, emal sənayesi, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, informasiya və rabitə sahələrini əhatə edir.

İqtisadi inkişafın əsas meyarlarından biri olan yoxsulluğun səviyyəsinin azaldılması üzrə qarşıya qoyulmuş məqsədlərə uyğun əməli işlər ardıcıl olaraq davam etdirilmiş və yoxsulluğun səviyyəsi 4,9 faizə

enmişdir.

**Yoxsulluğun illər üzrə səviyyəsi, %-lə**




Ümumilikdə, 2015-ci il ərzində ölkə əhalisinin gəlirləri əvvəlki illə müqayisədə 5,7 faiz artaraq 41,7 milyard manata çatmış, onun hər nəfərinə düşən həcmi isə 4,5 faiz artaraq 4380,1 manat təşkil etmişdir. Bu müddət ərzində ölkə iqtisadiyyatında çalışan işçilərin orta aylıq əmək haqqı 462,0 manat təşkil etmiş və əvvəlki ilin müvafiq dövrünə nisbətən 4,5 faiz artmışdır.

İqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən uğurlu islahatlar ölkəmizin dayanıqlı inkişafını təmin edərək, real büdcə öhdəliklərinin yerinə yetirilməsinə imkan vermiş, qeyri-neft sektorundan dövlət büdcəsinə daxilolmalar 9,5 faiz artmışdır. Eyni zamanda, vergi daxilolmalarında qeyri-neft sektorundan daxilolmaların xüsusi çəkisi 40,5 faiz təşkil etmişdir ki, bu da 2014-cü illə müqayisədə 6,5 faiz çoxdur.

Bununla yanaşı, 2015-ci ildə iqtisadiyyatın və sosial sahələrin inkişafına bütün maliyyə mənbələri hesabına 15957,0 milyon manat vəsait yönəldilmişdir. Əsas kapitala qoyulmuş vəsaitin 56,0 faizini daxili investisiyalar, 44,0 faizini isə xarici investisiyalar təşkil etmiş, ümumi sərmayənin 55,1 faizi qeyri-neft sektorunun inkişafına yönəldilmişdir. İstifadə olunmuş vəsaitin 61,9 faizi məhsul istehsalı obyektlərinin, 31,6 faizi xidmət sahələri üzrə obyektlərin, 6,5 faizi isə ümumi sahəsi 1927,2 min kvadratmetr olan yaşayış evlərinin tikintisinə sərf olunmuşdur.

**2015-ci ildə əsas kapitala qoyulan investisiyaların mənbələr üzrə bölgüsü (faizlə)**




Azərbaycanın 2015-ci ildə əldə etdiyi nailiyyətlər nüfuzlu beynəlxalq qurumlar tərəfindən də yüksək qiymətləndirilmişdir. Belə ki, Qlobal Rəqabət Qabiliyyəti hesabatında Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyəti səviyyəsinə görə 140 ölkə arasında 40-cı yerdə qərarlaşaraq MDB məkanında lider mövqeyini qorumuş, "G-20"yə üzv olan 8 ölkəni qabaqlamış, "Makroiqtisadi vəziyyət" göstəricisi üzrə 10-cu yeri tutmuş, biznesin təkmilləşdirilməsi, əmtəə bazarının səmərəliliyi, daxili bazarın həcmi, infrastruktur göstəriciləri üzrə əhəmiyyətli irəliləyişlərə nail olmuşdur. Beynəlxalq Valyuta Fondu Azərbaycanın 2015-ci il üçün iqtisadi artım proqnozunu 4 faizədək yüksəltmiş, BMT-nin "İnsan İnkişafı 2015" hesabatında ölkəmiz 188 ölkə arasında 78-ci olmaqla "orta insan inkişafı" ölkələri qrupundan "yüksək insan inkişafı" ölkələri qrupuna keçmişdir.

Dünya Bankı tərəfindən 189 ölkənin biznes mühitinin qiymətləndirildiyi "Doing Business 2016" hesabatında Azərbaycan həyata keçirilmiş uğurlu islahatlar nəticəsində mövqeyini 17 pillə yaxşılaşdıraraq

80-ci pillədən 63-cü pilləyə yüksəlmişdir.

Eyni zamanda, “Doing Business 2016” hesabatında əksər göstəricilər üzrə ölkəmizin mövqeyi yaxşılaşmış, “Biznesə başlama” göstəricisi üzrə 5 pillə, “Tikinti üçün icazələrin alınması” göstəricisi üzrə 36 pillə, “Kiçik investorların maraqlarının qorunması” göstəricisi üzrə 15 pillə, “Elektrik təchizatı şəbəkələrinə qoşulma” göstəricisi üzrə 49 pillə, “Xarici ticarətin aparılması” göstəricisi üzrə 72 pillə və s. irəliləmişdir.

Bununla da, Azərbaycan “Doing Business 2016” hesabatında dünyada 3 və daha çox islahat aparan 24 ölkədən biri olmuşdur.

Həmçinin, “Moody’s”, “Standart & Poor’s” və “Fitch Ratings” reytinq agentlikləri Azərbaycanın uzunmüddətli kredit və suveren reytinqini müvafiq olaraq investisiya səviyyəli “Baa3”, “BBB-” və “BBB-” səviyyələrində saxlamış, reytinq üzrə proqnozu isə “sabit” kimi qiymətləndirmişlər.

## Vergi və pul-kredit siyasəti

Qeyri-neft sektorunun dayanıqlı inkişafına, ölkənin makroiqtisadi vəziyyətinin sabit saxlanılmasına, iqtisadiyyatın səmərəli tənzimlənməsi və onun dinamik inkişafının stimullaşdırılmasının davam etdirilməsi 2015-ci ildə də həyata keçirilən büdcə-vergi siyasətinin əsas məqsədlərindən biri olmuşdur. Vergi sisteminin təkmilləşdirilməsi məqsədilə vergi dərəcələrinin optimallaşdırılması, sahibkarlara göstərilən vergi xidmətinin yaxşılaşdırılması və əhatə dairəsinin genişləndirilməsi üçün Ucar və Zərdab rayonlarında müasir tələblərə cavab verən xidmət mərkəzlərinin tikintisi başa çatdırılmış, göstərilən xidmətlərin keyfiyyətinin və ödəyici məmnunluğu səviyyəsinin yüksəldilməsi məqsədilə xidmət mərkəzlərinin 33-də növbə və qeydiyyat aparatlarının, səsyazma və video müşahidə qurğularının, kompüter avadanlıqlarının quraşdırılması təmin edilmişdir.

“Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 20 oktyabr 2015-ci il tarixli 1384-IVQD Qanununa əsasən 2016-cı il yanvar ayının 1-dən Vergi Məcəlləsində bir sıra dəyişikliklər həyata keçirilməklə, vergi siyasətinin və dərəcələrinin optimallaşdırılması davam etdirilmişdir. Edilmiş dəyişikliklərə əsasən fiziki şəxsin əsas iş yerində (əmək kitabçasının olduğu yerdə) hər hansı muzdlu işlə əlaqədar əldə edilən aylıq gəliri 2500 manatadək olduqda əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumunun 1 misli (136 manat), illik gəliri 30000 manatadək olduqda əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumunun 12 misli (1632 manat) məbləğində olan hissəsi fiziki şəxslərin gəlir vergisindən azad edilir. Sözügedən dəyişiklik ölkədə həyata keçirilən sosial siyasətə uyğun olaraq əhalinin gəlirlərini artırmaqla onların maddi rifahının yaxşılaşmasına müsbət təsir göstərəcəkdir.

Eyni zamanda, elektron xidmətlərin əhatə dairəsinin genişləndirilməsi və elektron auditin aparılması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 31 mart 2015-ci il tarixli 97 nömrəli qərarı ilə Vergilər Nazirliyi tərəfindən göstərilən elektron xidmətlərin sayı 62-yə çatdırılmış və siyahıya 2 yeni xidmət - Çağrı Mərkəzi vasitəsilə “Sadələşdirilmiş verginin bəyannaməsi”nin təqdim edilməsi, gəlir və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin uzadılması barədə ərizələrin qəbulu - əlavə edilmişdir.

Vergilər Nazirliyinin rəsmi internet səhifəsindən, o cümlədən səhifədəki məlumat və elektron xidmətlərdən istifadənin asanlaşdırılması və əhalinin bütün təbəqəsi üçün əlçatan olması məqsədilə İOS və Android sistemli smartfon tipli avadanlıqlar üçün müvafiq parametrləri özündə əks etdirən xüsusi proqram hazırlanmış və ötən ilin noyabr ayından “PlayMarket” və “AppStore” servislərində yerləşdirilmişdir.

Hesabat dövründə vergi ödəyicilərinə internet üzərindən göstərilən elektron xidmətlərin genişləndirilməsi ilə əlaqədar “Fiziki şəxsin vergi uçotundan çıxarılması haqqında” və “Fəaliyyətinə xitam verilmiş fiziki şəxsin fəaliyyətinin bərpa edilməsi haqqında” ərizələrin elektron qaydada təqdim edilməsi üzrə proqram təminatı hazırlanaraq istifadəyə verilmişdir.

2015-ci il ərzində əhalinin maliyyə xidmətlərinə çıxış imkanlarının asanlaşdırılması məqsədilə Mərkəzi Bank tərəfindən bankların və bank olmayan kredit təşkilatlarının filial şəbəkəsinin genişləndirilməsinin dəstəklənməsi davam etdirilmişdir. Hesabat ilində 12 bank filialı açılmışdır ki, bunlardan 3-ü

regionlarda fəaliyyətə başlamışdır. Həmçinin, 20-si regionlarda olmaqla 26 bank olmayan kredit təşkilatı lisenziyalaşdırılmışdır. Beləliklə, 1 yanvar 2016-cı il tarixinə respublika üzrə fəaliyyət göstərən bank filiallarının sayı 750 (389-u regionlarda), şöbələrinin sayı isə 164 (69-u regionlarda) olmuşdur.

Eyni zamanda, 2015-ci il ərzində Mərkəzi Bank tərəfindən maliyyə xidmətlərinin göstərilməsi üçün "Azərpoçt" MMC-nin 106 şöbəsinə müvafiq icazə verilmiş, 1 yanvar 2016-cı il tarixinə poçt filiallarının sayı 63-ə, onların tərkibində poçt şöbələrinin sayı isə 1104-ə çatdırılmışdır.

Mərkəzi Bank tərəfindən regionlarda elektron ödəniş xidmətləri infrastrukturunun və ondan istifadənin genişləndirilməsi istiqamətində də bir sıra tədbirlər həyata keçirilmiş, vergi, rüsum, icarə haqqı və digər ödənişlərin nağdsız ödəniş alətləri ilə ödənilməsinin təmin edilməsi üçün "Hökumət Ödəniş Portalı"nın əhatə dairəsinin genişləndirilməsi və regionlara istiqamətləndirilməsi üzrə fəaliyyəti davam etdirilmişdir. Hazırda Vergilər, Maliyyə, İqtisadiyyat, Daxili İşlər, Təhsil, Energetika və Fövqəladə Hallar nazirlikləri, Dövlət Gömrük Komitəsi, Dövlət Əmlak Komitəsi, Dövlət Miqrasiya Xidməti, Dövlət Sosial Müdafiə Fondu, Azərbaycan İpoteka Fondu, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi ilə yanaşı, 5 kommunal xidməti təşkilatı, 3 mobil rabitə operatoru, həmçinin stasionar rabitə operatorlarından Bakı Telefon Rabitəsi İstehsalat Birliyi, "Aztelekom" İstehsalat Birliyi və "TransEuroCom" "Hökumət Ödəniş Portalı" infrastrukturuna inteqrasiya olunmuşdur. Nəticədə Elektron Hökumət Portalının HÖP infrastrukturuna inteqrasiyası üzrə işlər yekunlaşdırılmışdır.

## Sənaye və kənd təsərrüfatı istehsalının genişləndirilməsi tədbirləri

Azərbaycan iqtisadiyyatı dünyada maliyyə-iqtisadi böhranın davam etdiyi və neftin qiymətinin aşağı düşdüyü şəraitdə 2015-ci ildə də uğurla inkişaf etmişdir. Bu inkişaf həyata keçirilən şaxələndirmə tədbirləri, qeyri-neft sektorunun gücləndirilməsi və investisiya mühitinin daha da yaxşılaşdırılması hesabına təmin edilir. Ölkə iqtisadiyyatının şaxələndirilməsi, onun neft sektorundan asılılığının minimuma endirilməsi nəticəsində ÜDM-in artımı bütövlükdə qeyri-neft sektoru hesabına təmin olunmuşdur. İqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması və strukturunun təkmilləşdirilməsi baxımından sənayenin inkişafı ölkədə aparılan iqtisadi siyasətin əsas prioritetlərindən biri kimi qalmış, sənayenin infrastruktur təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırılmışdır.

Həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində 2015-ci ildə sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 26,2 milyard manatlıq və ya əvvəlki illə müqayisədə 2,4 faiz çox sənaye məhsulu istehsal edilmişdir. Qeyri-neft sənayesi isə ötən ilə nisbətən 8,4 faiz artmışdır.

Sənaye məhsulunun 61,9 faizi mədənçıxarma, 29,9 faizi emal, 7,3 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

**Sənaye bölmələrində məhsul istehsalı (faizlə)**



Mədənçıxarma sektorunda məhsul istehsalı 2,0 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə istehsalın həcmi 1,8 faiz artmışdır.

Emal sektorunda qida məhsullarının istehsalı 2,9 faiz, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 3,0 faiz, ağacın emalı və ağacdan məmulatların istehsalı 67,3 faiz, kağız və karton istehsalı 7,5 faiz, poliqrafiya məhsullarının istehsalı 86,7 faiz, kimya sənayesi məhsullarının istehsalı 43,2 faiz, tikinti materiallarının istehsalı 6,3 faiz, hazır metal məmulatlarının istehsalı 54,1 faiz, kompüter, elektron və optik məhsulların istehsalı 2,1 dəfə, elektrik avadanlıqlarının istehsalı 1,8 faiz, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 4,6 faiz, mebel istehsalı 10,1 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işlərinin həcmi 2,7 dəfə artmışdır.

Sənayeləşmə siyasətinə uyğun olaraq, ölkə başçısının müvafiq sərəncamları ilə sənaye sahəsində fəaliyyət göstərən kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2015-ci il tarixli, 1011 nömrəli Sərəncamı ilə ölkədə ilk sənaye məhəlləsi olan Neftçala Sənaye Məhəlləsinin (10 hektar torpaq sahəsində) və 26 fevral 2015-ci il tarixli, 1077 nömrəli Sərəncamı ilə Mingəçevir Sənaye Parkının (14,8 hektar torpaq sahəsində) yaradılmasına başlanılmışdır.

Sənaye parkları və məhəllələri ölkənin qeyri-neft sektorunun davamlı inkişafı, iqtisadiyyatın ixrac qabiliyyətinin, eləcə də rəqabətqabiliyyətli, idxalı əvəz edən məhsulların istehsalının artırılması, rayonlarda məşğulluğun təmini, investisiyaların və müasir texnologiyaların cəlb edilməsi kimi öncül vəzifələrin yerinə yetirilməsi baxımından xüsusilə əhəmiyyətlidir.

Hesabat ili ərzində Neftçala Sənaye Məhəlləsinin yaradılması ilə bağlı sənədləşmə və layihələndirmə işləri başa çatdırılaraq tikinti işlərinə başlanılmış, artıq məhəllədə həyata keçirilməsi üçün sahibkarlar tərəfindən 18 layihə Azərbaycan İnvestisiya Şirkətinə təqdim edilmişdir. İlkin mərhələdə şirkətlər tərəfindən məhəllədə 7 layihə üzrə 20 milyon manatdan çox investisiya qoyuluşu və bunun nəticəsində 380 iş yerinin açılışı planlaşdırılmış, Mingəçevir Sənaye Parkının fəaliyyətinin təşkili üçün icarə hüququ ilə 14,8 hektar torpaq sahəsi “Sumqayıt Kimya Sənaye Parkı” MMC-nin daimi istifadəsinə verilmişdir.

Həmçinin, Sumqayıt Kimya Sənaye Parkında birinci mərhələ üzrə infrastrukturun qurulması demək olar ki, başa çatdırılmış və dörd rezident tərəfindən 1 milyard ABŞ dollarından çox investisiyanın yatırılması planlaşdırılır. Artıq Parkın rezidenti “Azertexnolayn” şirkəti tərəfindən 2015-ci ildə dəyəri 45 milyon ABŞ dolları olan 60 min ton boru məhsulunun ixracı barədə müqavilə imzalanmışdır.

Eyni zamanda, ölkə Prezidenti tərəfindən hesabat dövründə müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan innovasiya və yüksək texnologiya sahələrinin genişləndirilməsini, elmi tədqiqatlar aparılmasını və yeni texnologiyaların işlənilməsi üzrə müasir komplekslərin yaradılmasını təmin etmək məqsədilə Mingəçevir Yüksək Texnologiyalar Parkının, eləcə də əlvan metal filizi yataqlarının öyrənilməsi, işlənməsi və idarə olunması üçün “AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında müvafiq Fərman və Sərəncam imzalanmışdır.

Ölkəmizdə sənaye müəssislərinin yaradılması prosesi uğurla davam etdirilmiş, hesabat ilində 270-dək sənaye müəssisəsi, o cümlədən Sumqayıt şəhərində “Alyans Tekstil” tikiş fabriki, “Star Beton” MMC-nin beton məmulatı zavodu, “Azərikimya” İstehsalat Birliyinin etilen-polietilen zavodunda yeni qurğular, “Azertexnolayn” Məhdud Məsuliyyətli Cəmiyyətinin texniki avadanlıqlar zavodu, Naxçıvan Sənaye Kompleksi və s. istifadəyə verilmiş, həmçinin Sumqayıtda “SOCAR Polymer” layihəsi çərçivəsində yüksək sıxlıqlı polietilen zavodunun təməlqoyma mərasimi keçirilmişdir.

Regionların sosial-iqtisadi inkişafında aqrar sektora ayrılan diqqət onun ölkə iqtisadiyyatında ümumi payının artması ilə yanaşı əsas gəlirli sahələrdən birinə çevrilməsinə də səbəb olmuşdur. Ölkə başçısının bu sahənin inkişafına xüsusi qayğısı nəticəsində əsas ərzaq məhsullarına olan daxili tələbatın yerli istehsal hesabına ödənilməsi istiqamətində daim islahatlar həyata keçirilmiş, 2015-ci il “Kənd təsərrüfatı ili” elan edilmişdir.

Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin vaxtında və uğurla həyata keçirilməsi, güzəştli kreditlərin verilməsi, emal müəssisələri və məhsul saxlama anbarlarının şəbəkəsinin genişləndirilməsi, kənd təsərrüfatı texnikası ilə təminatın yaxşılaşdırılması, cins mal-qaranın satışı kənd təsərrüfatı məhsullarının

istehsalına öz müsbət təsirini göstərmişdir.

2015-ci ildə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 5635,3 milyon manat olmuşdur. 2014-cü ilin müvafiq dövrünə nisbətən bitkiçilik məhsulları istehsalının 11,3 faiz, heyvandarlıq məhsulları istehsalının 2,5 faiz artması nəticəsində kənd təsərrüfatının ümumi məhsulu üzrə artım tempi 6,6 faiz olmuşdur.

2015-ci ildə 2999,0 min ton dənli və dənli-paxlalılar, 1273,3 min ton tərəvəz, 839,8 min ton kartof, 484,5 min ton bostan, 886,3 min ton meyvə və giləmeyvə, 157,0 min ton üzüm, həmçinin diri çəkidə 515,6 min ton ət, 1924,4 min ton süd, 1538,6 milyon ədəd yumurta və 17,0 min ton yun istehsal olunmuşdur. 2014-cü ilin müvafiq dövrünə nisbətən ət istehsalı 2015-ci ildə 2,0 faiz, süd istehsalı 3,7 faiz, yun istehsalı isə 1,4 faiz artmışdır.

Hesabat ilində ölkədə məhsul istehsalçılarının yüksək məhsuldar toxumlara tələbatının dolğun şəkildə ödənilməsi məqsədilə Dövlət Toxum Fondunun yaradılması, Respublika Süni Mayalanma Mərkəzinin, Azərbaycan Aqrar Elm Mərkəzinin, onun regional bölmələrinin və tabeliyindəki elmi-tədqiqat institutlarının müasir tələblərə uyğun yenidən qurulması üzrə işlərin başa çatdırılması və zəruri avadanlıqlarla təchiz edilməsi ilə bağlı ölkə başçısı tərəfindən müvafiq sərəncamlarla 22,8 milyon manat maliyyə vəsaiti ayrılmışdır.

Eyni zamanda yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına verilən yardımın həcminin 25 faiz artırılması, lizinqə verilən və ya lizinq yolu ilə satılan suvarma sistemləri dəstinə və avadanlığına onların ilkin dəyərinin 40 faizi həcmində güzəştin müəyyən edilməsi, süni mayalanma yolu ilə alınmış hər baş buzova görə heyvan sahiblərinə 100 manat həcmində subsidiya müəyyən edilməsi, ölkəyə iribuynuzlu damazlıq heyvanların idxalının və heyvandarlıqla məşğul olan kənd təsərrüfatı məhsulları istehsalçılarına 50 faiz güzəştlə lizinq yolu ilə satışının həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları olmuşdur. Beləliklə, 2015-ci il ərzində 4100 nəfər texnika istifadəçisi yerlərdə "ASAN xidmət" prinsipi ilə 50 milyon manatadək güzəşt əldə etmiş, fermerlərə satılan gübrənin qiymətinə tətbiq edilən güzəşt nəticəsində də əvvəlki illərlə müqayisədə ölkəyə gətirilən gübrənin həcmi 85 min tondan 150 min tona çatdırılmış, yanacaq və motor yağlarına görə büdcədən verilən subsidiyanın həcmi 22 faiz artırılmışdır.

Aqrar sahənin daha da inkişaf etdirilməsi məqsədilə dövlət tərəfindən investisiya layihələrinin reallaşdırılmasına, güzəştli kreditlərin verilməsinə xüsusi əhəmiyyət verilir və bu istiqamətdə fəaliyyət getdikcə genişlənir. Bu dəstək tədbirlərinə misal olaraq Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına dövlətin güzəştli kreditlərinin verilməsini göstərmək olar. 2015-ci ildə aqrar sahənin inkişafı ilə bağlı 5100 sahibkarlıq subyektinin investisiya layihəsinin maliyyələşdirilməsinə 213 milyon manat güzəştli kredit vəsaiti ayrılmışdır. Maliyyələşdirilmiş layihələr hesabına 10515 yeni iş yerinin yaradılması nəzərdə tutulmuşdur.

**2015-ci il ərzində verilmiş dövlətin güzəştli kreditlərinin iqtisadiyyatın sahələri üzrə bölgüsü (faizlə)**




Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 2015-ci ildə verilmiş güzəştli kreditlərin 85,6 faizini aqrar sektorun inkişafına verilmiş kreditlər təşkil etmiş və aqrar sahənin inkişafına

verilən dövlətin güzəştli kreditləri kəmiyyət deyil, həm də müsbət keyfiyyət dəyişiklikləri ilə fərqlənmişdir. Dövlətin güzəştli kreditləri hesabına maliyyələşdirilən investisiya layihələrinin həyata keçirilməsi nəticəsində yaradılmış yeni iş yerlərinin 83,5 faizi aqrar sektorun payına düşmüşdür.

**2015-ci il ərzində verilmiş dövlətin güzəştli kreditləri hesabına yaradılmış yeni iş yerlərinin iqtisadiyyatın sahələri üzrə bölgüsü (faizlə)**




Həmçinin, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına uyğun olaraq 19 rayonda 40 min hektardan artıq sahədə 29 iri fermer taxılçılıq təsərrüfatlarının yaradılması əsasən başa çatdırılmış və hesabat ilində burada məhsuldarlıq hər hektardan 58-60 sentner təşkil etmişdir. Şəmkir və Xaçmaz rayonlarında aqroparklarda 1-ci mərhələ üzrə işlər yekunlaşmış, Xızı aqroparkında isə müvafiq layihələndirmə işləri aparılmışdır.

Aqrar sahəni daha da inkişaf etdirmək məqsədilə Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti tərəfindən 2015-ci ildə kənd təsərrüfatının inkişafı üçün ölkənin 43 rayonunda aqrar sektorda çalışan 532 sahibkara 15,7 milyon manat məbləğində güzəştli kreditlər verilmişdir. Güzəştli kreditlərin verilməsi nəticəsində 710 daimi və müvəqqəti iş yerləri açılmışdır.

Dövlət Proqramına uyğun olaraq, hesabat ilində kənd təsərrüfatında institusional potensialın gücləndirilməsi, struktur dəyişikliyinin aparılması ilə də xarakterizə olunmuşdur. Belə ki, Kənd Təsərrüfatı Nazirliyinin 52 rayon və şəhər idarəsi üçün inzibati laboratoriya binalarının tikintisi əsasən başa çatdırılmış və burada inzibati heyətlə yanaşı, əsasən aqro-kimya və toxum laboratoriyalarının, diaqnostik kabinetlərin, toxum müfəttişlərinin, texniki nəzarətçilərin və digər struktur vahidlərinin vahid məkanda yerləşdirilməsi, eləcə də zəruri informasiya texnologiya və infrastrukturunun yaradılması aqrar sektor qarşısında qoyulmuş vəzifələrin icrası istiqamətində əhəmiyyətli rol oynayacaqdır.

Bununla yanaşı, respublikada sanitariya və sağlamlığın qorunmasında, təhlükəli yoluxucu xəstəliklərin qarşısının alınmasında, əhalinin insan və heyvanlar üçün təhlükəli olan xəstəliklərdən qorunmasında böyük rolu olan baytarlıq xidməti işinin yaxşılaşdırılması, bu sahədə fəaliyyət göstərən qurumların maddi-texniki bazalarının möhkəmləndirilməsi, onların avadanlıq və baytarlıq preparatları ilə təminatına şərait yaradılması məqsədilə 28 dekabr 2015-ci il tarixində ölkə başçısının iştirakı ilə Bakıda “Baytarlıq şəhərciyi”nin açılışı olmuşdur.

Eyni zamanda, 2015-ci ildə ölkə başçısının tapşırığına əsasən elektron kənd təsərrüfatı informasiya sisteminin yaradılması da əsas prioritetlərdən olmuşdur. Bu məqsədlə Avropa İttifaqının təcrübəsinə uyğun inteqrasiya olunmuş nəzarət sisteminin prinsipləri əsasında torpaq sahələrinin indentifikasiya sistemi, fermer təsərrüfatlarının reyestri və digər modullar üzrə yaradılan proqram təminatının test sınağı aparılmış və Xaçmaz rayonu üzrə sistemin pilot tətbiqinə başlanılmışdır. Kənd təsərrüfatı ərazilərinin mövcud vəziyyətinə uyğun aero və peyk təsvirlərinə əsaslanan məkan məlumatlarının, habelə bitki örtüyünün müəyyən edilməsinə xidmət edən orto-foto xəritələrinin tərtibi üçün Aerogeodeziya müəssisəsi ilə birlikdə praktiki fəaliyyətə və Azersky peyki ilə çəkilişlərə başlanılmışdır. Həmçinin “Aqrolizinq” ASC tərəfindən aparılan bütün əməliyyatların elektron uçot sisteminə keçilməsi başa çatdırılmış, texniki nəzarət

müfəttişliyində avtomatlaşdırılmış informasiya sistemi istismara verilərək, bütün növ kənd təsərrüfatı texnikalarının qeydiyyata alınması, çıxarılması, ipoteka yüklülüyü, sürücülük vəsiqəsinin verilməsi və sair əməliyyatlar elektron qaydada təşkil edilmişdir. Bununla yanaşı, Dövlət Fitosanitar Nəzarəti Xidməti tərəfindən bitkiçilik məhsullarının idxalına, ixracına, təkrar idxalına sertifikatların verilməsi, habelə nazirlik tərəfindən göstərilən 19 xidmət elektron hökumət portalına inteqrasiya edilmişdir.

## Ekologiya və təbii sərvətlərdən istifadə tədbirləri

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən istifadə, kəndlərdə su təmizləyici qurğuların quraşdırılması, yaşıllaşdırılma sahəsində genişmiqyaslı işlərin aparılması, yol kənarlarında meşəliklərin salınması istiqamətində işlər 2015-ci ildə də uğurla davam etdirilmişdir. Belə ki, hesabat ilində proqram çərçivəsində Qazax, Ağstafa, Şəmkir, Yevlax, Zərdab, Ağdaş, Bərdə, Beyləqan, Ağcabədi, Sabirabad, Cəlilabad, Xızı, Goranboy rayonlarının arid ərazilərində 1066 hektar sahədə, sel-daşqın təhlükəsi olan dağlıq və dağətəyi regionlarda, o cümlədən Astara, Balakən, Qax, Qəbələ, Quba, Qusar, Daşkəsən, Zaqatala, İsmayıllı, Yalama, Yardımlı, Lerik, Lənkəran, Masallı, Oğuz, Siyəzən, Tovuz, Şabran, Şamaxı, Şəki, Göygöl, Gədəbəy rayonlarının ərazilərində 1570 hektar sahədə meşəbərpa və meşəsalma tədbirləri həyata keçirilmişdir. Yaşıllaşdırma tədbirlərinin həyata keçirilməsi üçün 30,2 milyon ədəd müxtəlif çeşiddə əkin materialları yetişdirilmiş, 4310,4 min ədəd ağac əkilmiş, 90,57 hektar sahədə toxum səpilmiş, 2638,9 min ədəd ting, 626 min ədəd çilik basdırılmışdır.

Meşə və qeyri-meşə fondu ərazilərində meşə əkinlərinin becərilməsi məqsədilə 32546,4 hektar sahədə xidmət, 3224,6 hektar sahədə suvarma işləri aparılmışdır. Toxum tədarükü sahəsində 175078 kiloqram müxtəlif növdə ağac və kol toxumları tədarük edilmişdir.

Bundan başqa, qapalı şəraitdə örtülü kök sistemli tinglik sahəsində hesabat müddətində ağac və kol bitkilərindən 161 kiloqram toxum tədarük olunmuş, yaşıllaşdırma idarələri tərəfindən payız mövsümündə istifadəsi üçün 380678 ədəd müxtəlif cinslərdən ibarət ting, 92000 ədəd gül kolları yetişdirilmişdir.

Dövlət Proqramına uyğun olaraq magistral avtomobil yollarının ətrafının yaşıllaşdırılması və ətraf mühitin sağlamlaşdırılması məqsədilə aqrotexniki qaydalara əməl olunmaqla torpaq və iqlim şəraitinə uyğun ağac və kol cinslərindən olan tinglərin əkilməsi və becərilməsi tədbirləri yerinə yetirilmişdir. Belə ki, quraq-arid ərazilərdən keçən magistral avtomobil yollarının kənarlarında 2015-ci il ərzində 634753 ədəd müxtəlif növ ağac və kol cinsləri əkilmiş, bütün ərazilər damcılı suvarma sistemi ilə təchiz edilmişdir.

Hesabat dövründə Bakı-Qazax magistral avtomobil yolunun ətrafında 139273 ədəd, Bakı-Astara magistral avtomobil yolunun Ələt-Salyan hissəsində 80511 ədəd, Bakı-Şamaxı magistral avtomobil yolunun ətrafında 110545 ədəd, Bakı-Quba magistral avtomobil yolunun ətrafında 111063 ədəd ağac və kol cinsləri əkilmişdir. Həmçinin 1046 kq toxum tədarük edilmiş, yaşıllıqlara 12277 ton üzvi gübrə, 20 ton mineral gübrə verilmiş, 579 km yanğından mühafizə zolağı çəkilmişdir.

Xüsusi mühafizə olunan təbiət ərazilərinin inkişaf etdirilməsi, ekoloji şəbəkənin yaradılması istiqamətində həyata keçirilən tədbirlər davam etdirilmişdir. Ölkədə 2003-cü ilədək xüsusi mühafizə olunan təbiət ərazilərinin ümumi sahəsi 478 min hektar təşkil edirdisə, hazırda bu ərazi 893 min hektar sahəni əhatə edir ki, bu əraziyə 9 milli park, 11 dövlət təbiət qoruğu və 24 dövlət təbiət yasaqlığı aiddir. Ümumilikdə xüsusi mühafizə olunan təbiət əraziləri ölkə ərazisinin 10,3 faizini, o cümlədən milli parklar 3,72 faizini əhatə edir. 2015-ci il ərzində Göygöl Milli Parkının meşəlik sahələrində rekreasiya potensiallı ərazilərdə ekoturizm infrastrukturu, marşurutlar yaradılmış və qısa müddət ərzində Milli Parka 65 mindən artıq turist səyahət etmişdir.

Hesabat ili ərzində su bioloji resurslarının artırılması sahəsində də işlər davam etdirilmiş, 396 milyon ədəddən çox balıq körpəsi yetişdirilərək su hövzələrinə buraxılmışdır.

Eyni zamanda, ölkə başçısının 6 yanvar 2015-ci il tarixli Sərəncamı ilə Ağsu, Füzuli, Göyçay, İmişli, Kürdəmir, Qax, Sabirabad, Şəki, Ucar və Zaqatala rayonlarının 40 mindən çox əhalisi olan 50 yaşayış

məntəqəsində modul tipli sutəmizləyici qurğuların quraşdırılması məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinə 5 milyon manat məbləğində vəsait ayrılmış, 2015-ci ildə 124,5 min əhalinin bəhrələndiyi 58 yaşayış məntəqəsində modul tipli su təmizləyici qurğular quraşdırılmışdır.

## Yol təsərrüfatı və nəqliyyat tədbirləri

Regionların inkişafında baş verən köklü dəyişikliklər nəqliyyat infrastrukturunda da müşahidə olunmuş və bu sahədə həyata keçirilən genişmiqyaslı tədbirlər yeni keyfiyyət və kəmiyyət çalarları ilə zənginləşərək ümumi sosial-iqtisadi dinamikaya öz təsirini göstərmişdir. Ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayan nəqliyyat sektorunda həyata keçirilən genişmiqyaslı tədbirlər çərçivəsində avtomobil yollarının çəkilməsi və yenidən qurulması, körpülərin tikintisi, regionlarda yol şəbəkələrinin bərpası işləri daha da sürətləndirilərək 2015-ci ildə də davam etdirilmişdir.

Hesabat dövründə regionlarda, xüsusilə də kəndlərdə yaşayan əhalinin ticarət-iqtisadi münasibətlərində mühüm yer tutan və həmçinin əhalinin rahat hərəkətini təmin edən yol infrastrukturlarının təkmilləşdirilməsi istiqamətində həyata keçirilən layihələrin bir qismi başa çatdırılmış və ölkə başçısının iştirakı ilə Siyəzən rayonunda Siyəzən-Məşrif, Bərdə rayonunda Mollaisalar-Vəliuşağı-Mollaəhmədli-Sərkarlar, Kürdəmir rayonunda Mollakənd-Axtaçı-Öyləqulu, Ağsu-Kürdəmir-İmişli, Ucar rayonunda Göyçay-Ucar, Astarada Deqədi-Pəlikəş, Cəlilabad rayonunda Alar-Təzəkənd-Üçtəpə-Əliqasımlı-Cəfərxanlı, Zaqatala rayonunda Zaqatala-Danaçı-Aşağı Çardaxlar avtomobil yollarının və Şəki-Qax-Zaqatala avtomobil yolunun Şəki-Qax hissəsinin açılış mərasimləri keçirilmişdir.

Ümumilikdə, hesabat ilində regionlarda 407,4 km respublika və yerli əhəmiyyətli avtomobil yolu tikilmiş və əsaslı təmir olunmuş, 12 yeni körpü, keçid və yol qovşaqları inşa edilmişdir.

Bununla yanaşı, 2015-ci ildə ölkə başçısının müvafiq sərəncamları ilə bir sıra kəndlərarası avtomobil yollarının tikintisinə, o cümlədən Salyanda Çuxanlı-Gəncəli-Piratman-Parça Xələc-Seyidan, Hacıqabulda Qarasu-Abdulabad-Talış-Meyniman-Muğan, Bərdədə Yeni Daşkənd-Umudalılar, Lənkəran şəhərdaxili və Aşağı Nüvədi-Kənarmeşə-Şürük, Astarada Taxtanəkəran-Miki, Taxtanəkəran-Toradi, Saatlıda Saatlı-Sarıcalar-Qara Nuru-Şirinbəyli-Fətəlikənd-Azadkənd, Tovuzda Tovuz-Hunanlar-Qaraxanlı-Düz Cırdaxan, Sabirabadda Suqovuşan–Qaralar-Qəfərli-Əhmədabad-Nərimankənd-Həşimxanlı, Nizami-Əliləmbəyli-Azadkənd-Sarxanbəyli, Füzulidə Birinci və On birinci Qayıdış qəsəbələrarası, Qubada Rustov-Xanəgah-Gürdəh, Rustov-Nöydün-Şuduq, Rustov-Məckəxacə, Rustov-Bağçalı-Yekdar, Neftçalada Şorkənd-Beştalı-Bankə-Şirvanlı, Qusarda Qusar-İmamqulukənd-Quxuroba, Oğuzda Sincan-Xaçmaz-Filfili, Cəlilabadda Cəlilabad-Astanlı-Cəngan Soltankənd, Ağcabədidə Hüsülü-Kürdlər-Şərəfxanlı-Mirzəhaqverdili, Biləsuvarda Əsgərabad-Muğan avtomobil yollarının və Qorağan-Qax-Zaqatala avtomobil yolunun Qax-Zaqatala hissəsinin tikintisinə müvafiq maliyyə vəsaiti ayrılmışdır.

Ölkəmizdə yol-nəqliyyat infrastrukturunun tamamilə yeniləşdirilməsi və müasirləşdirilməsi, bu sahədə əsaslı dəyişikliklərin yer aldığı proses uğurla davam etməkdədir. Bu istiqamətdə ötən ildə atılmış addımlardan biri ölkə başçısının 7 dekabr 2015-ci il tarixli Fərmanı ilə Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı yanında Sumqayıt Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsinin yaradılması olmuşdur. Həmçinin, 2015-ci ildə Bakı şəhərində və Abşeron yarımadasında yaşayan əhalinin gediş-gəlişində və şəhərdaxili hərəkətində mühüm əhəmiyyət kəsb edən Bakı-Sumqayıt-Bakı dəmir yolu xətti yenidən qurulmuş, Bakı-Sumqayıt marşrutu ilə sərnişinlərin rahat, sürətli və təhlükəsiz daşınması üçün sürətli elektrik qatarları istismara verilmişdir.

Azərbaycan Respublikasında dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınması sahəsində vahid, çevik və şəffaf tarif siyasətinin həyata keçirilməsi, sərhədkeçmə prosedurlarının və daşıma proseslərinin asanlaşdırılması, habelə bu sahədə fəaliyyət göstərən dövlət qurumları arasında əlaqələndirmə işlərinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21 oktyabr 2015-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası yaradılmışdır. Artıq Azərbaycan Respublikasının Tranzit

Yükdaşımalar üzrə Koordinasiya Şurası tərəfindən müvafiq tədbirlərin həyata keçirilməsinə başlanılmış, Türkiyədən Aktau və Türkmənbaşı limanlarına iritonnajlı yük avtonəqliyyat vasitələrinin Azərbaycan Respublikası ərazisindən tranzit keçid prosedurları sadələşdirilmiş, tranzit gediş-gəliş xərcləri təqribən 40 faiz aşağı salınmışdır.

## Elektrik enerjisi təchizatı

Bölgələrin fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təmin olunması, abonentlərə yüksək səviyyəli xidmət göstərilməsi məqsədilə 2015-ci ildə də genişmiqyaslı tədbirlərin icrası davam etdirilmişdir. Hesabat ilində Dövlət Proqramı çərçivəsində regionlarda 7000,4 km yeni elektrik verilişi xətləri çəkilmiş, 1213,6 km elektrik verilişi xətləri əsaslı təmir olunmuş, 1289 transformator və 20 yarımstansiya quraşdırılmış və ya əsaslı təmir edilmişdir. Hesabat ilində Göyçay rayonunda “Göyçay” Su Elektrik Stansiyası və Naxçıvan Muxtar Respublikasında Günəş Elektrik Stansiyası istifadəyə verilmişdir.

Bundan başqa, Dövlət Proqramına uyğun olaraq ölkənin alternativ və bərpa olunan enerji mənbələri potensialının müəyyənləşdirilməsi, mövcud olan alternativ və bərpa olunan enerji mənbələri hesabına yeni enerji güclərinin yaradılmasının təmin edilməsi istiqamətində bir sıra işlər həyata keçirilmişdir. Belə ki, regionlarda alternativ və bərpa olunan enerji mənbələri sahəsində uzunmüddətli və səmərəli fəaliyyətin təmin edilməsi, layihələrin planlı şəkildə və regionların enerji tələbatına uyğun həyata keçirilməsi üçün Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi tərəfindən “Azərbaycan Respublikasının alternativ və bərpa olunan enerji mənbələri üzrə inkişaf xəritəsi 2020”, “Azərbaycan Respublikasının şəhər və rayonları üzrə 2020-ci ilədək alternativ və bərpa olunan enerji mənbələrinin inkişaf xəritələri” və “Azərbaycan Respublikasının alternativ və bərpa olunan enerji mənbələri üzrə idarəetmə sxemi” hazırlanmışdır.

Eyni zamanda, Samux Aqroenerji Yaşayış Kompleksində layihə gücü 2,8 MVt olan Günəş Elektrik Stansiyasında quraşdırılan günəş panellərinin sayı 7860-a çatdırılmış, quraşdırılmış panellərdən 6000-i və ya 1,5 MVt-ı enerji sistemə qoşulmuşdur. Kompleksdə 3 mərtəbəli idarəetmə mərkəzi və dispetçer xidmətinin binasının tikintisi başa çatdırılmış, binanın havalandırılması üçün 272 kVt-lıq çiller qurğusu, qazanxana quraşdırılmış və obyektdə ümumi uzunluğu 7080 metr olan kabelləşdirilmə işləri yerinə yetirilmişdir. Həmçinin, Sumqayıt şəhərində layihə gücü 2,8 MVt olan Günəş Elektrik Stansiyasında 8800 ədəd günəş paneli quraşdırılmaqla stansiyanın gücü 2,2 MVt-a çatdırılmış, stansiyada dispetçer, invertor, aşağı və yüksək gərginlikli avadanlıq və transformator otaqları tikilmişdir.

## Qaz təchizatı

Əhalinin və sənayenin təbii qazla təminatının yaxşılaşdırılması istiqamətində ölkənin hər bir yerində qaz təchizatı sisteminin yenidən qurulması, kənd və qəsəbələrin qazlaşdırılması istiqamətində görülən işlər nəticəsində uzun illər qaz təchizatından kənarda qalmış yaşayış məntəqələri də “mavi yanacaq”la təmin olunmuşdur. İstehlakçıların qaz təchizatının yaxşılaşdırılması, şəbəkənin qaz nəqletmə imkanlarının artırılması üçün tədbirlər davam etdirilmişdir. Qaz təsərrüfatının, paylayıcı sistemin dünya standartlarına uyğunlaşdırılması və maddi-texniki bazasının gücləndirilməsi istiqamətində görülən təxirəsalınmaz tədbirlər artıq öz bəhrəsini verməkdədir. Belə ki, 2015-ci ildə istehlakçıların təhlükəsiz və fasiləsiz qazla təmin edilməsi istiqamətində regionlarda 12183 km qaz xətti çəkilmiş, 263,2 km qaz xətti əsaslı təmir olunmuş, 5 ədəd yeni qaz paylayıcı stansiya və ya qaz tənzimləyici məntəqə tikilmiş və 140381 ədəd qaz sayğacı quraşdırılmış və ya yenisi ilə əvəz olunmuşdur.

Hesabat ilində Ağdaş, Kürdəmir, Salyan, Ucar, Zərdab, Ağcabədi, Sabirabad, Bərdə, Neftçala, İmişli, Yevlax, Saatlı, Beyləqan, Biləsuvar, Göyçay, İsmayıllı, Ağsu, Şamaxı, Qobustan, Zaqatala, Qax, Qəbələ, Oğuz, Şəki, Tovuz, Gədəbəy, Ağstafa, Şəmkir, Goranboy, Daşkəsən, Samux, Füzuli, Tərtər, Astara,

Lənkəran, Cəlilabad, Masallı, Lerik, Yardımlı, Xaçmaz, Qusar, Şabran və Quba rayonlarında ümumilikdə 430 yaşayış məntəqəsi təbii qazla təmin olunmuşdur.

## İstilik təchizatı

“Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na uyğun olaraq ölkənin müxtəlif bölgələrində 2015-ci ildə də müasir istilik sistemlərinin qurulması, mövcud istilik sistemlərinin bərpası, modernləşdirilməsi və yenidənqurulması işlərinin icrası davam etdirilmiş, ümumilikdə ölkə üzrə 14,7 km yeni xətt çəkilmiş, 14,6 km mövcud xətlərdə təmir-bərpa işləri aparılmış, 13 ədəd qazanxana tikilmiş və ya əsaslı təmir edilmişdir. Hesabat ilində Gəncə, Sumqayıt, şəhərlərində, Lənkəran, Lerik, Biləsuvar, İsmayıllı, Zaqatala, Cəlilabad, Qax, Göyçay, Hacıqabul, Ağstafa və Siyəzən rayonlarında istilik təchizatının təmin olunması ilə bağlı xətlərin çəkilişi və bərpası, yeni qazanxanaların tikilməsi və modernləşdirilməsi, yaşayış binalarının məhəllədaxili və aşağı paylama istilik sistemlərinin əsaslı təmiri istiqamətində bir sıra işlər həyata keçirilmişdir.

Bundan başqa, hesabat ilində ənənəvi enerji mənbəyi kimi karbohidrogen ehtiyatlarının məhdudluğunu və ətraf mühitin çirklənməsinin qarşısının alınmasını, Azərbaycanın özünün əlverişli təbii şəraiti ilə kifayət qədər alternativ və bərpa olunan enerji potensialına malik olmasını nəzərə alaraq istilik enerjisi alternativ və bərpa olunan enerji mənbələri hesabına təmin olunan idman obyektlərinin tikintisi davam etdirilmişdir.

## Rabitə xidmətlərinin yaxşılaşdırılması tədbirləri

İnformasiya-kommunikasiya texnologiyaları (İKT) yüksək artım tempinə malik yeni iqtisadi sahə kimi qeyri-neft sektorunda aparıcı rol oynayır. Ölkədə İKT infrastrukturunun inkişafı və genişləndirilməsi ilə yanaşı, informasiya texnologiyalarının istehsalına və tətbiqinə də xüsusi diqqət yetirilir. Respublikanın sosial-iqtisadi həyatında mühüm rol oynayan və inkişaf səviyyəsinə görə iqtisadiyyatın digər sahələri ilə müqayisədə daha qabarıq şəkildə nəzərə çarpan informasiya və rabitə xidmətlərinin yaxşılaşdırılması istiqamətində zəruri tədbirlərin görülməsi əsas məsələlərdən biri kimi 2015-ci ildə də diqqət mərkəzində saxlanılmış, respublikada aparılan iqtisadi islahatlar nəticəsində uğurlu inkişaf tendensiyası rabitə və yüksək texnologiyalar sektorunda da davam etdirilmişdir.

Dövlət Proqramına uyğun olaraq respublikada bütün yaşayış məntəqələri telefonlaşdırılmış, sabit telefon şəbəkəsi tam elektronlaşdırılmışdır. Genişzolaqlı internet infrastrukturu, həmçinin, bütün ölkə üzrə 3-cü, Bakı və Abşeron yarımadasında isə 4-cü nəsil texnologiyasının tətbiqi genişləndirilmişdir. Beynəlxalq Telekommunikasiya İttifaqının hesabatına əsasən, ölkəmiz ərazisinin 100 faizli 3-cü nəsil örtüyünə malik olan 40 ölkə sırasındadır. Hesabat dövründə stasionar rabitə xidmətlərinin genişləndirilməsi istiqamətində əsasən kəndlərdə optik rabitə infrastrukturunun inkişafına diqqət yetirilmişdir. Regionlarda sənaye və texnologiyalar parklarının yaradılması da bölgələrlə paytaxt arsında texnoloji imkanların bərabərləşməsinə öz töhfəsini verməkdədir.

Eyni zamanda, Dövlət Proqramına uyğun olaraq informasiya və rabitə xidmətlərinin yaxşılaşdırılması məqsədilə 2015-ci ildə regionlarda 28 poçt binası tikilmiş və ya əsaslı təmir olunmuş, 136 EATS tikilmiş və ya rekonstruksiya olunmuş, 35437 nömrə artırılmışdır.

Görülən işlərin nəticəsidir ki, Dünya İqtisadi Forumunun “Qlobal İnformasiya Texnologiyaları 2015” hesabatında Azərbaycan 143 ölkə arasında hökumətin gələcəklə bağlı İKT sektoruna yanaşması üzrə 9-cu yeri, İKT sektorunun təbliğində hökumətin uğuruna görə 10-cu yeri tutmuşdur.

## Su təchizatının və kanalizasiya xidmətlərinin yaxşılaşdırılması tədbirləri

Azərbaycan iqtisadiyyatının sürətli inkişafı infrastrukturun digər sahələrində olduğu kimi, içməli su təchizatı və kanalizasiya sahəsində də köklü dəyişikliklərə səbəb olmuşdur. Ölkə başçısının rəhbərliyi ilə uğurla həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası regionların dinamik inkişafını sürətləndirmiş, bölgələri əhatə edən bütün layihələr Azərbaycan vətəndaşlarının həyat şəraitinin yüksəldilməsinə xidmət etmişdir.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq, ölkəmizdə su və kanalizasiya sistemlərinin yenidən qurulması işləri 2015-ci ildə davam etdirilmişdir. Belə ki, əhalinin su təchizatının və kanalizasiya xidmətlərinin yaxşılaşdırılması istiqamətində 2015-ci ildə ümumilikdə bölgələrdə 749,5 km su xətti, 390,6 km kanalizasiya xətti çəkilmiş, 35 su anbarı tikilmiş və ya yenidən qurulmuş, 27 ədəd artezian quyusu qazılmış, Ucar, Göyçay və Ağsu şəhərlərinin su təchizatı sisteminin yenidən qurulması layihəsi, Abşeron rayonunda Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi və Naxçıvan şəhərinin şəhərdaxili su şəbəkəsi istifadəyə verilmişdir.

## Meliorasiya və irriqasiya tədbirləri

Kənd təsərrüfatı məhsulları istehsalının artırılması və yeni əkin sahələrinin dövriyyəyə daxil edilməsi məqsədilə 2015-ci ildə də meliorasiya və irriqasiya layihələrinin həyata keçirilməsi regionlarda aqrar sahənin davamlı inkişafında xüsusi rol oynamışdır. Dövlət Proqramına uyğun olaraq kənd yerlərində torpaqların suvarma və meliorasiya təminatının yaxşılaşdırılmasına, torpaq və su ehtiyatlarından səmərəli istifadə edilməsinə xüsusi önəm verilmiş, həyata keçirilən böyük infrastruktur layihələrindən biri olan Taxtakörpü-Ceyranbatan kanalından Siyəzən və Xızı rayonlarında yeni suvarılan torpaqlara suyun verilməsi qurğusunun açılışı həyata keçirilmişdir.

"Şabran, Siyəzən və Xızı rayonlarında mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılması və yeni suvarılan torpaqların istifadəyə verilməsi" layihəsi çərçivəsində Siyəzən rayonu üzrə 12 min 137 hektar sahənin 6 min 972 hektarında meliorativ tədbirlər aparılmaqla yeni suvarılacaq torpaqların istifadəyə verilməsi və 5 min 165 hektarda mövcud əkin sahələrinin su təminatının yaxşılaşdırılması, Xızı rayonu üzrə isə 12 min 579 hektar sahənin 9 min 609 hektarında meliorativ tədbirlər aparılmaqla yeni suvarılacaq torpaqların istifadəyə verilməsi və 2 min 970 hektarında mövcud əkin sahələrinin su təminatının yaxşılaşdırılması nəzərdə tutulmuş və 2015-ci ildə Xızı rayonunda 7111 hektar (ondan 5399 hektar yeni suvarılan) və Siyəzən rayonunda 3204 hektar (ondan 2539 hektar yeni suvarılan) sahədə mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılması və yeni suvarılacaq torpaqların istifadəyə verilməsi üzrə işlər başa çatdırılmışdır.

Bundan başqa, Naxçıvan Muxtar Respublikasında da meliorativ tədbirlər çərçivəsində Vayxır sol sahil suvarma və drenaj şəbəkəsi istifadəyə verilmişdir. Böyük iqtisadi əhəmiyyəti olan bu layihənin reallaşdırılması nəticəsində Babək rayonu Nehrəm kəndinin 1170 hektar və Culfa rayonu Bənəniyar kəndinin 1050 hektar olmaqla, ümumilikdə 2220 hektar torpaq sahəsində müasir suvarma sistemi qurulmuşdur. Vayxır sol sahil suvarma və drenaj şəbəkəsi suyun itkisiz çatdırılmasını, yeraltı suların ərazilərdən uzaqlaşdırılmasını, əvvəllər suvarılması mümkün olmayan sahələrə də su verilməsini təmin etməklə şoranlaşmanın qarşısının alınmasına, bol məhsul istehsalına, bir sözlə muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunmasına xidmət edir.

Eyni zamanda, əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi məqsədilə əhalisi 400 min nəfərə yaxın olan 40 şəhər və rayonun 148 yaşayış məntəqəsində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin

içməli suya olan tələbatının ödənilməsi üçün 150 subartezian quyusunun layihələndirilməsi və qazılması üçün Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə 10,0 milyon manat, Naxçıvan Muxtar Respublikasının ərazisində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün subartezian quyularının qazılması məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 2,0 milyon manat vəsait ayrılması üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 16 dekabr 2015-ci il tarixində Sərəncam imzalanmışdır.

Proqram çərçivəsində hesabat ili ərzində kənd təsərrüfatı torpaqlarında 232429,0 pm kollektor-drenaj şəbəkəsinin, 478310,4 pm suvarma kanallarının tikintisi, bərpası və yenidən qurulması həyata keçirilmiş, əkin sahələrinin su təminatının yaxşılaşdırılması üçün 279 subartezian quyusu qazılmış, 18080 hektar torpaq sahəsində torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması və 78089 hektar ərazidə torpaqların su təminatının yaxşılaşdırılması tədbirləri görülmüşdür.

## Əhalinin təhlükəsizliyi tədbirləri

Dövlət Proqramına uyğun olaraq əhalinin təhlükəsizliyi tədbirləri çərçivəsində çaylarda məcranın sel gətirmələrindən təmizlənməsinin, sahilbərkitmə, məcra nizamlama işlərinin, mövcud mühafizə bəndlərinin möhkəmləndirilməsi və hündürləşdirilməsinin davam etdirilməsi tədbirləri uğurla icra olunmuşdur. Belə ki, hesabat dövründə respublikanın ən təhlükəli hesab olunan çaylarında sel və daşqınlara qarşı mühafizə bəndlərinin tikintisi işləri həyata keçirilmişdir. Tərtərçay, Daşağılçay, Kişçay, Durucaçay və Dəmiraparançay çaylarında 1153 pm uzunluğunda sahilbərkitmə işləri yerinə yetirilmiş, Ağstafa rayonunun Dağ Kəsəmən kəndinin yağış və sel sularından mühafizəsi tədbirləri üzrə torpaq bəndin hündürləndirilməsi və daş üzlüyə alınması işləri aparılmış, Kür, Araz və onlara qovuşan dağ çaylarının mövcud torpaq mühafizə bəndlərinin 56,4 km məsafəsində hündürləndirmə və möhkəmləndirmə işləri, Kür-Araz çaylarının uçmaya məruz qalan sahillərində 187,3 km məsafədə qayakəsmə işləri, 4138 kubmetr həcmində betonitlərlə və 4015 kubmetr həcmində faşınla sahilbərkirtmə işləri yerinə yetirilmişdir. Bundan başqa, Yevlax, Bərdə, Göyçay, Saatlı, Sabirabad, Salyan, İsmayıllı, Şamaxı, Ağstafa, Qazax, Xaçmaz, Quba, Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonlarında sel sularından mühafizə tədbirlərinin həyata keçirilməsi sahəsində müvafiq işlər həyata keçirilmişdir.

Həmçinin, Tərtər çayının Bərdə rayonunun Zümürxan kəndi ərazisindən keçən hissəsində sahilbərkitmə işlərinin maliyyələşdirilməsi və Viləş çayının Masallı şəhərinin mərkəzindən keçən hissəsində çay sahilindəki ərazinin sel və daşqın sularından mühafizəsi üçün, bu ərazidə Viləş çayının yatağının 750 pm hissəsinin beton məcraya salınması məqsədilə tikinti işlərinin davam etdirilməsi ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müvafiq olaraq 23 noyabr 2015-ci il tarixli 402s nömrəli və 15 iyul 2015-ci il tarixli 206s nömrəli sərəncamlar imzalanmışdır.

Eyni zamanda, 2015-ci il ərzində Ağcabədi, Ağstafa, Gədəbəy, Goranboy, Göygöl, Qazax, Tovuz, Ağdam, Füzuli və Tərtər rayonlarında ərazilərin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi üzrə müvafiq tədbirlər uğurla həyata keçirilmişdir. Ümumilikdə, hesabat ili ərzində 36335048 kvadratmetr ərazi təmizlənmiş, 24380 ədəd mina və PHS aşkar edilərək zərərsizləşdirilmiş və ərazilərdə təmizləmə işləri aparıldıqdan sonra tam təhlükəsiz vəziyyətdə yerli sakinlərə təhvil verilməsi nəzərdə tutulmuşdur.

## Mənzil təsərrüfatı və abadlıq-quruculuq tədbirləri

Regionlarda mənzil-kommunal təsərrüfatının inkişafı, mənzil fondunun istismarı, saxlanılması səviyyəsinin yüksəldilməsi məqsədilə mənzil-kommunal sektorunda islahatların, daşınmaz əmlak bazarının inkişafının dəstəklənməsinin, yaşayış sahəsinə ehtiyacı olan aztəminatlı vətəndaşların, o cümlədən gənc

ailələrin yaşayış sahəsi ilə təmin edilməsi üçün tədbirlərin, abadlıq-quruculuq və yaşıllaşdırma işlərinin davam etdirilməsi, məişət tullantılarının idarəedilməsi sahəsində müvafiq tədbirlərin həyata keçirilməsi, 2015-ci ildə də mənzil siyasətinin və abadlıq-quruculuq işlərinin əsas prioritetlərini təşkil etmişdir.

Azərbaycan Respublikasında müasir beynəlxalq standartlara uyğun ünvan reyestrinin yaradılması istiqamətində işlər 2015-ci ildə davam etdirilmişdir. Belə ki, respublikanın 53 rayonunun küçə və prospektlərinin başlanğıc və sonu, onların koordinatları müəyyənləşdirilmiş və müvafiq icra hakimiyyəti orqanları tərəfindən təsdiq edilmişdir. 6700-ə yaxın nəqliyyat infrastrukturu obyekti üzrə 663000-dən artıq giriş ünvanı təyin edilmiş, 502500-dən artıq köhnə ünvan məlumatı toplanılmış, 2000-dən artıq küçə və prospekt üzrə 476000-ə yaxın daxili ünvan təyin edilmişdir.

Eyni zamanda, hesabat ilində təmas xəttindən 3 km məsafədə yerləşən Ağdam rayonunun Mahrızlı, Kolqışlaq, Rzalar, İsalar, Qaradağlı, Evoğlu, Hacıməmmədli, Təzəkənd və Əfətli kəndlərində 110 ədəd fərdi yaşayış evlərinin bərpası və tikintisi üçün ev sahiblərinə inşaat materiallarının paylanması işləri aparılmışdır. Həmçinin ölkə başçısı tərəfindən Mingəçevir şəhəri və Bərdə rayonunun mənzil fondunun əsaslı təmiri işlərinin sürətləndirilməsi və kommunal texnikanın alınması, Kürdəmir, Ucar, Göyçay və Xaçmaz şəhərlərində çoxmənzilli binaların əsaslı təmiri, Zaqatala şəhərində abadlıq-quruculuq işlərinin davam etdirilməsi və çoxmənzilli binaların əsaslı təmiri, Şəki şəhərində abadlıq-quruculuq işlərinin sürətləndirilməsi, Sumqayıt şəhərində çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi, şəhərin mənzil fonduna daxil olan 100 çoxmənzilli binanın dam örtüyünün dəyişdirilməsi və zəruri təmir işlərinin həyata keçirilməsi, Lənkəran şəhəri ərazisinə yağan leysan yağışlar nəticəsində dəymiş ziyanın aradan qaldırılması və çoxmənzilli binalarda təmir-bərpa işlərinin həyata keçirilməsi, Naxçıvan Muxtar Respublikasında abadlıq-quruculuq işlərinin davam etdirilməsi məqsədilə müvafiq sərəncamlar imzalanmışdır.

Bundan başqa, Azərbaycan Respublikası Hökuməti və Dünya Bankının birgə maliyyələşdirməsi ilə həyata keçirilən “Bərk tullantıların vahid idarəçiliyi layihəsi” üzrə işlər də davam etdirilmiş, sözügedən layihənin 2014-2016-cı illər üzrə ikinci mərhələsi çərçivəsində Azərbaycan Respublikasında Bərk Məişət Tullantılarının İdarəçiliyinə dair Milli Strategiya, Texniki İqtisadi Əsaslandırma və Regional İnvestisiya Planlarının hazırlanması məqsədilə Dünya Bankının satınalma prosedurlarına müvafiq olaraq seçilmiş beynəlxalq məsləhətçi şirkət cəlb edilmişdir.

Müqavilə çərçivəsində Azərbaycan Respublikasında bərk məişət tullantılarının idarə edilməsinin cari vəziyyəti və sahə üzrə boşluq və çatışmazlıqların müəyyən edilməsi məqsədilə məsləhətçi şirkət tərəfindən ölkənin 11 pilot sahələrində mövsümi olaraq tullantıların tərkibi və həcminin müəyyən edilməsi tədqiqatları, rayon və şəhərlərə təqdim edilən sorğu formalarına dair alınan məlumatların təhlili, müxtəlif dövlət qurumlarından əldə edilən statistik məlumatlar, ölkənin yol şəbəkəsinin inkişafı, relyef, geoloji, hidrogeloji və topoqrafik xüsusiyyətlər, çay və göl şəbəkəsinin inkişafına dair təfsilatlı araşdırmalar aparılmışdır.

Əldə edilmiş məlumatlar əsasında məsləhətçi şirkət ölkə ərazisində bərk məişət tullantılarının davamlı idarə edilməsinə dair daşınma, toplama və zərərsizləşdirmə sisteminin qurulmasının optimal seçimi kimi regional sanitar poliqon və ötürücü məntəqələr şəbəkəsinin yaradılmasını təklif etmiş və sahə üzrə hüquqi, inzibati, maliyyə, institusional və texnoloji islahatlara dair seçim və inkişaf ssenarilərini özündə ehtiva edən Konsepsiya Sənədinin layihəsini hazırlamış və 16 dekabr 2015-ci il tarixində aidiyyəti dövlət qurumlarının və digər maraqlı tərəflərin iştirakı ilə sözügedən layihənin təqdimatı keçirilmişdir.

## Sosial müdafiə tədbirləri

Ölkə vətəndaşlarının rifah halının yaxşılaşdırılması və aztəminatlı əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində nəzərdə tutulmuş tədbirlər Dövlət Proqramına uyğun olaraq 2015-ci ildə də ardıcıllıqla davam etdirilmişdir. Hesabat ili ərzində aztəminatlı ailələrin həyat səviyyəsinin yüksəldilməsinə şərait yaradılması, əlil və şəhid ailələri üçün mənzil tikintisi, müxtəlif reabilitasiya vasitələri ilə təminatı, bu sahədə xidmət şəbəkəsinin bütün bölgələr üzrə genişləndirilməsi, yeni sosial obyektlərin yaradılması

istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən vətəndaşların sosial təminat sahəsində sürətli, rahat və şəffaf xidmətlərə geniş çıxışının təmin edilməsi, ünvanlı dövlət sosial yardımı üzrə dövlət orqanlarının fəaliyyətinin innovativ texnologiyaların tətbiqi ilə qabaqcıl dünya təcrübəsinə uyğun təşkil edilməsi və bu əsasda aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi, əhaliyə göstərilən tibbi-sosial ekspertiza və reabilitasiya xidmətlərinin keyfiyyətinin yüksəldilməsi məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mərkəzləşdirilmiş informasiya sistemində ünvanlı dövlət sosial yardımı üzrə Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Alt Sisteminin (TSERAS) və Vahid Elektron Müraciət və Təyinat Alt Sisteminin (VEMTAS) yaradılması ilə bağlı fərmanlar imzalanmışdır. Eyni zamanda, yeni qaydalarla 415 min nəfər şəxsdən ibarət olan ailələrə dövlət büdcəsinin vəsaiti hesabına 206,0 milyon manat ünvanlı sosial yardım verilmişdir.

Həmçinin, ölkə başçısı tərəfindən 2015-ci il 30 dekabr tarixinə ünvanlı dövlət sosial yardımı alan ailələrin hər birinə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramları münasibətilə 50 manat məbləğində birdəfəlik yardımın ödənilməsi haqqında Sərəncam imzalanmışdır.

2015-ci ildə müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsinə də xüsusi önəm verilmiş, Tərtər rayonunda 54 mənzilli yaşayış evi, 11 rayonda 82 fərdi yaşayış evi tikilmiş, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən Sərəncam imzalanmışdır. Həmçinin Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olmuş və itkin düşmüş hərbi qulluqçuların ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilmiş, 18 yaşa çatmış və valideyn himayəsindən məhrum olmuş uşaqların mənzil problemlərinin aradan qaldırılması üçün "Məzun Evi" Sosial Müəssisəsi yaradılmışdır.

Eyni zamanda, Ermənistanın hərbi təcavüzü nəticəsində doğma torpaqlarından didərgin düşən vətəndaşlarımızın həyat şəraitinin yaxşılaşdırılması və bu sahədə təsirli tədbirlərin görülməsi də 2015-ci ildə diqqət mərkəzində saxlanılmışdır. Hesabat ili ərzində məcburi köçkünlər üçün Bərdə rayonunda 588, Sabirabad rayonunda 234 və 206, Qazax rayonunda 304, Zaqatala rayonunda 135 ailəlik olmaqla 120 min kvadratmetr sahəsi olan yeni qəsəbə və məhəllələr salınmış, həmçinin Qaradağ rayonunun Müşfiqabad qəsəbəsində 80, Sabunçu rayonunun Ramana qəsəbəsində 80, Şirvan şəhərində 21 və Xırdalan şəhərində 126 ailə üçün hündürmərtəbəli yaşayış binaları, Axıska türkləri üçün 94 ev tikilib istifadəyə verilmiş, 1380 şagird yerlik 5 məktəb inşa edilmiş, həmçinin 3 uşaq bağçası, 3 tibb məntəqəsi, 3 klub - icma mərkəzi, 3 inzibati bina tikilib istifadəyə verilmiş, 20 kilometr yol, 45,0 kilometr su xətti, 56,0 kilometr elektrik xətti, 35,0 kilometr qaz, 7 kilometr istilik xətti çəkilmiş, 25 ədəd su anbarı, 11 nasos stansiyası, 8 komplekt transformator yarımstansiyası inşa edilmiş, 22 ədəd yüksəkgərginlikli transformator quraşdırılmışdır. Beləliklə, 2015-ci ildə 15 min məcburi köçkünün mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün tikinti işləri aparılmış, 5 yeni qəsəbə salınaraq yaşayış massivlərinin sayı 94-ə çatdırılmışdır.

Bundan başqa, dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılmasının, vətəndaşlara göstərilən xidmətlərin daha keyfiyyətli, rahat, müasir innovasiyaları tətbiq etməklə həyata keçirilməsinin zəruriliyini nəzərə alaraq, dövlət orqanları tərəfindən göstərilən xidmətlərin təkmilləşdirilməsi və elektron xidmətlərə keçidin sürətləndirilməsi məqsədilə regionlarda Asan xidmət mərkəzlərinin yaradılması istiqamətində işlər davam etdirilmiş, Bərdə, Ağdam, Ağcabədi, Laçın, Yevlax və Tərtər rayonlarının 800 minə yaxın sakininə xidmət edən "Bərdə ASAN xidmət" mərkəzinin açılışı olmuş, həmçinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Masallı rayonunda regional "ASAN xidmət" kompleksinin tikintisinin sürətləndirilməsi məqsədilə 16 milyon manat vəsaitin ayrılması barədə sərəncamlar imzalanmışdır.

## Təhsil müəssisələrinin tikintisi və yenidən qurulması

Dövlət Proqramının icrası ilə əlaqədar 2015-ci ildə regionlarda sosial infrastruktur obyektlərinin, xüsusən

də təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və onların maddi-texniki bazasının müasir tələblərə uyğun qurulması işləri davam etdirilmişdir. Ölkənin gələcəyi olan uşaqların təlim-tərbiyəsinin yüksək səviyyədə təşkili, onların sağlamlığının qorunması dövlətimizin daim diqqət mərkəzindədir. Heydər Əliyev Fondu da bu istiqamətdə mühüm layihələr həyata keçirir. “Məktəbəqədər təhsil müəssisələrinin inkişafı Proqramı” bir daha sübut edir ki, uşaqların təlim-tərbiyəsi Fondun fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir. Hesabat dövründə ölkə başçısının iştirakı ilə Mingəçevir, Kürdəmir, Lənkəran, Cəlilabad, Şəki və Zaqatalada yeni uşaq bağçalarının, Kürdəmirdə Atakişili kənd tam orta məktəbinin, Azərbaycan Müəllimlər İnstitutunun Zaqatala filialının, Şəkidə 840 şagird yerlik Qoxmuq kənd tam orta məktəbinin, Babəkdə Nehrəm kənd 2 saylı tam orta məktəbinin açılış mərasimləri keçirilmiş, Astarada 860 yerlik 2 saylı tam orta məktəb binasının əsaslı təmirinə dair Sərəncam imzalanmışdır.

Bundan başqa, yeni istehsalat və xidmət sahələrinin ixtisaslı kadrlara ehtiyacını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Mingəçevir Dövlət Universiteti yaradılmış və 2015-ci ilin tədris ilindən fəaliyyətə başlamışdır.

Həmçinin, pedaqoji kadrların müasir tələblər səviyyəsində hazırlanmasını təmin etmək, mövcud maddi-texniki və kadr potensialından istifadənin səmərəliliyini artırmaq məqsədilə Azərbaycan Müəllimlər İnstitutunun Azərbaycan Dövlət Pedaqoji Universitetinə qoşulması ilə bağlı Azərbaycan Respublikasının Prezidenti tərəfindən Sərəncam imzalanmışdır.

Eyni zamanda, ümumi təhsil müəssisələrində çalışan müəllimlərin maddi rifahının yaxşılaşdırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən “Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin dərs yükünün və əməkhaqqının artırılması haqqında” Sərəncam imzalanmışdır. Sərəncama əsasən, diaqnostik qiymətləndirmədən keçən 30 min müəllimin həftəlik dərs yükü norması 1,5 dəfə, aylıq vəzifə maaşı isə 2 dəfə artırılmışdır.

Bundan əlavə, təhsilin keyfiyyətini yüksəltmək, şagirdlərə seçdikləri ixtisas istiqamətləri üzrə daha yaxşı hazırlaşmaq imkanı yaratmaq məqsədilə ölkənin pilot olaraq seçilmiş 58 məktəbində 10-cu siniflərdə 4 istiqamət üzrə 176 təmayül sinfi açılmışdır. Həmin məktəblərdə ixtisas seçimini etmiş şagirdlər qeyri-profilli fənlərin dərs saatlarının azalması hesabına seçdikləri istiqamət üzrə daha dərin biliklərə yiyələnəcəklər.

Təhsilin məzmununun müasirləşdirilməsi və onun keyfiyyətinin artırılması sahəsində yeni məktəblərin inşası ilə yanaşı təhsil müəssisələrinin informasiya-kommunikasiya üzrə maddi-texniki bazasının təkmilləşdirilməsi, kompüter avadanlığı və digər zəruri rəqəmsal avadanlıqla təminatının yaxşılaşdırılması da mühüm vəzifələrdən biri kimi qarşıya qoyulmuşdur.

Dövlət Statistika Komitəsinin 2015-ci ilin sentyabr-oktyabr aylarında ölkədə fəaliyyət göstərən dövlət əyani ibtidai, ümumi orta və tam orta ümumtəhsil məktəblərinin qış mövsümünə hazırlığı, onların maddi-texniki bazası və pedaqoji kadrlarla təminatına dair keçirdiyi növbəti statistik müayinənin nəticələrinə görə 2015/2016-cı tədris ilinin əvvəlinə 4431 dövlət əyani ümumtəhsil məktəbindən 4161-i və ya 93,9 faizi, o cümlədən şəhər yerlərində 1146-sı (99,1 faiz), kənd yerlərində isə 3015-i (92,1 faiz) kompüterlərlə təmin olunmuşdur. Tam orta məktəblərin 98,9 faizi, ümumi orta məktəblərin 93,5 faizi, ibtidai məktəblərin isə 46,6 faizi kompüterlərlə təchiz edilmişdir. Əvvəlki il keçirilmiş müvafiq müayinənin nəticələri ilə müqayisədə məktəblərdə kompüterlərin sayı 5,3 min ədəd və ya 9,2 faiz artaraq 63,3 minə çatmışdır. Beləliklə, 2015-ci ildə orta hesabla hər 21 şagirdə bir kompüter düşmüşdür. Eyni zamanda, 2015-ci il ərzində regionlarda 39 məktəb, 37 uşaq bağçası tikilmiş və ya əsaslı təmir olunmuşdur. Regional inkişaf prosesi çərçivəsində yeni məktəblərin tikintisi və onların informasiya texnologiyaları ilə təmin edilməsi, təhsil sahəsində həllini gözləyən problemlərin aradan qaldırılması nəticəsində ölkə üzrə şagirdlərin mütləq əksəriyyətinin təlim şəraiti yaxşılaşdırılmışdır.

## Səhiyyə müəssisələrinin tikintisi və yenidən qurulması

İqtisadiyyatın dinamik inkişafı səhiyyə sahəsinə də öz təsirini göstərməklə regionlarda əhaliyə

göstərilən tibbi xidmətin keyfiyyətinin yüksəlməsinə gətirib çıxartmışdır. Hesabat ilində də respublikanın bütün bölgələrində əhalinin sağlamlığının qorunması istiqamətində işlər məqsədyönlü şəkildə davam etdirilmiş, 2015-ci ildə regionlarda 55 səhiyyə müəssisəsi (yeni müalicə və diaqnostika mərkəzləri, xəstəxanalar, ambulatoriya-poliklinika müəssisələri) tikilmiş və əsaslı təmir olunmuş, əhalinin keyfiyyətli səhiyyə xidmətlərindən istifadəsinin təmin edilməsi üçün bütün tibb müəssisələri müasir və elmin ən son yeniliklərinə əsaslanan avadanlıqlarla təchiz edilmişdir. Regionlarda istifadəyə verilmiş yeni xəstəxanalar, səhiyyə infrastrukturunun yaradılması və mövcud tibb ocaqlarının yenidən qurulması bir daha sübut edir ki, vətəndaşların sağlamlığının təmin edilməsi Azərbaycan dövlətinin diqqət mərkəzindədir. Hesabat dövründə Ağsu, Gəncə, Mingəçevir, Göyçay və Ucar Rayon Mərkəzi Xəstəxanaları, Naxçıvan Muxtar Respublika Xəstəxanası və s. səhiyyə müəssisələri müasir standartlara uyğun şəkildə tikilmiş, əsaslı təmir olunmuş, Ağsu, Masallı, Biləsuvar, Qazax, Neftçala rayon mərkəzi xəstəxanalarının tikintisi və ya əsaslı təmiri davam etdirilmiş, eyni zamanda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Ağsu Rayon Mərkəzi Xəstəxanasının tikintisinin tamamlanmasına dair əlavə tədbirlər haqqında Sərəncam imzalanmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dərman vasitələri bazarının tənzimlənməsi barədə ölkə başçısının tapşırığına əsasən, bir sıra qabaqcıl ölkələrin təcrübəsi araşdırılaraq təkmilləşdirilmiş metodologiya hazırlanmış və dərman vasitələrinin 5050-nin, yəni dövlət qeydiyyatına alınmış dərman vasitələrinin təxminən 55 faizinin qiyməti təsdiq edilmişdir. Vətəndaşlar tərəfindən böyük razılıqla qarşılanan qiymət tənzimlənməsi nəticəsində ilin əvvəlindən etibarən manatın məzənnəsində baş verən dəyişikliklərə baxmayaraq, qiymətləri tənzimlənmiş dərman vasitələrinin satışda olan qiymətləri ilə müqayisədə 21 faizinin qiyməti 2 dəfədən çox, 9 faizinin qiyməti 3 dəfədən çox aşağı salınmış, ümumilikdə 60 faizinin qiymətləri endirilmişdir. Belə ki, manatın məzənnəsinin dəyişməsindən əvvəl dərman vasitələrinin qiymətləri kəskin şəkildə azaldıldığı üçün bu dərmanların qiymətləri manatın yeni məzənnəsinə uyğunlaşdırıldıqdan sonra belə, yenə də tənzimləmədən əvvəlki qiymətlərdən dəfələrlə aşağıdır.

Azərbaycan Respublikasında talassemiya xəstəliyinin profilaktikasının və müalicəsinin təkmilləşdirilməsi yolu ilə xəstələnmə, əlillik və ölüm hallarının azaldılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən “Talassemiya ilə mübarizəyə dair 2015-2020-ci illər üçün Dövlət Proqramı” təsdiq edilmişdir. Sözügedən Dövlət Proqramı talassemiyanın profilaktikası baxımından böyük əhəmiyyət daşıyır. Belə ki, 17 oktyabr 2014-cü il tarixli “Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən 2015-ci ilin iyun ayının 1-dən xəstəliklərlə mübarizə və gələcəkdə doğulacaq körpələrin sağlamlığı baxımından nikaha daxil olan hər kəs tibbi müayinədən keçməlidir.

Eyni zamanda, Azərbaycanda həyata keçirilən birgə və inteqrasiya olunmuş tədbirlər vasitəsilə əhalinin sağlamlığının yaxşılaşdırılmasına, o cümlədən qeyri-infeksion xəstəliklərlə bağlı vaxtından əvvəl ölüm hallarının mümkün qədər azaldılmasına nail olmaq məqsədilə Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2015-ci il tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün Strategiya” təsdiq edilmişdir.

## Mədəniyyət müəssisələrinin tikintisi və yenidən qurulması

Regionlarda mədəni irsin qorunması, daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası və mühafizəsi, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafı, mədəniyyət obyektlərinin əsaslı təmiri və tikintisi üzrə müvafiq tədbirlər 2015-ci ildə də davam etdirilmişdir. Eyni zamanda, şəhər və rayonlarda aparılan quruculuq işləri çərçivəsində park və xiyabanların salınması, mövcud olanların isə yenidən qurulması bölgələrin daha da gözəlləşməsi, regionların simasına yeni elementlərin əlavə olunması ilə müşayiət edilmişdir. Müasir tələblər səviyyəsində qurulan park və xiyabanlar, mədəniyyət müəssisələri

regionlarda yaşayan əhalinin asudə vaxtlarının keçirilməsi üçün mühüm rol oynamış, istismara verilmiş bütün obyektlərdə milli memarlıq üslubu ilə müasirlik tam uzlaşdırılaraq, maraqlı elementlər və formalardan istifadə edilmişdir.

Hesabat ilində mədəniyyət obyektlərinin təmiri-tikintisi istiqamətində işlər davam etdirilmiş, 33 mədəniyyət obyekti tikilmiş və ya əsaslı təmir edilmişdir. Bərdədə 1 nömrəli Uşaq İncəsənət Məktəbi, Göyçayda Uşaq Musiqi Məktəbi, Naxçıvanda şəhər 2 saylı uşaq musiqi məktəbi, Ucarda Tarix-Diyarşünaslıq Muzeyi, Cəlilabad və Zaqatalada Heydər Əliyev Mərkəzləri, Cəlilabad rayonunun Göytəpə şəhəri və Bərdədə Heydər Əliyev adına park-bulvar kompleksləri, Kürdəmirdə Bayraq Meydanı istifadəyə verilmiş, ölkə başçısı tərəfindən Gəncənin "İmamzadə" kompleksinin bərpasına dair Sərəncam imzalanmışdır.

## Gənclər və idman müəssisələrinin tikintisi və yenidən qurulması

Azərbaycanda olimpiya hərəkatında yeni mərhələnin başlanması ilə ölkəmiz dünyanın idman ailəsinə daxil olmuşdur. Bu sahənin sürətli inkişafının təmin edildiyi Azərbaycan artıq beynəlxalq əhəmiyyətli idman yarışlarının keçirilməsi üçün əlverişli məkana çevrilmişdir. Son illərin əsas xarakterik xüsusiyyəti ölkədə geniş maddi-texniki bazaya malik idman infrastrukturunun yaradılması, idmançıların sosial problemlərinin həllinə dair daha təsirli tədbirlərin görülməsidir. İlk növbədə, regionlar da daxil olmaqla bütün ölkə üzrə beynəlxalq standartlara malik yeni, müasir idman obyektlərinin tikintisi, idmanın kütləviliyinin təmin olunmasına və idmançılarımızın beynəlxalq yarışlarda yüksək nəticələr qazanmasına təkan vermişdir.

İdman sahəsində gerçəkləşdirilən dövlət siyasəti, olimpiya ideyalarının təbliği, olimpiya idman komplekslərinin tikilməsi ilə ölkədə yeni idmançı nəslinin yetişməsi, idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi və digər tədbirlər nəticəsində ölkəmiz mötəbər beynəlxalq idman yarışlarının keçirildiyi məkana çevrilmişdir. Ən əsası 2015-ci ilin dünyanın idman tarixində yeni bir səhifə açması-ölkəmizin birinci Avropa Oyunlarına ev sahibliyi etməsi uğurlarımızın zirvə nöqtəsi kimi dəyərləndirilmişdir. "Bakı-2015" birinci Avropa Oyunları bütün dünyanın diqqət mərkəzində olmuşdur. Belə bir mühüm tədbirə yüksək səviyyədə ev sahibliyi etməklə Azərbaycan bütün dünyaya bir daha sübut etmişdir ki, son illərdə iqtisadi inkişafı ilə diqqət mərkəzində olan ölkəmiz həm də idman sahəsində mühüm nailiyyətlər qazanmışdır. "Bakı-2015" ilk Avropa Oyunları təkcə qitədə deyil, dünya miqyasında mötəbər bir idman yarışı olmuşdur. Onilliklər ərzində ideya kimi qalan Avropa Oyunları tarixdə ilk dəfə təşkil olunmuş, 50 ölkədən 6 mindən çox atlet bir araya gətirilmiş və Oyunlar bütün beynəlxalq standartlara cavab verən yüksək təşkilatçılıq səviyyəsində keçirilmişdir.

Müstəqillik tariximizin qürurverici səhifələrindən birinə, ölkə üzrə ümummilli həmrəyliyin göstəricisinə çevrilən bu möhtəşəm idman bayramında gənc idmançılarımız doğma azarkeşlərə hədsiz qələbə sevincləri bəxş etdirmişdir. Belə ki, idmançılarımız komanda hesabında ikinci yerə çıxmış, 21-i qızıl olmaqla 56 medal qazanmışdılar.

2015-ci il ərzində də intellektual və yaradıcı gənclərin inkişafı üçün şəraitin yaradılması, regionda yaşayan gənclərin fəallığının artırılması məsələlərinə xüsusi diqqət ayrılmış, bölgələrdə 13 idman və gənclər obyekti, o cümlədən Sumqayıt, Ucar, Göyçayda Gənclər Evləri, Göyçay və Ağsuda Şahmat Məktəbləri, Ağsuda İdman Kompleksi istifadəyə verilmişdir. Bu cür gənclər və idman müəssisələrinin istifadəyə verilməsi idman sahələrinin inkişafı ilə yanaşı, regionlarda yaşayan gənclərin intellektual və yaradıcı potensialının üzə çıxarılmasına, gənclərin fəallığının artırılmasına səbəb olur.

## Turizm sahəsinin inkişafı

Son illərdə ölkəmizdə həyata keçirilən uğurlu siyasət nəticəsində turizmin inkişafı istiqamətində mühüm layihələrin icrası, otel biznesi Azərbaycanda qeyri-neft sektorunun aparıcı sahəsi kimi turizmi ölkə iqtisadiyyatının prioritet sahəsinə çevirmişdir. Yalnız ölkə paytaxtında deyil, regionlarda da otel biznesinin

dünya standartları səviyyəsində qurulması, qonaqların və turistlərin qəbulu üçün silsilə tədbirlərin reallaşdırılması bu sahənin inkişafına mühüm təkan vermişdir. Ölkəmizdə turizm komplekslərinin sayının çoxalması Azərbaycanın iqtisadi potensialını nümayiş etdirməklə yanaşı, həm də respublikamıza gələn turistlərin sayının artmasına zəmin yaratmaqdadır.

Turizm sahəsinə yerli və xarici investisiyaların cəlb edilməsi, xidmətlərin keyfiyyətinin daha da yaxşılaşdırılması, müasir standartlara cavab verən infrastrukturun yaradılması və eyni zamanda beynəlxalq səviyyəli idman və mədəni tədbirlərin, xüsusən də ilk Avropa Oyunlarının uğurla keçirilməsi ölkəmizin beynəlxalq arenada tanınmasına, turizmin inkişafına səbəb olmuşdur.

Turizmin davamlı inkişafı çərçivəsində müasir standartlara uyğun turizm xidməti infrastrukturunun yaradılması, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi istiqamətində işlər 2015-ci ildə də davam etdirilmiş, Dövlət Proqramı çərçivəsində respublikanın müxtəlif regionlarında ölkə başçısının iştirakı ilə bir sıra yeni turizm obyektlərinin, o cümlədən Qusarda “Park Chalet Shahdag” otelinin, “Şahdağ” qış-yay kompleksinin 1 nömrəli kanat yolunun və xizək enişinin, Şabranda “Qalaaltı Hotel & SPA” müalicə-istirahət kompleksinin və s. açılışı olmuşdur.

Həmçinin, Qusar rayonunda fəaliyyət göstərən Şahdağ Qış-Yay Turizm Kompleksinin tikilib istifadəyə verilmiş obyektlərinin idarə olunmasını təmin etmək məqsədilə “Şahdağ Turizm Mərkəzi” Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müvafiq Sərəncam imzalanmışdır.

"Bu gün Azərbaycan dünya miqyasında iqtisadi və sosial inkişafla bağlı seçilən ölkələrdəndir. İqtisadiyyat artır, sosial layihələr, infrastruktur layihələri icra edilir, bütün bölgələrdə, bütün şəhər və rayonlarımızda tikinti-quruculuq işləri aparılır".

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

## Azərbaycan Respublikası Prezidentinin regionlara səfərləri Dövlət Proqramının icrasına təkan verir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin əvvəlki illərdə olduğu kimi 2015-ci ildə də bölgələrə müntəzəm səfərləri, rayonlarda əhali ilə keçirilən görüşləri, bir sıra obyektlərin açılış və təməlqoyma mərasimlərində iştirakı, eləcə də yerlərdəki vəziyyətlə hərtərəfli tanış olması, regionların sosial-iqtisadi inkişafı ilə bağlı müəyyən edilmiş prioritetlər üzrə konkret tapşırıqlar və göstərişlər verməsi regional inkişaf üzrə III Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının sürətlənməsinə stimul vermiş, insanlar arasında böyük ruh yüksəkliyi yaratmışdır.

Dövlət başçısı regionların inkişafını 2015-ci il ərzində də diqqət mərkəzində saxlamış, Xızı, Qusar, Şabran, Siyəzən, Bərdə, Kürdəmir, Ucar, Göyçay, Astara, Lənkəran, Cəlilabad, Ağsu, Zaqatala və Babək rayonlarında, Sumqayıt, Şəki, Mingəçevir və Naxçıvan şəhərlərində bir sıra infrastruktur obyektlərinin açılış və təməlqoyma mərasimlərində iştirak etmiş, istehsal təyinatlı müəssisələrin fəaliyyəti ilə maraqlanmış, yerlərdə ictimaiyyətin nümayəndələri ilə görüşlər keçirmiş, onların problem və qayğıları ilə yaxından tanış olmuşdur.

Dövlət başçısının bölgələrə etdiyi səfərlər çərçivəsində 80-dən çox müxtəlif təyinatlı obyektlərlə tanışlığı, o cümlədən yeni müəssisələrin açılış və təməlqoyma mərasimlərində iştirakı, müxtəlif bölgələrdə yerli ictimaiyyətlə keçirdiyi mütəmadi görüşlər respublikamızın sosial-iqtisadi sahələrinin inkişafına böyük təkan vermişdir.

"Qeyri-neft sektorunun inkişafı, əlbəttə ki, iqtisadi inkişafımızın əsas hərəkətverici sahəsidir. Azərbaycanın gələcək iqtisadi inkişaf perspektivləri sənaye istehsalı və kənd təsərrüfatı istehsalı ilə bağlı olacaqdır".

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

2015-ci ildə də regionların tarazlı inkişafı siyasətinə uyğun olaraq mövcud potensialdan səmərəli istifadə məqsədilə müəssisələrin fəaliyyətinin bərpasına, yeni müəssisələrin yaradılmasına, eləcə də kənd təsərrüfatı infrastrukturunun formalaşması və mövcud emal müəssisələrinin istehsal imkanlarının artırılmasına xüsusi diqqət yetirilmişdir. İqtisadiyyatın şaxələndirilməsi, sahibkarlığın inkişafı, investisiya mühitinin daha da yaxşılaşdırılması nəticəsində ölkəmizdə qeyri-neft sektorunun dinamik inkişafı təmin edilmiş, müasir dünya standartlarına cavab verən və ixrac qabiliyyətli yeni istehsal və emal müəssisələrinin yaradılması daha da sürətlənmişdir. Bölgələrə mütəmadi səfərləri çərçivəsində ölkə başçısı iri istehsal və xidmət müəssisələrinin fəaliyyəti ilə tanış olmaqla yanaşı, özəl sektorun, xüsusilə sənaye və kənd təsərrüfatı sahələrinin inkişafına xidmət edən bir sıra yeni infrastruktur obyektlərinin açılış və təməlqoyma mərasimlərində də iştirak etmişdir.

**2015-ci il yanvar ayının 13-də** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Sumqayıt şəhərində "Alyans Tekstil" tikiş fabrikinin açılışında iştirak etmişdir. Tekstil fabriki 2 əsas istehsal və 4 köməkçi sahədən ibarətdir. Fabrik ildə 100 min dəst müxtəlif işçi geyimləri-gödəkçələr, kombinezonlar, kostyum və dəstlər istehsal etmək gücünə malikdir. Dövlətin maliyyə dəstəyi ilə fabrikin yeni tikilmiş istehsal binasında tamamlama işləri aparılıb və avtomatik parça sərim xətti, alt və üst transportlu iplik kəsməli tikiş maşınları, qurutma konveyerləri, loqotip və yazı vurulması üçün boya avadanlığı, naxış və universal tikiş maşınları quraşdırılıb. Toxunan parça texnologiyaya əsasən sərmə, qatlama və kəsmə proseslərindən sonra tikiş sahəsinə verilir. İstehsal olunan məhsulun üzərinə hörmə və ya boya ilə sifarişçinin istəyinə uyğun olaraq onun loqosu və adı vurulur. Müəssisədə ən müasir texnologiyanın tətbiqi beynəlxalq standartlara cavab verən yüksək keyfiyyətli tekstil məmulatları istehsalına və hazır məhsulun maya dəyərinin aşağı düşməsinə səbəb olur. Belə müasir kompleksin Sumqayıtda inşa olunması respublikamızda gedən uğurlu sənayeləşmə siyasətinin bir nümunəsidir. Layihələrin icrası nəticəsində fabrikdə 200 iş yeri yaradılıb. Müəssisədə işçilərin məhsuldar çalışmaları üçün hər cür şərait vardır.







**Həmin gün** ölkə başçısı Sumqayıt şəhərində beton məmulatı zavodunun da açılışında iştirak etmişdir. Respublikada ilk dəfə olaraq ən müasir avadanlıqla təchiz edilmiş və böyük istehsal gücünə malik beton məmulatı zavodu dünyanın ən aparıcı şirkətlərinin son texnologiyaları əsasında qurulub. Zavod 7 istehsal sahəsindən ibarət olmaqla avadanlığın sayına və həcminə görə Şərqi Avropada analoqu olmayan ən böyük müəssisədir. Dəzgahlar 8 saatlıq iş rejimində, diametrindən asılı olaraq 17-32 boru istehsal etmə gücünə malikdir. Bu da ayda 10-12 min metr beton boru istehsalı deməkdir. Boruların qəlibdən çıxarılması üçün 40 tona qədər yük qaldıra bilən 12 körpülü kran quraşdırılıb. Respublikada ilk dəfə bu zavodda termoyağlı boru istehsal xətləri tətbiq edilib.

İstehsal prosesi tam avtomatlaşdırılmış zavodda döşəmə daşları da istehsal olunur. İllik istehsal gücü 140 min metr müxtəlif diametrli beton boru və 500 min kvadratmetr beton döşəmə daşı olan zavodda müasir texnologiyanın tətbiqi enerji məsrəflərinin azalmasına səbəb olur. Bu isə öz növbəsində məhsulun maya dəyərinin daha aşağı olmasına imkan verir. Nəticədə istehlakçılara daha münasib qiymətlərlə onların tələbatına uyğun yüksək keyfiyyətli beton məmulatı təqdim edilməsi mümkündür. Müəssisədə ümumilikdə 200-dək yeni iş yeri yaradılıb. Zavodda istehsal olunan məhsulların istehlakçılara çatdırılması üçün xüsusi nəqliyyat vasitələri alınıb. Müəssisənin avtotexniki parkında yükünü özüboşaldan 10 avtomaşın, 10 betonqarışdıran, 2 avtoyükləyici və 4 müxtəlif tonnajlı avtokar vardır.







**2015-ci il aprel ayının 11-də** Azərbaycan Prezidenti cənab İlham Əliyev "Astaraçay" MMC-nin çay emalı fabrikində yaradılan şəraitlə tanış olmuşdur. Təsərrüfatın ümumi əkin sahəsi 640 hektardır. Çay plantasiyalarında müasir suvarma şəbəkəsi yaradılıb və təsərrüfatda 400 hektara yaxın çay sahəsi mövcuddur. Əkilən "Kolxida" çay toxumları Gürcüstanın Batumi şəhərinin Çayçılıq Elmi-tədqiqat İnstitutunun tədris-təcrübə sahəsindən toplanıb gətirilib. Toxumlar sınaqdan keçirilərək yerli şəraitə uyğunlaşdırılıb. Burada, həmçinin Koreya Respublikası şirkətinin layihəsi əsasında çay fabriki inşa edilib. Ərazisi 5 hektar olan fabrikdə xaricdən gətirilən ən müasir avadanlıq quraşdırılıb. Müəssisənin məhsuldarlığı gün ərzində 12 tondur. Gələcəkdə gündəlik çay istehsalını 24 tona çatdırmaq mümkündür. Çəkici-bükücü sex də müasirliyi ilə diqqəti çəkir. Burada çəkisi 100, 200 və 400 qram olan çay bükümləri hazırlanır. Müəssisədə dəqiqədə 8 ədəd çay bükümünün istehsalı mümkündür. Müəssisədə çay muzeyi, dequstasiya zalı və turistlər üçün çay evi də tikilib.










**2015-ci il aprel ayının 11-də** ölkə başçısı Lənkəran şəhərində yeni yaradılan "Gilan aqro-sitrus" təsərrüfatı ilə tanış olmuşdur. Yeni sitrus təsərrüfatının ümumi sahəsi 45 hektardır. Təsərrüfatın 15 hektar sahəsində "Gilan aqro" şirkəti tərəfindən Cənubi Koreyadan gətirilən 20 min ədəd "Shiranuhi" (Hallabong) və "Kanpei" (Red Hyaang) sitrus ağacları əkilib. Bu növlərin məhsuldarlığı hektarda orta hesabla 35-45 tona çatır ki, bu da yerli növlərdən 2-3 dəfə çoxdur. Yeni salınmış sitrus təsərrüfatında 140 nəfər daimi işlə təmin olunmuşdur. İstehsal olunmuş meyvələrdən təzə halda və qida, qənnadı, kosmetik, ətriyyat və digər sənaye sahələrində, həmçinin şirə istehsalında və şərabçılıqda istifadə edilməsi nəzərdə tutulmuşdur.





**2015-ci il avqust ayının 11-də** Azərbaycan Prezidenti cənab İlham Əliyev "Avanqard" MMC-nin Cəlilabad rayonundakı taxılçılıq təsərrüfatı ilə tanış olmuşdur. Təsərrüfat əsasən toxumçuluq istiqamətində fəaliyyət göstərir və yüksək reproduksiyalı buğda toxumuna olan tələbatın yerli istehsal hesabına ödənilməsində əhəmiyyətli rol oynayır. Ərazidə yeraltı qrunt sularının axıdılması məqsədilə 4860 metr uzunluğunda drenaj qazılıb, ABŞ-ın "Lindsay" şirkətinin istehsalı olan süni yağış yağdırma üsulu ilə müasir suvarma sistemləri quraşdırılıb. Təsərrüfatın fasiləsiz su ilə təminatını həyata keçirmək üçün 3 kilometr uzunluğunda mövcud kanal təmizlənib, tutumu 50 min kubmetr olan süni göl yaradılıb, 2,3 kilometr uzunluğunda yeni elektrik xətti çəkilib. "Aqrolizinq" ASC vasitəsilə Almaniyanın "Claas" şirkətinin istehsalı olan texnika və aqreqatlar gətirilib. Layihənin icrası nəticəsində 50-dək yeni iş yeri yaradılıb.








**2015-ci il oktyabr ayının 6-da** Prezident İlham Əliyev "Ucar Aqro" MMC-nin quşçuluq sənaye kompleksi ilə tanış olmuşdur. Rayonun Qazıqumlaq kəndi ərazisində hər biri 35 min baş quş tutumuna malik 25 ferma inşa edilib. Bununla yanaşı, Alpout kəndi ərazisində saatda 6 min baş quş kəsimi gücünə malik müasir quş əti emalı fabriki tikilib. Fabrikdə əsas istehsal prosesi 5 sahədə - kəsim, şoklama, soyutma, bölünmə və qablaşdırma sahələrində aparılır. Kəsim fabrikində elektron idarəetmə paneli olan konveyer xətləri, avtomatik qablaşdırma sistemləri, yuyucu və dezinfeksiyaedici qurğular və s. yardımçı avadanlıqlar quraşdırılıb. Fabrikin illik quş əti istehsalı gücü birnövbəli iş rejimində 9,5 min ton təşkil edir. Müəssisədə 65 çeşiddə istehsal olunan quş əti məhsulları "Mərcan" brendi ilə istehlakçılara təqdim edilir. Layihənin icrası nəticəsində 240-dan artıq yeni iş yeri açılmışdır.





**2015-ci il oktyabr ayının 6-da** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ucar rayonunda "Fermer" yol-istirahət mərkəzində yaradılan şəraitlə də tanış olmuşdur. Kompleks 3 hektar ərazidə salınıb. İki hissədən ibarət olan kompleksin birinci hissəsinə Bakı-Gəncə magistral yolunun kənarında yerləşən yarmarka tipli satış məntəqəsi daxildir. Ümumi sahəsi 1200 kvadratmetr olan yarmarka Ucar və ətraf rayonlardan olan vətəndaşların yetişdirdikləri kənd təsərrüfatı məhsullarını rahat, heç bir müdaxilə olmadan istehlakçılara əlverişli şərtlərlə çatdırmalarına geniş imkan yaradır. Layihə çərçivəsində 80-ə yaxın yeni iş yeri yaradılmışdır.





**2015-ci il oktyabr ayının 25-də** ölkə Prezidenti cənab İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkının ərazisində "Azertexnolayn" MMC-nin texniki avadanlıqlar zavodunun açılışında iştirak etmişdir. Kimya Sənaye Parkında şirkətin üç zavodu fəaliyyət göstərir. "Azertexnolayn"ın əsas istehsal sahələrindən biri polad borular zavodudur ki, burada təyinatı üzrə beynəlxalq standartlara cavab verən keyfiyyətli spiral tikişli polad borular istehsal olunur. Zavodda polad boru istehsalı üzrə üç xətt qurulub. Bu xətlərin hər birinin illik istehsal gücü 200 min tondur. Şirkətin digər bir müəssisəsi isə mexaniki məhsullar zavodudur. Bu zavodda əsasən polad armaturlu borular, metal hasar və plastik birləşdirici hissələr istehsal olunur. Zavodda metaltökmə və emal sahələri fəaliyyət göstərir. Metaltökmə sahəsində ən müasir standartlar səviyyəsində qurulan və saatda 10 ton metaləritmə gücünə malik olan iki soba, saatda 50 qəlib hazırlama gücünə malik avtomatik qəlibləmə sistemi və avtomatik qum hazırlama xətti var. Burada beynəlxalq təcrübəyə malik yerli mühəndislər tərəfindən dizayn olunmuş qaz və su siyirtmələri, dairəvi siyirtmə, yanğın hidrantı, təkkürəli və cütkürəli hava təxliyyə vantuzu, menhol sistemi, siyirtmə qovşağı, müxtəlif növ quyu qapaqları kimi məhsulların istehsalı həyata keçirilir. Zavodda ildə 6500 ton müxtəlif diametrli və yüksək təzyiqə davamlı hidrotexniki avadanlığın istehsal olunması və üçnövbəli iş rejimində 250 nəfərin işlə təmin olunması nəzərdə tutulmuşdur.









**Həmin gün** dövlət başçısı Sumqayıtda "SOCAR Polymer" layihəsi çərçivəsində Sumqayıt Kimya Sənaye Parkının ərazisində inşa ediləcək yüksək sıxlıqlı polietilen zavodunun təməlqoyma mərasimində iştirak etmişdir. "SOCAR Polymer" layihəsi son 40 ildə öz növünə və miqyasına görə Azərbaycanın neft-kimya sənayesində həyata keçirilən ilk layihədir. Şirkətin iki qurğusu hər il 180 min ton polipropilen və 120 min ton yüksək sıxlıqlı polietilen istehsal edəcək. Bu qurğular 2018-ci ildə istismara veriləcək. Layihənin əsas məqsədi idxalın əvəz olunması və ölkənin ixrac potensialının artırılmasıdır. İstehsal ediləcək məhsulların 30 faizi yerli bazara, 70 faizi isə Türkiyə və Avropa bazarlarına çıxarılacaqdır.





**2015-ci il oktyabr ayının 25-də** ölkə başçısı Sumqayıtda "Azərikimya" İstehsalat Birliyinin etilen-polietilen zavodunda yeni qurğuların işə salınması mərasimində də iştirak etmişdir. Zavodda istehsalata və keyfiyyətə nəzarət, sənaye-sanitar sahələrini özündə birləşdirən və müasir cihazlarla təchiz edilən yeni laboratoriya əsaslı təmir olunmuş, yeni azot-oksigen kompleksində innovasiyalı texnologiyaların tətbiqi sayəsində minimum enerji sərfiyyatına malik müasir avadanlıq quraşdırılmışdır. İllik layihə gücü 87600 ton olan qurğunun istismara verilməsi nəticəsində məqsədli məhsul olan propilenin digər məhsullara çevrilməsinin qarşısı alınır. Yeni qurğunun enerji sərfiyyatı köhnə qurğuya nisbətən daha aşağıdır. Zavodda gündəlik gücü 2600 kubmetr olan yeni istehsalat tullantı sularının təmizlənməsi qurğusunun inşa edilməsinin əsas məqsədi Xəzər dənizinə atılan suların maksimal təmizlik həddinin təmin edilməsi və təmizlənmiş suyun irriqasiya məqsədlərində istifadə olunmasıdır.





**2015-ci il dekabr ayının 1-də** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan Sənaye Kompleksinin açılışında iştirak etmişdir. Kompleksin ümumi sahəsi 9 hektardır və özündə 4 zavodu birləşdirir. Bunlar gips, gips lövhələr, əhəng və məsaməli beton istehsal edən zavodlardır. Məsaməli beton istehsal edən zavodda xammal kimi daş qumundan, əhəng, gips, sement və alüminium tozundan istifadə olunacaq. İnşaat sektorunda ən çox istifadə edilən bu tikinti materialları istənilən ölçüdə asanlıqla kəsilir, yüksək səviyyədə səs və istilik izolyasiyasına malikdir. Bundan əlavə, yüngül və zəlzələyə davamlı olan bu materiallar yanmaya qarşı beynəlxalq standartlara uyğundur. Müasir avadanlığın quraşdırıldığı zavodda il ərzində 150 min ton məsaməli beton istehsalı nəzərdə tutulmuşdur. Kompleksə daxil olan digər zavodlarda da yüksək şərait yaradılıb. Əhəng zavodunda hazırlanan məhsullardan inşaat sektorunda, kənd təsərrüfatında, kağız və şüşə istehsalında istifadə edilə bilər. Sahəsi 4500 kvadratmetr olan müəssisədə ildə 36 min ton əhəng istehsalı nəzərdə tutulur. Gips zavodunda istehsal olunan məhsullar məsaməli beton blokların, suvaq və üzləmə gipsinin, gips lövhələrin hazırlanmasında istifadə ediləcək. Zavodun illik istehsal gücü 40 min ton gipsdir. Gips lövhə zavodunda da yüksək şərait yaradılıb. Zavodda ildə 2 milyon kvadratmetr gips lövhələrin hazırlanması həyata keçirilir.







"Su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması və inkişaf etdirilməsi istiqamətində bir sıra mühüm layihələr həyata keçirilir, yeni su təchizatı və kanalizasiya obyektləri tikilib istismara verilir, digər zəruri tədbirlər yerinə yetirilir".

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Son illərdə respublikamızın yaşayış məntəqələrində su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması və inkişaf etdirilməsi istiqamətində bir sıra mühüm layihələr həyata keçirilir, yeni su təchizatı və kanalizasiya obyektləri tikilib istismara verilir, digər zəruri tədbirlər yerinə yetirilir. Görülən tədbirlər əhalinin içməli su ilə fasiləsiz təmin olunmasına müsbət təsir göstərməkdədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkənin bütün bölgələrində su və kanalizasiya təchizatı sahəsində 2015-ci il ərzində də həyata keçirilən kompleks tədbirlərin və yenidənqurma işlərinin icrasını diqqət mərkəzində saxlamışdır.

**2015-ci il sentyabr ayının 17-də** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ağsuya içməli suyun verilməsi mərasimində iştirak etmişdir. Ağsu şəhərinin içməli suya tələbatını təmin etmək üçün suyun Külüllü ərazisində Girdimançayın məcrası altından və Ağsuçayın yuxarı hissəsində mövcud olan quzey bulaqlarından götürülməsi nəzərdə tutulub. Külüllü ərazisində dəniz səviyyəsindən 175 metr yüksəklikdə yerləşən mövcud su qəbuledici qurğudan içməli suyun borularla qəbul edilərək Ağsu şəhərinə və rayonun 8 kəndinə ötürülməsi məqsədi ilə həmin ərazidə məhsuldarlığı 52,5 litr/saniyə olan nasos stansiyası və magistral boru kəməri, o cümlədən nasos stansiyasından təzyiq tənzimləyici anbarına qədər magistral təzyiqli boru kəməri tikilib. Bundan başqa, Ağsu rayonunun Padar, Gursulu, Kalağaylı, Yenilik, Pirhəsənli və Elabad kəndlərinin 5260 nəfər əhalisini içməli su ilə təmin etmək üçün magistral boru kəmərindən su çıxışı verilib. Layihə üzrə təzyiq tənzimləyici və paylayıcı anbarlar inşa olunub, daha bir su anbarı isə əsaslı təmirdən sonra müasir standartlara cavab verən yeni avadanlıqla təchiz edilib. Bundan əlavə, müxtəlif diametrli kanalizasiya xətləri, o cümlədən kollektor xətti çəkilib.




**2015-ci il oktyabr ayının 6-da** Prezident İlham Əliyev Ucar şəhərinin su təchizatı sisteminin yenidən qurulması layihəsinin başa çatdırılması münasibətilə təşkil olunan mərasimdə iştirak etmişdir. "Ucar şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi" 2035-ci ilə perspektiv inkişaf nəzərə alınmaqla rayon mərkəzində 22 min nəfərin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Layihə çərçivəsində 37 min nəfər əhalinin yaşadığı 15 kəndə də içməli suyun verilməsi nəzərdə tutulmuşdur. Ümumilikdə bu layihədən 59 min nəfər faydalanacaq.

Ucar şəhərini və ətraf kəndləri içməli su ilə təmin etmək üçün Ağsu rayonu ərazisində Girdimançayın yatağında yerləşən Külüllü su mənbəyi seçilib. Burada sugötürücü qurğu, mənbənin yaxınlığında Ucar şəhərini təmin etmək üçün hər birinin tutumu 3750 kubmetr olan 2 su anbarı tikilib. Anbarlardan Ucar şəhərinə 57 kilometr özüaxımlı magistral su kəməri çəkilib.





**Həmin gün** ölkə başçısı Göyçayda rayon mərkəzinə təmiz içməli suyun verilməsi mərasimində iştirak etmişdir. Layihə 2035-ci ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla Göyçay şəhərində 43 min nəfərin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Göyçay şəhərinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə iki subartezian quyusu qazılıb, artezian zonasında hər birinin tutumu 500 kubmetr olan iki anbar tikilib, 5,6 kilometr uzunluğunda magistral su xətti çəkilib. Hər bir abunəçi smart tipli sayğacla təmin olunub və şəhərin bütün əhalisi fasiləsiz içməli su ilə təmin edilmişdir. Kanalizasiya infrastrukturunun yenidən qurulması işləri çərçivəsində layihələndirilmiş 123 kilometr uzunluğunda şəhərin kanalizasiya şəbəkəsinin inşası da başa çatdırılıb.





**2015-ci ilin dekabr ayının 1-də** Prezident İlham Əliyev Naxçıvan şəhərdaxili su şəbəkəsinin istifadəyə verilməsi mərasimində iştirak etmişdir. Görülmüş işlər çərçivəsində 225 kilometr uzunluğunda şəhərdaxili su şəbəkəsi tikilib, 21207 ev birləşməsində sayğaclaşma işləri görülüb. Şəbəkə üzərində 905 yanğın hidrantı quraşdırılıb. Bununla da Naxçıvan şəhər əhalisinin içməli suya tələbatı 100 faiz təmin olunub. Layihənin mühüm tərkib hissəsi olan şəhərin kanalizasiya şəbəkəsinin yenidən qurulması işləri də uğurla icra olunub. Həm su, həm də kanalizasiya şəbəkəsinin qurulması zamanı bütün köhnə xətlər yeniləri ilə əvəz olunub və yüksək keyfiyyətli borulardan istifadə edilib.



"Son illər əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi, habelə əhalinin içməli suya tələbatının ödənilməsi sahəsində irimiqyaslı layihələr həyata keçirilməkdədir. Artıq onların böyük hissəsi başa çatıb. Şəmkirçay, Taxtakörpü su anbarları tikilib istifadəyə verilib. Bu, böyük tarixi nailiyyətimizdir".

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Ölkədə kənd təsərrüfatının infrastruktur təminatının, o cümlədən torpaqların suvarma və meliorasiya təminatının yaxşılaşdırılması istiqamətində son illər ərzində məqsədyönlü tədbirlər həyata keçirilmişdir ki, bu da aqrar sahənin inkişafında əhəmiyyətli rol oynayır.

**2015-ci il sentyabr ayının 4-də** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Xızı və Siyəzən rayonlarında yeni inşa olunan Taxtakörpü-Ceyranbatan kanalından suvarma suyunun verilməsi mərasimlərində iştirak etmişdir. Şabran, Siyəzən və Xızı rayonlarında mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılması və yeni suvarılan torpaqların istifadəyə verilməsi layihəsinə daxil olan Xızı rayonu üzrə hazırlanan layihədə cəmi 12 min 579 hektar sahənin 9 min 609 hektarında meliorativ tədbirlər aparılmaqla yeni suvarılacaq torpaqların istifadəyə verilməsi və 2 min 970 hektarında mövcud əkin sahələrinin su təminatının yaxşılaşdırılması nəzərdə tutulur.

Şabran, Siyəzən və Xızı rayonları üzrə yeni suvarılacaq torpaq sahələrinə dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqlar daxildir. Su yeni inşa olunan Taxtakörpü-Ceyranbatan və Samur-Abşeron kanallarından götürüləcək. Xızıda yeni istifadəyə veriləcək torpaq sahəsinin 170 hektarında ən son texnologiyalara əsaslanan yağış üsulu ilə suvarma sistemi quraşdırılıb ki, bu sistem respublikada təbii təzyiq hesabına çiləmə aparan yeganə sistemdir. Bu mərhələdə Siyəzəndə isə 42 hektar mövcud suvarılan torpaqların su təminatı yaxşılaşdırılıb. Yeni suvarılacaq torpaqlarda kollektor-drenaj şəbəkəsinin tikintisi də nəzərdə tutulub. Hər üç rayonun "Samur-Abşeron suvarma sisteminin yenidənqurulması" layihəsindən bəhrələnməsi məqsədilə bu rayonlarda meliorativ tədbirləri paralel aparmaqla tədricən 2-3 il ərzində layihənin tam başa çatdırılması nəticəsində iri kənd təsərrüfatı müəssisələrinin yaradılması, eləcə də fermer təsərrüfatlarının su təminatının yaxşılaşdırılması mümkün olacaq.





"Energetika sektorunda Azərbaycan nəinki regionda, artıq Avropa qitəsində enerji təhlükəsizliyi ilə bağlı öz dəyərli töhfəsini verməkdədir. Bizim rolumuz artır. Rolumuz artdıqca əlbəttə ki, ölkəmizin imkanları da, beynəlxalq nüfuzu da, təsir imkanlarımız da genişlənir".

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Ölkənin yanacaq-enerji kompleksinin qarşısında duran əsas vəzifə iqtisadiyyatın və əhalinin enerji resurslarına olan tələbatının daha dolğun ödənilməsini təmin etməkdən ibarətdir. Dövlət Proqramına uyğun olaraq regionlarda bu sahədə həyata keçirilən layihələr energetika sisteminin daha da möhkəmlənməsinə və yerli əhalinin keyfiyyətli enerji təminatına xidmət edir.

**2015-ci il oktyabr ayının 6-da** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Göyçay" Su Elektrik Stansiyasının açılışında iştirak etmişdir. Gücü 3,1 meqavat olan "Göyçay" kiçik su elektrik stansiyası Şirvan kanalının Göyçay rayonunun Bığır kəndi ərazisindən keçən hissəsində tikilib və ildə 20 milyon kilovat-saat elektrik enerjisi istehsal etməyə imkan verir. Bu Göyçay rayonunun tələbatının 25 faizini təşkil edir. Burada turbin zalı və su nəqledici kanal yaradılıb, 10 kilovoltluq yarımstansiya və elektrikverici xətlər çəkilib.







**2015-ci ilin dekabr ayının 1-də** Prezident İlham Əliyev Naxçıvan Günəş Elektrik Stansiyasının açılışında iştirak etmişdir. Stansiyada 78 min 684 ədəd ən müasir "şüşə-şüşə" tipli günəş panelləri, onlar üçün dayaqlar və 11 elektrik yarımstansiyası quraşdırılıb. Panellərlə transformator yarımstansiyaları, transformator yarımstansiyaları ilə birləşdirici məntəqə arasında kabel və yüksək gərginlikli elektrik ötürücü, həmçinin yaxınlıqdakı "Xal-xal" yarımstansiyasına qədər 35 kilovoltluq kabel xətləri çəkilib. Naxçıvan Günəş Elektrik Stansiyasında il ərzində 30 milyon kilovat-saatdan çox elektrik enerjisi istehsal olunacaq. Bu iri layihə alternativ enerji mənbəyi kimi gələcəkdə Naxçıvanın enerji təminatının tamamilə yerli ehtiyatlar hesabına ödənilməsində mühüm rol oynayacaq.





"Ölkə iqtisadiyyatı üçün çox böyük əhəmiyyət kəsb edən nəqliyyat sektorudur. Çünki bizim coğrafi vəziyyətimiz diktə edir ki, burada – həm ölkə daxilində müasir nəqliyyat infrastrukturu yaradılmalı, həm də tranzit imkanlarımız genişlənməli, bizə daha da böyük həcmdə siyasi və iqtisadi dividentlər gətirməlidir".

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Ölkənin iqtisadi inkişafının təmin olunmasında, əhalinin həyat səviyyəsinin yüksəldilməsində nəqliyyat və yol kompleksinin inkişaf etdirilməsinin başlıca amillərdən biri olduğunu nəzərə almaqla avtomobil yollarının, kommunikasiya xətlərinin inşası, yenidən qurulması və inkişafı layihələrinin həyata keçirilməsi ölkə başçısının daim diqqət mərkəzindədir. Həyata keçirilən infrastruktur layihələri Azərbaycanın hər bir bölgəsini, rayonunu və kəndini əhatə edir, həmçinin regionlarda yol-nəqliyyat infrastrukturunun daha da müasirləşdirilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Kəndarası yolların inşası sosialyönümlü tədbirlər olmaqla yanaşı, eyni zamanda ölkəmizin iqtisadi qüdrətinin nümayişi baxımından mühüm əhəmiyyət daşıyır.

**2015-ci il mart ayının 12-də** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Bərdədə Mollaisalar-Vəliuşağı-Mollaəhmədli-Sərkarlar avtomobil yolunun açılışında iştirak etmişdir. 10 mindən çox əhalinin yaşadığı 11 kəndi birləşdirən 15,5 kilometr uzunluğunda Mollaisalar-Vəliuşağı-Mollaəhmədli-Sərkarlar avtomobil yolunun eni çiyin hissələri ilə birlikdə 10 metrdir. Bu yolun istifadəyə verilməsi ilə Alpoud və Nazırlı kəndləri arasında gediş-gəliş məsafəsi 3 dəfə azalıb.



**2015-ci il aprel ayının 11-də** ölkə başçısı Lənkəranda Liman-Nərimanabad-Balıqçılar avtomobil yolu ilə tanış olmuş, Astarada Deqədi-Pəlikəş avtomobil yolunun açılışında iştirak etmişdir. Liman-Nərimanabad-Balıqçılar avtomobil yolunun inşası zamanı ən müasir texnoloji üsullardan istifadə edilib, işin keyfiyyətlə və qısa müddətdə görülməsinə xüsusi diqqət yetirilib. 10 min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən avtomobil yolunun ümumi uzunluğu 18,8 kilometr, eni 6 metrdir. Uzunluğu 21 kilometr olan Deqədi-Pəlikəş avtomobil yolundan 21 yaşayış məntəqəsinin 12 min nəfər əhalisi istifadə edir.





**2015-ci il avqust ayının 8-də** Azərbaycan Prezidenti cənab İlham Əliyev Siyəzən-Məşrif avtomobil yolunun açılışında iştirak etmişdir. Eni 5, bəzi yerlərdə isə 7 metr olan 3-cü və 4-cü dərəcəli yola 10-11 santimetr qalınlığında asfalt döşənib. Yol üzərindəki mühəndis-texniki qurğular müasir səviyyədə qurulub. Rayonun 20 yaşayış məntəqəsini birləşdirən və 37,1 kilometr uzunluğunda olan bu rahat və abad yoldan ümumilikdə 4700-dək sakinin istifadə etməsi nəzərdə tutulmuşdur.





**2015-ci il avqust ayının 11-də** Prezident İlham Əliyev Cəlilabad rayonunda Alar-Təzəkənd-Üçtəpə-Əliqasımlı-Cəfərxanlı avtomobil yolunun açılışında iştirak etmişdir. Yolun inşası yüksək səviyyədə və keyfiyyətlə aparılıb və istifadəyə verilməsi sakinlərin rahat və təhlükəsiz hərəkətini təmin etməklə yanaşı, həmin kəndlərin inkişafında mühüm rol oynayacaqdır. Avtomobil yolunun ümumi uzunluğu 21 kilometr, eni 8 metrdir. 6 yaşayış məntəqəsini - Alar, Təzəkənd, Üçtəpə, Əliqasımlı, Cəfərxanlı və Gülməmmədli kəndlərini əhatə edən yol ümumilikdə 23 mindən çox əhaliyə xidmət göstərəcəkdir.





**2015-ci il sentyabr ayının 17-də** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Kürdəmirdə Mollakənd-Axtaçı-Öyləqulu avtomobil yolunun və Ağsu-Kürdəmir-İmişli avtomobil yolunun Ağsu-Kürdəmir hissəsinin açılışlarında iştirak etmişdir. 12 min nəfər əhalinin yaşadığı 13 yaşayış məntəqəsini birləşdirən Mollakənd-Axtaçı-Öyləqulu avtomobil yolunun ümumi uzunluğu 28 kilometr, eni 8-10 metrdir. Yolda lazım olan bütün infrastruktur quraşdırılıb. Ağsu və Kürdəmir rayonları arasında yerləşən, 14 kənddən keçən avtomobil yolu isə 25 min nəfər əhalinin sosial–iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına xidmət edəcəkdir. Yol çəkilərkən Yuxarı Şirvan kanalı üzərində uzunluğu 21 metr olan körpü tikilib, Nazirçay və Girdimançay üzərindəki körpülər əsaslı təmir olunub. Çoxlu sayda suötürücü qurğu inşa edilib. Nəqliyyatın təhlükəsiz hərəkəti üçün lazım olan bütün yol nişanları və göstəriciləri quraşdırılıb. Yolun üstündəki bütün yaşayış məntəqələrində müasir tipli dayanacaq tikilib. İnşaat zamanı geniş ərazidə kommunikasiya xətlərinin yerləri dəyişdirilib.









**2015-ci il oktyabr ayının 6-da** dövlət başçısı Göyçay-Ucar avtomobil yolunun açılışında iştirak etmişdir. 3-cü texniki dərəcəli bu yolun uzunluğu 20 kilometrə yaxındır. Eni 12 metr olan yolda iki hərəkət zolağı var. Yol üzərində müxtəlif qovşaqlar, həmçinin bir dəmiryol körpüsü yerləşir. Bu yol Göyçay-Ucar istiqamətində avtomobillərin rahat hərəkətini təmin etməklə yanaşı, bölgədə gedən iqtisadi inkişaf proseslərinə də öz təsirini göstərəcəkdir.



**2015-ci il noyabr ayının 4-də** Prezident İlham Əliyev Zaqatala-Danaçı-Aşağı Çardaxlar avtomobil yolunun əsaslı yenidənqurmadan sonra açılışında iştirak etmiş, Yevlax-Balakən magistral yolu üzərində yerləşən, Yuxarı və Aşağı Tala kəndlərinin, həmçinin Zaqatala şəhərinin ərazisindən keçən hissəsinin genişləndirilməsi və abadlaşdırılması işləri ilə tanış olmuşdur. Zaqatala-Danaçı-Aşağı Çardaxlar avtomobil yolunun əhəmiyyətini artıran əsas amil onun 12 yaşayış məntəqəsini birləşdirməsidir. Bu isə 15,6 min insanın rahatlığını təmin edəcəkdir.







**Həmin gün** ölkə başçısı Şəki-Qax-Zaqatala avtomobil yolunun Şəki-Qax hissəsinin yenidənqurmadan sonra açılışında da iştirak etmişdir. Şəki-Qax avtomobil yolu Böyük Qafqaz sıra dağlarının cənub ətəyində

yerləşir və respublikanın ən böyük turizm marşrutlarından olan yolun bir hissəsidir. Uzunluğu 35 kilometr olan yolun 26 kilometri Şəki rayonunun, 9 kilometri isə Qax rayonunun ərazisinə düşür. Bu avtomobil yolu Şəki və Qax şəhərləri arasında nəqliyyat əlaqəsinin yaxşılaşmasına, hazırda istifadə olunan 77 kilometrlik məsafənin 42 kilometr qısalmasına imkan verir. Yolun əsas üstünlüyü isə onun 39 min nəfər əhalinin yaşadığı 22 yaşayış məntəqəsini əhatə etməsidir. Bu yolun istismara verilməsi Bakıdan və digər bölgələrdən Zaqatala, Balakən rayonlarına, həmçinin qonşu Gürcüstana və əks istiqamətdə nəqliyyat vasitələrinin Qax şəhərinə daxil olmadan hərəkətinə imkan yaradacaq, Qax şəhərinin ekoloji təmizliyinə müsbət təsir göstərəcək.





**2015-ci il dekabr ayının 1-də** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev yenidən qurulmuş Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun açılışında iştirak etmişdir. Babək rayonunun bir sıra yaşayış məntəqələrini birləşdirən, uzunluğu 16 kilometrə yaxın, eni 7,5 metr olan yol bir il müddətində tamamilə yenidən qurulub. Ən başlıcası isə bu rahat yoldan həmin ərazidə yaşayan 32 min nəfər sakin istifadə edəcək. Bu magistral təkcə Naxçıvan şəhəri və Babək rayonu üçün deyil, ümumilikdə, muxtar respublika üçün mühüm iqtisadi əhəmiyyətə malikdir.





**Həmin gün** Prezident İlham Əliyev Naxçıvan Beynəlxalq Hava Limanının “Şərq Terminalı”nın yenidənqurmadan sonrakı vəziyyəti ilə də tanış olmuşdur. Yenidənqurma işləri aparılarkən burada uzunluğu 20 metr olan 2 keçid körpüsü, minik və enişlərin təmin olunması üçün 2 teleskopik trap quraşdırılıb. Ümumiyyətlə sərnişinlərin rahatlığı üçün terminalda bütün zəruri tədbirlər görülüb. Hərəkət məhdudiyyəti olan sərnişinlər üçün 2 lift avadanlığı quraşdırılıb. Uzunluğu 41 metr olan baqaj konveyeri və eskalatorlar istifadəyə verilib. Bütün bu yeniliklər hava limanının sərnişin dövriyyəsini 2 dəfədən çox artıraraq saatda 150-200 nəfərdən 400-450 nəfərə çatdırılmasına imkan verəcəkdir.







"Bölgələrdə də beşulduzlu otellər tikilir. Gələcəkdə Azərbaycana turistlərin gəlişi nəticəsində ölkəmiz dünyanın turizm xəritəsində də öz yerini tapacaqdır. Mən çox istəyirəm ki, Azərbaycan bölgənin və dünyanın turizm mərkəzlərindən birinə çevrilsin. Buna imkanlar vardır".

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Son illər ölkəmizdə turizm sektorunun inkişafı ilə bağlı çox mühüm tədbirlər həyata keçirilir. Dövlət başçısı tərəfindən turizmin inkişafının da qeyri-neft sektorunun əsas sahələrindən biri elan edilməsi və bu istiqamətdə atılan addımlar artıq öz bəhrəsini verməkdədir. Məhz, genişmiqyaslı tədbirlərin həyata keçirilməsinin nəticəsidir ki, son bir neçə ildə ölkəmizdə paytaxtla yanaşı, regionlarda da müasir turizm və istirahət obyektləri, mehmanxana kompleksləri, habelə dünyanın ən məşhur otel brendlərinin də təmsil olunduğu beşulduzlu otellər istifadəyə verilmişdir.

**2015-ci il yanvar ayının 29-da** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Qusar rayonunda "Park Chalet Shahdag" otelinin, həmçinin kompleksin 1 nömrəli kanat yolunun və xizək enişinin açılışlarında iştirak etmişdir. "Şahdağ" qış-yay turizm kompleksi dünyadakı bu tipli komplekslərdən nadirliyi və universallığı ilə fərqlənir. Dəniz səviyyəsindən 1300-2300 metr yüksəklikdə yerləşən turizm kompleksinin ərazisi 2058 hektardır. "Park Chalet Shahdag" oteli Bakıdan 210 kilometr şimal qərbdə yeganə alp üslublu dəbdəbəli məkandır. Əzəmətli dağlarla əhatə olunan otelin 164 eleqant qonaq otağı var. Oteldə müxtəlif kateqoriyadan olan nömrələr ən müasir tələblər səviyyəsindədir və yüksək dizaynı ilə seçilir. Oteldə müasir restoranlar şəbəkəsi də fəaliyyət göstərir. Kompleksin ərazisində otellərə, bu otellərin avtomobil dayanacaqlarına, xizək yollarına, kanatlara və digər yerlərə rahat gedib-gəlmək üçün yeraltı tunellər də tikilib.



Kanat yollarının çəkilişi qış turizm kompleksinin əsas infrastrukturlarından sayılır və bu işi böyük təcrübəsi olan Avstriya şirkəti həyata keçirir. Qonaqların burada bənzərsiz təbiət gözəlliyinin mərkəzində, dağ havasının təravətində müxtəlif əyləncə növlərinin əhatəsində olmaq şansı var. Burada xizəklə sürüşmək üçün 19-dan çox yamacın yaradılması planlaşdırılıb.





**2015-ci il fevral ayının 24-də** Prezident İlham Əliyev Mingəçevirdə Kür çayının sağ sahilində inşa olunan "Ağsaray" otelində aparılan tikinti işlərinin gedişi ilə tanış olmuşdur. 2,5 hektar sahəsi olan otel ən müasir səviyyədə inşa edilir. Otel kompleksi 5 korpusdan ibarətdir. Ümumilikdə oteldə 55 otaq olacaq. Burada restoran, kafe-bar, əyləncə mərkəzi, konfrans zalı yaradılacaqdır. Yeni otelin istifadəyə verilməsi həm də iş yerlərinin açılması baxımından əhəmiyyətlidir. Belə ki, kompleks istifadəyə veriləndən sonra burada 40 nəfər işlə təmin ediləcək.







**2015-ci il avqust ayının 8-də** ölkə başçısı Şabran rayonunda "Qalaaltı Hotel & SPA" müasir müalicə-istirahət kompleksinin açılışında iştirak etmişdir. "Qalaaltı Hotel & SPA" müasir müalicə-istirahət kompleksinin inşası regionun turizm imkanlarının artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Kompleks Azərbaycanın qədim tarixi-mədəniyyət abidələrindən olan Çıraqqalanın yaxınlığında, sıldırım qayanın altında yerləşir. Dəniz səviyyəsindən 700 metr yüksəklikdə yerləşən yeni kompleks məşhur "Qalaaltı" kurortunun bazasında inşa edilib. Təxminən 7,1 hektar sahəsi olan kompleksdə 354 nəfəri qəbul edə biləcək otel, villa və kotteclər var. "Qalaaltı" kompleksində yerləşən tibbi mərkəz də müasir avadanlıqla təchiz edilib. Müasir laboratoriya, rentgen və ultrasəs müayinələri üçün lazımi şərait yaradılan mərkəzdə fizioterapiya, elektroterapiya, maqnitoterapiya, hidroterapiya, hidrokolonterapiya otaqları var.

"Qalaaltı Hotel & SPA" kompleksinin mühüm özəlliklərindən biri də burada müalicəvi xidmətlərin təklif edilməsidir. Kompleksdə qonaqlara Qalaaltı kəndi ərazisindən çıxan məşhur müalicəvi təbii sular əsasında müayinə məqsədli tibbi xidmətlər təqdim olunur. Qonaqlar müalicəvi su içmə zalında lazımi qədər və zəruri temperaturda su əldə edə bilərlər. Bu müasir texnoloji yenilik Azərbaycan tarixində ilk dəfə olaraq məhz burada tətbiq edilir.







**2015-ci il noyabr ayının 4-də** ölkə Prezidenti cənab İlham Əliyev Şəkidə “Marxal” müalicə-istirahət kompleksində tikinti işlərinin gedişi ilə tanış olmuşdur. Ərazisi 30 hektar olan kompleksdə 412 yerdən ibarət 178 otaqlı yeddimərtəbəli mehmanxana binası inşa olunur. Burada 126 birotaqlı, 52 ikiotaqlı nömrələr olacaq. Kompleksin ərazisində uşaqlar üçün su attraksionları və böyük hovuz qurulacaq. Kompleks istifadəyə veriləndən sonra burada 310 nəfərin işlə təmin olunması nəzərdə tutulmuşdur.





"Azərbaycanda səhiyyə ilə bağlı kompleks tədbirlər görülür. İlk növbədə səhiyyə infrastrukturu yaradılır. Bu sahədə görülən işlər əlbəttə ki, səhiyyə sisteminin təkmilləşməsinə gətirib çıxarıbdır. Biz elə etməliyik ki, Azərbaycanın hər bir yerində insanlar keyfiyyətli tibbi xidmət ala bilsinlər".

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Səhiyyə sahəsində dövlət siyasətinin başlıca məqsədi əhalinin sağlamlığının yaxşılaşdırılmasından, orta ömür müddətinin uzadılmasından, əhalinin bütün təbəqələrinin keyfiyyətli tibbi xidmətlə təmin edilməsindən ibarətdir. Bu məqsəd Dövlət Proqramının icrası dövründə dövlətin səhiyyə sahəsində həyata keçirdiyi tədbirlərdə əsas istiqamətlərdən biridir. Rayonlarda yeni səhiyyə müəssisələrinin inşası əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin yüksəldilməsinə və daha da yaxşılaşdırılmasına təkan vermişdir.

**2015-ci il fevral ayının 24-də** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Mingəçevir Şəhər Mərkəzi Xəstəxanasında aparılan yenidənqurma işləri ilə tanış olmuşdur. Bu tibb müəssisəsi möhtəşəmliyi ilə yanaşı, xidmətin müxtəlifliyi ilə də fərqlənir. Xəstəxana kompleksi 3 əsas korpusdan ibarətdir. Burada doğum şöbəsi, cərrahiyyə və terapiya bölmələri fəaliyyət göstərir. 430 çarpayılıq xəstəxana mərkəzləşmiş havalandırma sistemi, ən müasir tibbi avadanlıq ilə təmin olunubdur. Palatalarda xəstələrin rahatlığı üçün hər cür şərait yaradılıb. Burada tibb işçiləri tərəfindən şəhər əhalisinə, qaçqın və məcburi köçkün ailələrinə, ətraf rayonların sakinlərinə tibbi xidmətin göstərilməsi nəzərdə tutulmuşdur.









**2015-ci il oktyabr ayının 6-da** Prezident İlham Əliyev Ucar Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirak etmiş, Göyçay Rayon Mərkəzi Xəstəxanasında əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olmuşdur. Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilən Ucar Rayon Mərkəzi xəstəxanası 118 çarpayılıqdır. Burada 340 tibb işçisi çalışacaq. Tibb ocağında cərrahiyyə, terapiya, pediatriya, ginekologiya, reanimatologiya, diaqnostika, fizioterapiya, qəbul şöbələri, konsultativ poliklinika, perinetal mərkəz, laboratoriya, təcili tibbi yardım stansiyası tibbin ən son nailiyyətləri olan avadanlıq və cihazlarla təmin olunub. 170 yerlik Göyçay Rayon Mərkəzi Xəstəxanası ən müasir tibbi avadanlıq və ləvazimatlarla təmin olunub. Xəstəxananın müasir reanimasiya və kardioloji avadanlığı, həmçinin əməliyyatxana üçün səyyar rentgen aparatı vətəndaşlara yüksək səviyyədə tibbi xidmət göstərməyə imkan verir.












**2015-ci il dekabr ayının 1-də** ölkə başçısı Naxçıvan Muxtar Respublika Xəstəxanasının açılışında iştirak etmişdir. 8 mərtəbəli binada tibbin ən son yenilikləri tətbiq olunur. Əsaslı təmir və yenidənqurma işlərindən sonra 300 çarpayılıq olan xəstəxanada 14 stasionar şöbə fəaliyyət göstərir. Buraya travmatologiya, təcili və təxirəsalınmaz tibbi yardım, ümumi terapiya, nevrologiya, hematologiya, göz xəstəlikləri, burun-qulaq-boğaz, endokrin xəstəliklər, urologiya, cərrahiyyə, neyrocərrahiyyə, reanimasiya və reabilitasiya şöbələri daxildir. Xəstəxanada pulmonologiya, qastroenterologiya, hemodializ kimi 3 stasionar bölmə, həmçinin qəbul, radiologiya, laboratoriya, Konsultativ Diaqnostik Poliklinika, Mərkəzi Qan Bankı, Dərman Vasitələrinin Mərkəzləşmiş Analitik Ekspertiza Laboratoriyası şöbələri fəaliyyət göstərir. Fizioterapiya, hidroterapiya, Naftalan nefti ilə müalicə, əməliyyat bölmələri və çoxsaylı yardımçı kabinələr də xəstələrin ixtiyarına verilmişdir.







"Demək olar ki, təhsilin maddi-texniki bazası böyük dərəcədə möhkəmlənib. Təhsilin keyfiyyəti də artır və daha da artmalıdır. Çünki təhsilin səviyyəsi hər bir ölkənin ümumi səviyyəsini şərtləndirir. O ölkələr sürətlə inkişaf edir ki, orada insanlar biliklidir, savadlıdır".

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Dövlət başçısı tərəfindən təhsilə göstərilən diqqət və qayğının nəticəsi olaraq, yeni məktəblərin və tədris ocaqlarının tikintisi, təhsil infrastrukturunun müasir tələblərə uyğun qurulması, təhsilin məzmununun yeniləşdirilməsi, yeni dərslik siyasətinin reallaşdırılması, əmək bazarının tələbatına uyğun kadr hazırlığı və təminatının yaxşılaşdırılması, təhsil müəssisələrinin informasiya-kommunikasiya texnologiyaları ilə təmin edilməsi və təhsil sisteminin informasiyalaşdırılması, məktəbəqədər, texniki peşə, ali təhsil, xaricdə təhsil, istedadlı uşaqların inkişafı, xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinin təşkili və digər bu kimi sahələrdə mühüm irəliləyişlər və uğurlar əldə edilmişdir.

Ölkəmizin gələcəyinin uşaqlardan və gənclərdən asılı olduğunu bildirən dövlət başçısı tərəfindən son illərdə məktəbəqədər təhsilin inkişafına da xüsusi diqqət və qayğı göstərilir. Belə ki, regional inkişaf üzrə dövlət proqramları çərçivəsində respublikanın şəhər və rayonlarında ümumtəhsil məktəbləri ilə yanaşı məktəbəqədər təhsil müəssisələrinin də inşası, bərpa-gücləndirmə və əsaslı təmiri işləri aparılmış, ölkə başçısının müvafiq tapşırığına əsasən 2015-ci il ərzində daha geniş vüsət almışdır. Xüsusilə Heydər Əliyev Fondunun "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramı çərçivəsində bu istiqamətdə görülən işləri öz müstəsna əhəmiyyəti ilə seçilir.

**2015-ci il fevral ayının 24-də** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Mingəçevirdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan uşaq bağçasının açılışında iştirak etmişdir. 120 yerlik uşaq bağçasında məşğələ, oyun, tibb otaqları var. Təhsil ocağındakı bütün otaqlar lazımi avadanlıqla təchiz edilmişdir. Burada balacaların ilk yaşlarından intellektual, fiziki və əqli inkişafı, onların istedad və qabiliyyətlərinin üzə çıxarılması, sağlamlıqlarının qorunması, insanlarla ünsiyyətin qurulması diqqət mərkəzində saxlanılacaqdır.







**2015-ci il aprel ayının 11-də** ölkə başçısı Lənkəranda yeni inşa olunan uşaq bağçasının açılışında iştirak etmişdir. Tikinti işləri yüksək keyfiyyətlə həyata keçirilmiş, ərazisi 0,7 hektar olan bağça 3 binadan ibarətdir. Burada uşaqların təlim-tərbiyəsi və gələcəyin sağlam vətəndaşları kimi yetişmələri üçün hərtərəfli şərait yaradılıb. Bağçada 3 yaşdan 6 yaşadək 110 uşaq 11 qrupda təlim-tərbiyə alacaq. Uşaqların qidalanmasına xüsusi diqqət yetirilir. Bağçanın ərazisində abadlıq işləri görülmüş, yaşıllıq zolaqları salınmış, yay çardağı, oyun meydançası yaradılmış, su anbarı tikilmiş və transformator yarımstansiyası quraşdırılmışdır.







**2015-ci il avqust ayının 11-də** Azərbaycan Prezidenti cənab İlham Əliyev Cəlilabadda Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş körpələr evi-uşaq bağçasının açılışında iştirak etmişdir. Körpələr evi-uşaq bağçasının ərazisində yaşıllıq zolağı salınıb, müasir tipli əyləncə attraksionları quraşdırılıb, oyun meydançası yaradılıb. Təmir-tikinti işləri yüksək səviyyədə həyata keçirilib. Ümumi sahəsi 1500 kvadratmetr olan məktəbəqədər müəssisə müasir mebel dəstləri ilə təchiz edilib. Burada uşaqların təlim-tərbiyəsi və gələcəyin sağlam vətəndaşları kimi yetişmələri üçün hər cür şərait yaradılıb.







**2015-ci il sentyabr ayının 17-də** ölkə başçısı Kürdəmir rayonunun Atakişili kəndində tam orta məktəb binasının və Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan 100 yerlik körpələr evi-uşaq bağçasının açılışlarında iştirak etmişdir. 624 şagird yerlik məktəbin binası 53 otaqdan, o cümlədən 26 sinif otağından, linqafon, hərbi, kompüter otaqlarından, hər biri 2 ədəd olmaqla kimya, fizika, biologiya fənn kabinetlərindən, idman zalından və 156 yerlik yeməkxanadan ibarətdir. Məktəbin 96 yerlik akt zalında müxtəlif tədbirlər keçirmək mümkündür. Körpələr evi-uşaq bağçasında da uşaqların istirahəti və əyləncəsi üçün geniş imkanlar açılıb. Təhsil ocağındakı bütün otaqlar lazımi avadanlıqla təchiz edilib.









**2015-ci il noyabr ayının 4-də** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Zaqatalada “Qızılgül” körpələr evi-uşaq bağçasının və Azərbaycan Müəllimlər İnstitutunun Zaqatala filialının yeni inşa olunan binasının açılışlarında iştirak etmişdir. 100 uşaq üçün nəzərdə tutulan körpələr evi-uşaq bağçasında 5 qrupun fəaliyyət göstərməsi nəzərdə tutulub. Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş bağçada 1 yaşdan 6 yaşadək uşaqların təlim-tərbiyəsi ilə məşğul olmaq üçün hərtərəfli şərait yaradılmışdır. Yüksək

ixtisaslı pedaqoji kadrların hazırlanmasında öz yeri olan Müəllimlər İnstitutunun Zaqatala filialının yeni binada daha səmərəli işləməsi üçün hərtərəfli şərait mövcuddur. Tədris prosesində müasir informasiya-kommunikasiya sistemlərindən istifadəyə diqqət yetirilib.







**2015-ci il noyabr ayının 4-də** dövlət başçısı Şəkidə 840 şagird yerlik Qoxmuq kənd tam orta məktəbinin və 160 yerlik körpələr evi-uşaq bağçasının yeni binasının açılış mərasimlərində iştirak etmişdir. Qoxmuq kənd tam orta məktəbinin binası yüksək keyfiyyətlə tikilmiş və təlim-tədris üçün bütün zəruri şərait yaradılmışdır. Məktəbin kitabxanası dərs vəsaitləri ilə təmin olunub və şagirdlərin istifadəsinə verilib. İdman zalında da müasir qurğular quraşdırılıb. Binanın 240 yerlik akt zalında isə müxtəlif tədbirlərin keçirilməsinə hər cür imkan var.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş 160 yerlik körpələr evi-uşaq bağçasının ümumi sahəsi 3490 kvadratmetr olan üçmərtəbəli binadan ibarətdir. Burada 8 qrupun fəaliyyət göstərməsi nəzərdə tutulub. Uşaqlar üçün 8 yataq otağı, yeməkxana, tibb otağı, oyun və musiqi zalı, metodiki kabinet və digər müxtəlif təyinatlı otaqlar yaradılıb. Binanın ərazisində uşaqların əylənməsi üçün meydança yaradılıb, attraksionlar quraşdırılıb.









**2015-ci il dekabr ayının 1-də** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvanda Babək rayonunun Nehrəm kənd 2 saylı tam orta məktəbinin açılışında iştirak etmişdir. Burada 990 şagird təhsil alır. Onların ixtiyarına 42 sinif otağı, kimya, fizika və biologiya fənlərinin tədrisi üçün laboratoriyalar, hərbi kabinet verilib. Bundan başqa, məktəblilərin şahmatın sirlərinə yiyələnmələri üçün 2 xüsusi sinif ayrılıb. Kitabxana, müəllimlər otağı, idman zalı ən zəruri avadanlıqla təmin olunub. Məktəbdə 5 elektron lövhə quraşdırılıb, optik kabel ilə internet şəbəkəsinə qoşulub. Məktəb bütün lazımi infrastrukturla təchiz olunubdur.







"Gözəl təşəbbüsdür ki, artıq ölkəmizin müxtəlif yerlərində, demək olar, hər bir şəhərdə gözəl gənclər mərkəzləri tikilir, gənclərin sərəncamına verilir. Bu mərkəzlər həm memarlıq baxımından göz oxşayır, eyni zamanda, onların funksional mahiyyəti də çox önəmlidir. Burada müxtəlif tədbirlər keçirilə bilər, gənclər öz problemlərini müzakirə edə bilərlər".

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Əhalinin, xüsusən böyüməkdə olan gənc nəslin hərtərəfli inkişafının təmin edilməsi məqsədilə bədən tərbiyəsi və idman sahəsində dövlət siyasəti əhalinin sağlamlığının yaxşılaşdırılması, insanlarda yüksək mənəvi keyfiyyətlərin tərbiyə olunması, vətənin müdafiəsinə hazırlığın təmin edilməsi üzrə tədbirlərin həyata keçirilməsindən ibarətdir. Gənclərin hərtərəfli inkişafı ölkənin sosial-iqtisadi, elmi və mədəni inkişafı ilə sıx əlaqədədir, onun qlobal rəqabətə davamlılığının, milli təhlükəsizliyinin vacib şərtlərindəndir. Son illərdə ölkənin bütün bölgələrində yeni idman komplekslərinin tikintisi geniş vüsət almış, gənclərin asudə vaxtlarının daha səmərəli təşkili məqsədilə müxtəlif obyektlər istifadəyə verilmişdir.

**2015-ci il yanvar ayının 13-də** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Sumqayıtda Gənclər Evinin açılışında iştirak etmişdir. Üç mərtəbə və terrasdan ibarət binada caz klub, səhnəsi olan böyük kafe-bar, art-studiya, internet klub yaradılıb. Burada, həmçinin biznes və hüquqi məsləhət mərkəzləri, vətənpərvərlik klubu, gənclər üçün "Qaynar xətt" xidməti, peşəyönümü mərkəzi, bütün müasir və zəruri avadanlıqla təchiz edilmiş videostudiya da gənclərin ixtiyarına verilib. Mərkəzdə istedadların hazırlığı laboratoriyası və xarici dillər üzrə danışıq klubu da fəaliyyət göstərir. Binadakı "dəyirmi masa" zalı da müasirliyi ilə diqqəti cəlb edir.

Gənclər Evinin 110 yerlik müasir akt zalı da vardır. Tədbirlər zamanı regionlardan gələn gənclərin qalmaları üçün bir və iki nəfərlik 10 otaq yaradılıb. Binanın sonuncu mərtəbəsində açıq havada 50 nəfərlik restoran gənclərin ixtiyarına veriləcək.





**2015-ci il fevral ayının 24-də** dövlət başçısı Mingəçevirdə "Kür" Olimpiya Tədris-İdman Mərkəzində olmuşdur. "Kür" Olimpiya Tədris-İdman Mərkəzi Avropada, o cümlədən MDB məkanında bənzəri olmayan avarçəkmə bazasıdır.





**2015-ci il sentyabr ayının 17-də** Prezident İlham Əliyev Ağsu rayonunda İdman Kompleksinin və Şahmat Məktəbinin açılışlarında iştirak etmişdir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan kompleksdə idmanın bir çox növləri ilə məşğul olmaq üçün hərtərəfli şərait yaradılıb. Kompleksdə yerli və beynəlxalq əhəmiyyətli idman tədbirləri keçirmək mümkün olacaqdır. Ağsu Şahmat Məktəbində uşaqların və yeniyetmələrin idmanın bu qədim növünün sirlərinə dərindən yiyələnmələri üçün hər cür şərait yaradılıb. Məktəbdə şahmat dərslərinin keçirilməsi üçün zəruri avadanlıqla təchiz olunan əsas yarış zalı, 2 tədris sinifi, müəllimlər otağı və xidməti otaqlar var.











**2015-ci il oktyabr ayının 6-da** ölkə başçısı Göyçayda Şahmat Məktəbinin və Gənclər Mərkəzinin açılışlarında iştirak etmişdir. Şahmat Məktəbində yeniyetmə və gənclərin şahmat kompozisiyalarını daha dərindən öyrənmələri üçün müxtəlif əyani vəsaitlərdən və informasiya-kommunikasiya texnologiyalarının imkanlarından geniş istifadə olunur. Respublikamızın bütün bölgələrində fəaliyyət göstərən belə şahmat məktəblərində zəngin təcrübə toplayan məktəblilər beynəlxalq səviyyəli yarışlara qatılaraq ölkəmizi yüksək səviyyədə təmsil edirlər.

Gənclər Mərkəzində rayon gəncləri boulinq zalı, qolf, intellektual oyunlar otaqları, kafe, rəqs studiyası, xarici dil kursları, rəsm, xalçaçılıq, poliqrafiya, heykəltəraşlıq dərnəkləri və fotostudiyaların xidmətindən yararlanırlar. Mərkəzdə 60 yerlik böyük iclas və 15 yerlik konfrans zalları var. Bu zallarda rayon gənclərinin müxtəlif tədbirləri keçirmələri üçün hər cür şərait yaradılmışdır.










**Həmin gün** Prezident İlham Əliyev Ucar Gənclər Mərkəzinin də açılışında iştirak etmişdir. Ərazisi 2 min kvadratmetr olan Ucar Gənclər Mərkəzi respublikada ən böyük gənclər mərkəzlərindən biridir. Xarici ölkələrdə istehsal olunan müasir avadanlıqların quraşdırıldığı zalda 7D formatlı filmlərin nümayişi üçün hər cür şərait yaradılıb. Elektron kitabxana və konfrans zalı da bütün lazımi avadanlıqla təchiz olunub. Burada, həmçinin atıcılıq salonu da təşkil edilib. Ən son avadanlığın quraşdırıldığı salonda gənclərin bu sahədə ibtidai hazırlıq keçmələri və onların interaktiv, pnevmatik silahlardan atəşaçma bacarıqlarının yüksəldilməsi üçün məqsədyönlü işlər aparılacaq. Mərkəzin yaradılmasında əsas məqsəd yeniyetmələr arasında elmi-texniki biliklərin təbliği, onların elmi-yaradıcı təşəbbüslərinin artırılması, bu sahədə istedadlı gənclərin üzə çıxarılmasıdır.





"Azərbaycanın hər bir yerində mədəniyyət ocaqlarının təmiri, bərpası sürətlə gedir, geniş vüsət almışdır. Həm qədimdən qalan tarixi abidələr, eyni zamanda, sovet dövründə tikilmiş mədəniyyət mərkəzləri də təmir olunur, yenidən qurulur".

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Ölkənin mədəni potensialının, sərvətlərinin və ənənələrinin qorunub saxlanması və inkişaf etdirilməsi, yaradıcılıq və təhsil sisteminin təkmilləşdirilməsi həmişə dövlət siyasətinin mühüm istiqamətlərindən biri olmuşdur. Dövlət başçısı mütəmadi olaraq ölkəmizin müxtəlif bölgələrində istifadəyə verilmiş mədəniyyət obyektlərində, əhalinin istirahət və asudə vaxtlarının səmərəli keçirilməsi üçün yaradılmış şərait və bu sahədə həyata keçirilən abadlıq - yenidənqurma işləri ilə yaxından tanış olmuş, bu sahədə müvafiq tapşırıq və göstərişlərini vermişdir.

**2015-ci il yanvar ayının 13-də** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Sumqayıtda Nəsimi adına şəhər mədəniyyət və istirahət parkında aparılan yenidənqurma işləri ilə tanış olmuşdur. Şəhər sakinlərinin mənalı istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün salınan parkda ardıcıl olaraq yenidənqurma və tikinti-quraşdırma işləri aparılır. Yenidənqurma işləri zamanı milli memarlıq üslubu ilə müasirlik tam uzlaşdırılıb, maraqlı elementlər və formalardan istifadə edilib. Ərazidə çoxlu ağac və dekorativ gül kolları əkilib, yaşıllıq salınıb. Park müasir işıqlandırma sistemi ilə təchiz edilib.





**2015-ci il fevral ayının 24-də** Prezident İlham Əliyev Mingəçevirdə Heydər Əliyev Parkında aparılan yenidənqurma işləri və Müşfiq Mirzəyev adına "Dostluq" parkında yaradılan şəraitlə tanış olmuşdur. Parklarda müxtəlif istirahət guşələri, həmçinin uşaq əyləncə meydançaları yaradılıb, müasir attraksionlar və yelləncəklər quraşdırılıb. Aparılan yenidənqurma işləri sayəsində parklar şəhər əhalisinin və qonaqların ən sevimli istirahət mərkəzlərindən birinə çevrilib.





**2015-ci il mart ayının 12-də** ölkə başçısı Bərdədə Heydər Əliyev adına park-bulvarın açılış mərasimində iştirak etmişdir. Ulu öndər Heydər Əliyevin adını daşıyan bu kompleks Gəncə şəhərindəkindən sonra ən böyük mədəniyyət və istirahət mərkəzlərindən biridir. Uzunluğu 2400 metr olan park-bulvar kompleksi ilkin mərhələdə 47 hektar ərazini əhatə edir və gələcəkdə daha da genişləndirilməsi nəzərdə tutulur. Parkın giriş qapısı öz əzəməti ilə diqqəti cəlb edir. Eni 36 metr, hündürlüyü 12 metr olan giriş qapısı milli memarlıq üslubunda ucaldılıbdır. Kompleksə əlavə 6 istiqamətdən giriş qapısı tikilibdir. İnşaat işləri aparılarkən Bərdənin qədim tarixini özündə yaşadan abidələrə xüsusi həssaslıqla yanaşılıbdır. 10 hektar ərazini əhatə edən süni göllər üçün alınmış qayıqlar istirahət edənlərin ixtiyarına veriləcəkdir. Park-bulvara üz tutanların istirahətinin mənalı təşkili üçün min tamaşaçı yeri olan süni örtüklü stadion, örtülü əl oyunları meydançası, min yerlik yay kinoteatrı, 2 min kvadratmetr ərazidə uşaq əyləncə mərkəzi, ana-uşaq kafesi, ikimərtəbəli çay evi, istirahət köşkləri, ticarət və iaşə obyektləri, inzibati bina inşa olunubdur.







**Həmin gün** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Bərdə türbəsində aparılan təmir işlərinin gedişi ilə tanış olmuş, 1 nömrəli Uşaq İncəsənət Məktəbinin açılışında iştirak etmişdir. 1322-ci ildə Əcəmi memarlıq məktəbinin nümayəndələrindən olan Əhməd bin Əyyub Əl Hafiz Naxçıvani tərəfindən inşa olunmuş və hündürlüyü 12,5 metr olan türbənin yerüstü hissəsi 3 əsas memarlıq quruluşundan ibarətdir.

İncəsənət Məktəbi Bərdədə uşaqların musiqinin sirlərinə mükəmməl səviyyədə yiyələnmələri üçün lazımi avadanlıqla təchiz olunub. Burada xalq çalğı alətləri, fortepiano və nəzəri fənlər, rəsm və rəqs şöbələri fəaliyyət göstərir, bir neçə ixtisas – tar, kamança, nağara, fortepiano, skripka, qarmon, klarnet, balaban, xanəndəlik üzrə dərslər keçirilir.





**2015-ci il aprel ayının 11-də** dövlət başçısı Astaranın dənizkənarı park-bulvar kompleksində yaradılan şəraitlə tanış olmuşdur. Park-bulvar kompleksi Astara şəhərində Xəzər dənizinin sahil boyunca bir kilometr uzunluğunda olan ərazini əhatə edir. Şəhərin mərkəzində yerləşən bu mədəniyyət və istirahət kompleksində yenidənqurma işləri ən yüksək səviyyədə görülüb, parkın ərazisi tamamilə yenidən qurulub.





**Həmin gün** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Lənkəran Tarix-Diyarşünaslıq Muzeyi və Mədəniyyət Mərkəzində yaradılan şəraitlə tanış olmuşdur. Hazırda Xan evi kimi tanınan Tarix-Diyarşünaslıq Muzeyi Lənkəran xanı Mirəhməd xan tərəfindən həyat yoldaşı Tuğra xanımın şərəfinə 1912-1913-cü illərdə inşa edilib. Xan evinin tikintisində Şərq və Qərb memarlıq üslubundan istifadə edilib, kərpic və ağ daş materiallarına üstünlük verilib.

Lənkəran şəhər Mədəniyyət Mərkəzinin 3 mərtəbəli binası ən yüksək səviyyədə, müasir üslubda təmir edilib. 550 yerlik akt zalında Lənkəranın mədəni həyatında baş verən hadisələri qeyd etmək, həmçinin respublika və rayon əhəmiyyətli müxtəlif tədbirləri keçirmək üçün hərtərəfli şərait var. Lənkəranda tez-tez mədəniyyət tədbirlərinin keçirilməsi və rayonda bir çox incəsənət kollektivinin fəaliyyət göstərməsi nəzərə alınaraq, Mərkəzdə rejissor, qrim, istirahət otaqları, dekorasiya və tikiş sexləri də yaradılıb. Mədəniyyət Mərkəzinin zəngin kitab fondu, oxu zalı və 50 yerlik konfrans zalı var.









**2015-ci il avqust ayının 11-də** Prezident İlham Əliyev Cəlilabadda Heydər Əliyev Mərkəzinin və Göytəpə şəhərində Heydər Əliyev adına park-bulvarın açılışında iştirak etmişdir. Ulu Öndərin dövlətçilik fəlsəfəsinin öyrənilməsi, Heydər Əliyev irsinin tədqiqi və təbliği, bütün sahələrin inkişaf etdirilməsinə xidmət edən layihələrin həyata keçirilməsini öyrənmək baxımından bu Mərkəzin çox böyük əhəmiyyəti var. Bundan başqa, Cəlilabaddakı Heydər Əliyev Mərkəzi həm də rayon sakinlərinə asudə vaxtlarını səmərəli keçirmək üçün hərtərəfli imkanlar verir. Mərkəzin ətrafında geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıqlar salınıb, dekorativ gül və bəzək kolları, ağaclar əkilib. Park-bulvarda musiqili fəvvarə, müasir işıq dirəkləri, rahat oturacaqlar quraşdırılıb, 15 min kvadratmetr sahədə yaşıllıq zolağı salınıb. Burada sakinlərin istirahətini dolğun və mənalı təşkil etmək məqsədilə bütün zəruri işlər görülüb.






**2015-ci il sentyabr ayının 17-də** ölkə başçısı Kürdəmirdə Bayraq Meydanının açılışında iştirak etmiş və əsaslı şəkildə yenidən qurulan Tarix-Diyarşünaslıq Muzeyində yaradılan şəraitlə tanış olmuşdur. Bayraq Meydanı əhalinin asudə vaxtının səmərəli təşkili, dövlət rəmzlərinin təbliği və gənc nəslin dövlətçilik ənənələrinə sədaqət ruhunda tərbiyə edilməsi işinin yaxşılaşdırılması məqsədilə inşa olunub. Meydanda Bayraq Muzeyi və rayon gənclərinin istirahətinin səmərəli təşkili məqsədilə gənclər kafesi inşa olunub. Tarix-Diyarşünaslıq Muzeyinin əsaslı şəkildə yenidən qurulması qədim tariximizin və mədəni irsimizin öyrənilməsi, gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyətə malikdir.







**2015-ci il oktyabr ayının 6-da** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ucar Tarix-Diyarşünaslıq Muzeyinin açılışında iştirak etmişdir. Qədim tariximizin və mədəni irsimizin öyrənilməsi, gələcək nəsillərə çatdırılması baxımından Ucar Tarix-Diyarşünaslıq Muzeyi mühüm əhəmiyyətə malikdir. Muzeydə həm ölkəmizin, həm də Ucarın tarixini əks etdirən və turistlər üçün böyük maraq doğuran çoxlu sayda eksponat var.




**Həmin gün** ölkə başçısı Göyçayda Uşaq Musiqi Məktəbinin açılışında iştirak etmiş, Bayraq Meydanı kompleksində yaradılan şəraitlə tanış olmuşdur. Uşaq Musiqi Məktəbinin fortepiano, skripka, qarmon, xalq çalğı alətləri, tar, kaman, xanəndəlik şöbələrində uşaqlar zəngin incəsənətimizin və musiqimizin sirlərinə yiyələnirlər. Bütün sinif otaqları zəruri alət və avadanlıqla təchiz olunub. Bayraq Meydanı dövlət rəmzlərinin təbliği və gənc nəslin dövlətçilik ənənələrinə sədaqət ruhunda tərbiyə edilməsi işinin yaxşılaşdırılması məqsədilə inşa olunub.






**2015-ci il noyabr ayının 4-də** Prezident İlham Əliyev Zaqatalada Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir. Burada dünya şöhrətli siyasi və dövlət xadiminin həyat və fəaliyyətindən bəhs edən kitablar, fotolar, fəxri diplomlar, digər sənədlər nümayiş etdirilir. Bu Mərkəzin istifadəyə verilməsi rayon gənclərinin ilkin peşə vərdişlərinə yiyələnmələrində və asudə vaxtlarını səmərəli keçirmələrində mühüm rol oynayacaqdır.







**2015-ci il dekabr ayının 1-də** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan şəhər 2 saylı uşaq musiqi məktəbinin açılışında iştirak etmişdir. Şəhərin görməli yerlərindən birində - Atatürk küçəsində ümumi sahəsi 2540 kvadratmetr olan 4 mərtəbəli binada 300 şagird müxtəlif musiqi alətlərində ifaçılıq sənətinə, həmçinin milli və klassik musiqinin sirlərinə yiyələnəcək. Bunun üçün 4 şöbədə 7 ixtisas üzrə tədris aparılacaq. Təlim və tədrisin yüksək səviyyədə aparılması üçün bütün zəruri tədbirlər görülüb. 39 fərdi sinif otağı, tədris otaqları və müxtəlif tədbirlərin keçirilməsi üçün zal ən müasir avadanlıqla təchiz edilib. Binanın ətrafında geniş abadlıq və yaşıllaşdırma işləri görülüb.





"Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, rifahı, sağlamlığı və təhlükəsizliyi dayanır".

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Əhalinin sosial müdafiəsi sahəsində dövlətin həyata keçirdiyi siyasətin ən mühüm istiqamətlərindən biri kimi əlillərə, müharibə veteranlarına və aztəminatlı vətəndaşlara xüsusi diqqətin yetirilməsi, o cümlədən məcburi köçkün ailələrinin mənzil-məişət və sosial vəziyyətinin yaxşılaşdırılması sosial siyasətdə prioritetdir. Bu baxımdan proqram çərçivəsində ölkə başçısının insan amilinə, yəni Azərbaycan xalqının həyat səviyyəsinin yüksəldilməsinə yönəldilmiş ali siyasətinin reallaşdırılması istiqamətində mühüm tədbirlərin həyata keçirilməsi 2015-ci ildə də davam etdirilmiş, bir sıra sosial obyektlər istifadəyə verilmişdir.

**2015-ci il fevral ayının 24-də** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Mingəçevirdə 594 məcburi köçkün ailəsi üçün yeni salınan yaşayış kompleksində yaradılan şəraitlə tanış olmuşdur. 12 hektar sahəni əhatə edən bu məhəllədə 596 ev, məktəb, 140 yerlik uşaq bağçası, tibb məntəqəsi, klub-icma mərkəzi, poçt binası tikilibdir. Su, elektrik və qaz təchizatı şəbəkələri Mingəçevir şəhərinin kommunikasiyalarına qoşulubdur.




**2015-ci il mart ayının 12-də** Prezident İlham Əliyev Bərdədə 588 məcburi köçkün ailəsi üçün yeni salınan yaşayış kompleksində yaradılan şəraitlə tanış olmuşdur. 11 hektar sahəni əhatə edən yeni yaşayış kompleksində 588 mənzil, 640 şagird yerlik məktəb, 140 yerlik uşaq bağçası, ATS və digər inzibati binalar tikilib. Su, elektrik və qaz təchizatı şəbəkələri Bərdənin kommunikasiya şəbəkələrinə qoşulub.




**Həmin gün** dövlət başçısı Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Bərdə regional "ASAN xidmət" mərkəzinin açılışında iştirak etmişdir. "ASAN xidmət" mərkəzinin fəaliyyətindən Bərdə də daxil olmaqla, Ağdam, Ağcabədi, Laçın, Yevlax və Tərtər rayonlarının 800 minə yaxın sakini yararlanır. "ASAN xidmət" mərkəzində vətəndaşların gözləməsi və vaxtını səmərəli keçirməsi üçün funksional yardımçı xidmətlər - bank, sığorta, hüquqi yardım və tərcümə mərkəzləri, laboratoriya, tibbi xidmət, poçt şöbələri, fotostudiya fəaliyyət göstərir. Xüsusi terminallar vasitəsilə mobil rabitə, internet, işıq, su, qaz və digər kommunal xidmətlərin, kredit və sığorta ödənişlərinin həyata keçirilməsi mümkündür. Xidmət sistemi müasir İP telefon və İP şəbəkə ilə təmin edilibdir. Burada kitabxana, kafe, ana-uşaq otağı, uşaq əyləncə mərkəzi də yaradılıbdır.






"Gələcək inkişafımızın uğurlu və dayanıqlı davamı üçün sahibkarlığın inkişafı prioritet olaraq qalır. Bu gün özəl sektor inkişaf edir, o cümlədən dövlət dəstəyi hesabına güzəştli kreditlər verilir. Biz gələcəkdə bu sahədə daha da fəal işlər aparmalıyıq ki, sahibkarlığı maksimum dərəcədə inkişaf etdirək".

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

## Sahibkarlığın inkişafı ölkə iqtisadiyyatının diversifikasiyası baxımından dövlət siyasətinin aparıcı istiqamətlərindən biridir

Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən sosial-iqtisadi inkişaf strategiyasının mühüm istiqamətlərindən biri də ölkədə sahibkarlığın inkişaf etdirilməsidir. Bu sahədə biznes mühitinin daima yaxşılaşdırılması diqqətdə saxlanılmaqla, çevik islahatlar nəticəsində qanunvericilik bazası təkmilləşdirilir və bu yolla yüksək keyfiyyətli, rəqabətqabiliyyətli məhsulların istehsalına şərait yaradılır.

Ötən illər ərzində dövlət-sahibkar münasibətləri inkişaf etdirilmiş, sahibkarlığın dövlət tənzimlənməsi sistemi təkmilləşdirilmiş, sahibkarların hüquqlarının müdafiəsi üçün işlək mexanizmlər yaradılmış və bu istiqamətdə işlər davam etdirilmişdir. Həyata keçirilən islahatların davamı olaraq, Azərbaycan Respublikası Prezidentinin "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 3 mart 2014-cü il tarixli Fərmanına uyğun olaraq, sahibkarlıq subyektlərinin elektron qeydiyyatı, xarici ticarət əməliyyatlarının aparılması sadələşdirilmiş, tikintiyə icazələrin verilməsi, korporativ idarəetmənin təkmilləşdirilməsi, investorların maraqlarının qorunması və müflisləşmə üzrə qanunvericiliyə edilmiş dəyişikliklər biznes mühitini daha da yaxşılaşdırmışdır ki, bu da öz təsdiqini Dünya Bankı tərəfindən 189 ölkənin biznes mühitinin qiymətləndirildiyi "Doing Business 2016" hesabatında tapmışdır. Belə ki,  həmin hesabatda Azərbaycan öz mövqeyini 17 pillə yaxşılaşdıraraq 80-ci pillədən 63-cü pilləyə yüksəlmiş, dünyada 3 və daha çox islahat aparan 24 ölkədən biri olmuşdur. Sözügedən hesabatda "Biznesə başlama", "Tikinti üçün icazələrin alınması" və "Kiçik investorların maraqlarının qorunması" göstəriciləri üzrə biznes mühitinin yaxşılaşdırılması sahəsində ölkəmizdə aparılan islahatlar xüsusi qeyd edilmişdir.

Təsərrüfat subyektlərində aparılan yoxlamaların daha dolğun tənzimlənməsi, hüquqlarının və qanuni mənafelərinin qorunması məqsədi ilə yeni qaydalar müəyyən edən "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi və bununla bağlı bir çox normativ sənədlərlə yanaşı,  "İri, orta və kiçik sahibkar meyarları"nın təsdiq edilməsi də böyük üstünlüklər yaratmışdır.

2015-ci il ərzində sahibkarlıq sahəsində aparılan islahatlar daha da dərinləşdirilmişdir. Belə ki, 20 oktyabr 2015-ci il tarixində qəbul edilmiş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə əsasən sahibkarlıq sahəsində aparılan yoxlamalar 2015-ci il noyabrın 1-dən 2 il müddətinə dayandırılmışdır. İnsanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan təxirəsalınmaz halların baş verə bilməsi diqqətdə saxlanılaraq müstəsna qaydada "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestri"ndə müvafiq razılıq əsasında qeydiyyatdan keçirilməklə plandankənar yoxlamaların aparılması müəyyən edilmişdir.

Eyni zamanda Azərbaycan Respublikası Prezidentinin "Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq

(lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında" 19 oktyabr 2015-ci il tarixli 650 nömrəli Fərmanına əsasən dövlət təhlükəsizliyi ilə bağlı hallar istisna olmaqla lisenziyaların verilməsinin "ASAN xidmət" mərkəzlərində həyata keçirilməsinə 2 noyabr 2015-ci il tarixindən başlanılmış, həmçinin ötən dövr ərzində lisenziya verilməsi prosedurları sadələşdirilmiş və şəffaflaşdırılmışdır.

Belə ki, Azərbaycan Respublikasının Prezidenti tərəfindən 21 dekabr 2015-ci il tarixində "Lisenziyalaşdırma Qaydası"nın, "Lisenziya tələb olunan fəaliyyət növlərinin (dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla) siyahısı və həmin fəaliyyət növlərinə lisenziya verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri"nin təsdiq edilməsi nəticəsində lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 37-yə endirilmişdir. Bununla yanaşı yeni verilən, o cümlədən indiyə kimi verilmiş qüvvədə olan müddətli lisenziyalar müddətsiz müəyyən edilmiş, lisenziyanın verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri təxminən 2 dəfə azaldılmış, lisenziyaların verilməsi müddəti 15 gündən 10 iş gününə endirilmiş, lisenziya verilməsi üçün tələb olunan prosedurlar isə sadələşdirilmiş və təkmilləşdirilmişdir.

Həmçinin sahibkarlığın dövlət tənzimlənməsi sahəsində şəffaflıq prinsipi əsasında icazələrin qeydiyyatı və lisenziyaların verilməsi prosedurlarını əhatə edən tənzimləyici çərçivənin təkmilləşdirilməsi məqsədi ilə hazırlanmış "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununun qəbulu istiqamətində ciddi işlər aparılmışdır.

Dövlət orqanları tərəfindən təqdim edilən bir çox xidmətlərin, o cümlədən İqtisadiyyat Nazirliyi tərəfindən göstərilən xidmətlərin elektronlaşdırılması, sertifikatların verilməsi, bu xidmətlərə görə dövlət rüsumları və haqlarının "online" rejimində ödənilməsi davam etdirilmişdir. Əlavə olaraq dövlət xidmətlərinin göstərilməsində şəffaflığın artırılması və vahid portal üzərindən həyata keçirilməsi üçün "Elektron lisenziya" portalının yaradılmasına başlanılmışdır ki, həmin portal fəaliyyətə başladıqdan sonra sahibkarlara lisenziya, sertifikat, şəhadətnamə və digər sənədlərin verilməsi prosesi tamamilə elektronlaşdırılacaqdır.

Ölkə iqtisadiyyatında və onun əsasını təşkil edən sahibkarlığın inkişafı sahəsində müşahidə edilən pozitiv meyllər iqtisadiyyatın daha da şaxələnərək genişlənməsinə imkan yaradır. Ötən illər ərzində həyata keçirilmiş tədbirlər nəticəsində 2015-ci ili ərzində özəl sektorun payı Ümumi Daxili Məhsulun 81,2 faizini təşkil etmiş, məşğulluqda payı 75 faizə çatmışdır.

**ÜDM-də özəl sektorun xüsusi çəkisi (faizlə)**




Ölkədə sahibkarların ümumi bölgüsünə görə onların 10,9 faizini hüquqi şəxslər, 89,1 faizini isə fiziki şəxslər təşkil edir.

### Sahibkarlıq subyektlərinin bölgüsü (faizlə)




2015-ci ildə müəssisələrin sayı 6,1 faiz artaraq, 2016-cı il yanvarın 1-i vəziyyətinə 100325 vahid olmuşdur.

### 2010-2015-ci illərdə yeni yaradılmış hüquqi şəxslərin sayı




2015-ci ildə ölkədə 6266 hüquqi şəxs (onların nümayəndəlik və filialları) yaradılmışdır. Yeni hüquqi şəxslərin 11,9 faizi Aran, 10,8 faizi Lənkəran, 8,1 faizi Abşeron, 5,4 faizi Gəncə-Qazax iqtisadi rayonlarında, qalanları isə digər bölgələrdə qeydiyyatdan keçmişdir.

1 yanvar 2016-cı il tarixinə ölkə üzrə müəssisələrin ümumi sayının 78,8 faizini və ya 79037 vahidini kiçik müəssisələr təşkil etmişdir.

**Kiçik müəssisələrin sayı**




2016-cı il yanvarın 1-i vəziyyətinə hüquqi şəxs yaratmadan fərdi sahibkarlıq formasında fəaliyyət göstərən fiziki şəxslərin sayı 576906 vahidə çatmışdır. Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin 382111-i (66,2 faiz) regionlarda qeydiyyata alınmışdır.

**2010-2015-ci illərdə fiziki şəxslərin artım dinamikası**




Bununla yanaşı yaradılmış elektron məlumat mənbələri (www.icazeler.gov.az, www.yoxlama.gov.az, www.biznesinfo.az) haqqında sahibkarları məlumatlandırmaq, onların maarifləndirilməsilə yanaşı regionlarda sahibkarlığın dəstəklənməsi və təşviqi məqsədilə Nazirliyin təşkilatçılığı ilə beynəlxalq təşkilatlar və digər qurumlarla birlikdə 2015-ci il 17 fevral və 23 may tarixlərində Xaçmaz rayonunda, 14 may tarixində Lənkəran şəhərində, 5 iyun tarixində Mingəçevir şəhərində, 9 sentyabr tarixində İsmayıllı rayonunda, 27 oktyabr tarixində Bakı şəhərində tədbirlər təşkil edilmişdir.

Ölkəmizdə sahibkarlığın inkişafına dövlət himayəsinin sistemli şəkildə həyata keçirilməsini gücləndirmək, dövlət-sahibkar münasibətlərini daha da təkmilləşdirmək, sahibkarlar tərəfindən edilən müraciətlərin cavablandırılmasında sistemlilik yaratmaq, operativliyə nail olmaq üçün “195-2” prefiks nömrəsi ilə 1 sentyabr 2009-cu il tarixindən rəsmən fəaliyyət göstərən və ölkənin bütün regionlarını əhatə edən İqtisadiyyat Nazirliyinin Çağrı Mərkəzi yaradılmışdır. 2009-cu ilin 1 sentyabr tarixindən 2016-cı ilin 1 yanvar tarixinədək Mərkəzə 44529, o cümlədən 2015-ci il ərzində 15571 müraciət daxil olmuş və cavablandırılmışdır. Həmçinin Çağrı Mərkəzi tərəfindən 2015-ci il ərzində ümumilikdə 38 sual vərəqəsi və 1438 şikayət vərəqəsi tərtib olunmuş, onlar operativ araşdırılaraq qanunvericiliyə uyğun olaraq cavablandırılmışdır.

Eyni zamanda ölkəmizdə fəaliyyət göstərən sahibkarlıq subyektləri haqqında məlumatların asan əldə olunması, onların əlaqələrinin genişləndirilməsinin təşviq edilməsi məqsədilə rəqabətqabiliyyətli məhsul istehsalçıları haqqında məlumatları əks etdirən azərbaycan, rus və ingilis dillərində "Azərbaycanda istehsal olunub" adlı kataloqu ilkin olaraq CD elektron daşıyıcıda hazırlanaraq, yerli və beynəlxalq tədbirlərdə iştirakçılara təqdim edilməkdədir.

Son illər qeyri-neft sektorunun inkişafı, xüsusən qeyri-neft ixracının artırılması sahəsində aparılan tədbirlər nəticəsində sahibkarların biznes əlaqələri daha da genişlənmiş, Azərbaycan məhsullarının satış bazarı yeni dövlətləri əhatə etmişdir. Sahibkarların işgüzar əlaqələrinin inkişafının dəstəklənməsi istiqamətində Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) tərəfindən həyata keçirilən mühüm iqtisadi tədbirlər, o cümlədən biznes forumlar, konfranslar, seminarlar və beynəlxalq sərgilər qeyd olunan məqsədlərə nail olmağa kömək edir.

2015-ci il ərzində yerli sahibkarların beynəlxalq biznes əlaqələrinin daha da genişləndirilməsi məqsədilə ölkəmizdə və xaricdə ümumilikdə 261 (Azərbaycanda - 177, xaricdə - 84) tədbir, o cümlədən biznes forum, dəyirmi masa, konfrans, təlim, sərgi təşkil edilmiş və ikitərəfli görüşlər keçirilmişdir. Azərbaycan iqtisadiyyatının prioritet sektorlarında investisiya imkanları və ölkəmizin biznes mühiti üzrə təqdimatlar edilmiş, kənd təsərrüfatı və ərzaq sənayesi, ağır və yüngül sənaye, tikinti, İKT, turizm, nəqliyyat və logistika, kimya sənayesi, maliyyə, səhiyyə və əczaçılıq, təhsil, alternativ enerji, ticarət və konsaltinq sahələrini təmsil edən yerli və xarici iş adamları iştirak etmiş, işgüzar əlaqələr yaradılmış və müqavilələr bağlanılmışdır.

Eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti tərəfindən verilmiş tapşırıqların icrasının təmin olunması məqsədilə yüksək keyfiyyətli, rəqabət qabiliyyətli məhsulların istehsalı, həmin məhsulların yeni bazarlara irəliləyişinin təşviqi, qeyri-neft ixracının inkişafı, ticarət tərəfdaşlarının Azərbaycan məhsullarına marağının daha da artırılması, bu məhsulların satış bazarının genişləndirilməsi və əldə edilən uğurların beynəlxalq səviyyədə təbliği istiqamətində keçirilmiş sərgilərdə yerli şirkətlərin iştirakı təmin edilmişdir. Belə ki, 2015-ci ildə Almaniyanın Berlin şəhərində keçirilmiş "Beynəlxalq Yaşıl Həftə" sərgisində, Rusiya Federasiyasının Yekaterinburq şəhərində keçirilmiş Rusiya-Azərbaycan 6-cı regionlararası forumunda, İtaliyanın Milan şəhərində keçirilimiş "Milan Expo 2015" sərgisində, Fransanın Paris şəhərində keçirilimiş "Azərbaycan Parisin ürəyində" adlı tədbir çərçivəsində təşkil olunmuş sərgi-yarmarkasında, eləcə də digər beynəlxalq səviyyəli tədbirlərdə iştirak təmin edilmişdir.

Bununla yanaşı, dövlətin iqtisadi siyasətinin həyata keçirilməsində Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu yaxından iştirak etməklə, sahibkarlara güzəştli kreditlərlə maliyyə dəstəyinin verilməsi, investisiya layihələrinin maliyyələşdirilməsi sahəsində konkret sahələrin təşviqi, regionlarda və Bakı şəhərinin qəsəbələrində sahibkarlığın inkişafına həsr olunmuş işgüzar forumların keçirilməsi, sahibkarlara maarifləndirici treninqlərin təşkil edilməsi, sahibkarlığın informasiya təminatının gücləndirilməsi, müasir texnologiyaların tətbiqini, rəqabət qabiliyyətli, xüsusilə ixrac yönümlü və idxalı əvəz edən məhsulların istehsalını və emalını nəzərdə tutan, eləcə də bu sahələrin inkişafını stimullaşdıran infrastruktur layihələrinin maliyyələşdirilməsi istiqamətində 2015-ci ildə də uğurlu fəaliyyətini davam etdirmişdir.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq, sahibkarlığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi məqsədilə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 2015-ci il ərzində regionlarda 3470 sahibkarın iştirakı ilə 39 işgüzar forum keçirilmişdir. Forumlarda sahibkarlara güzəştli kreditlər təqdim edilmiş, nümunəvi investisiya layihələrinin təqdimatı keçirilmiş, həmin nümunəvi layihələr sahibkarlara təqdim edilmiş, müvəkkil kredit təşkilatlarının nümayəndələri və sahibkarlarla mövcud iqtisadi potensialdan daha səmərəli istifadə edilməsi məqsədi ilə müzakirələr aparılmış, həmin şəhər və rayonlar üzrə investisiya təkliflərinin qəbulu üçün kütləvi informasiya vasitələrində elanlar verilmişdir.

Forumlarda əsas gücün sahibkarlarla müvəkkil kredit təşkilatları arasında işgüzar münasibətlərin qurulmasına və müzakirələr müstəvisində yönəldilməsi sahibkar-müvəkkil kredit təşkilatı münasibətləri üzrə ən aktual məsələlərin həllinə – sahibkarların müvəkkil kredit təşkilatlarını öz layihələrinin səmərəliliyinə inandırmalarına, qarşılıqlı dialoq əsasında özləri haqqında daha ətraflı məlumat vermələrinə, eləcə

də müvəkkil kredit təşkilatlarının sahibkarlarla daha intensiv işləməsinə, potensial sahibkarların üzə çıxarılmasına və nəticədə daha çox kiçik və orta həcmli layihələrin maliyyələşdirilməsinə imkan yaradır.

Fermerlərin kiçik həcmli güzəştli kreditlərə birbaşa çıxış imkanlarının genişləndirilməsi məqsədilə güzəştli kreditlərin verilməsində bank olmayan kredit təşkilatlarının, o cümlədən kredit ittifaqlarının rolunun artırılması, eləcə də yeni bank olmayan kredit təşkilatlarının yaradılmasının təşviq olunması, həmçinin Fondla əməkdaşlığa yeni bank olmayan kredit təşkilatlarının cəlb olunması istiqamətində tədbirlər həyata keçirilir. 2015-ci ildə 13 bank olmayan kredit təşkilatı, o cümlədən 7 kredit ittifaqı Fondla əməkdaşlığa cəlb edilmiş və bununla da Fondla əməkdaşlıq edən bank olmayan kredit təşkilatlarının sayı 32-yə, o cümlədən kredit ittifaqlarının sayı 25-ə çatdırılmışdır. Belə kredit təşkilatları ilə əməkdaşlığın genişləndirilməsi kiçik sahibkarlıqla məşğul olan vətəndaşların güzəştli kreditlərə çıxış imkanlarını asanlaşdırır, girovla əlaqədar məsələləri həll edir və kooperasiya münasibətlərini gücləndirir.

Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına 2015-ci ildə 5243 sahibkarlıq subyektinə 248,5 milyon manat güzəştli kredit verilmişdir. Bu kreditlər hesabına 12600-dək yeni iş yerinin yaradılması nəzərdə tutulmuşdur.

Dövlətin güzəştli kreditlərinin 85,6 faizi aqrar sektorun, 14,4 faizi müxtəlif sənaye məhsullarının istehsalı və emalının inkişafına verilmişdir. Verilmiş kreditlərin 63,8 faizi respublikanın regionlarının payına düşür.

2015-ci il ərzində kiçik həcmli 5157 layihəyə 55,5 milyon manat güzəştli kredit verilmişdir. Bu kreditlər hesabına 8600-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulmuşdur.

Fondun vasitəsilə müasir texnologiyaların tətbiqinə əsaslanan iri layihələrin maliyyələşdirilməsi ilə yanaşı, kiçik həcmli layihələrin də güzəştli şərtlərlə maliyyələşdirilməsi əsas məsələlərdən biridir. Əsasən əhalinin həssas qruplarının, o cümlədən məcburi köçkün, əlil, gənc və qadın sahibkarların, eləcə də az təminatlı ailələrin kiçik həcmli kreditlərdən maksimum bəhrələnərək özlərinə biznes imkanları yaratmaları daim diqqət mərkəzində saxlanılır. Belə ki, 293 məcburi köçkün sahibkara 5,1 milyon manat, 762 qadın sahibkara 22,1 milyon manat və 1177 gənc sahibkara 68,4 milyon manat güzəştli kredit verilimişdir. Bu kreditlər hesabına müvafiq olaraq 366, 1707 və 2571 yeni iş yerinin yaradılması imkanı yaranmışdır.

2015-ci ildə Sahibkarlığa Kömək Milli Fondunun vasitəsilə Aran iqtisadi rayonu üzrə 2413 (46%) layihəyə 61502,8 min (24.8%) manat, Gəncə-Qazax iqtisadi rayonu üzrə 878 (16,7%) layihəyə 42174,1 min (17%) manat, Quba-Xaçmaz iqtisadi rayonu üzrə 328 (6,3%) layihəyə 22861,7 min (9,2%) manat, Yuxarı Qarabağ iqtisadi rayonu üzrə 175 (3,3%) layihəyə 1621,7 min (0,7%) manat, Şəki-Zaqatala iqtisadi rayonu üzrə 223 (4,3%) layihəyə 4087,1 min (1,6%) manat, Lənkəran iqtisadi rayonu üzrə 660 (12,6%) layihəyə 5962,5 min (2,4%) manat, Dağlıq Şirvan iqtisadi rayonu üzrə 290 (5,5%) layihəyə 9028,5 min (3,6%) manat və Abşeron iqtisadi rayonu üzrə 48 (0,9%) layihəyə 11395,5 min (4,6%) manat dövlətin güzəştli kreditləri verilmişdir.

**2015-ci ildə dövlətin güzəştli kreditləri hesabına maliyyələşdirilmiş investisiya layihələrinin respublikanın iqtisadi rayonları üzrə bölgüsü**




Dövlətin güzəştli kreditləri hesabına maliyyələşdirilən investisiya layihələrinin həyata keçirilməsi nəticəsində 12587, o cümlədən Abşeron iqtisadi rayonu üzrə 424 (3,4%), Aran iqtisadi rayonu üzrə 4522 (35,9%), Gəncə-Qazax iqtisadi rayonu üzrə 2111 (16,8%), Lənkəran iqtisadi rayonu üzrə 939 (7,5%), Şəki-Zaqatala iqtisadi rayonu üzrə 342 (2,7%), Quba-Xaçmaz iqtisadi rayonu üzrə 787 (6,3%), Dağlıq Şirvan iqtisadi rayonu üzrə 503 (4%) və Yuxarı Qarabağ iqtisadi rayonu üzrə 203 (1,6%) yeni iş yerlərinin yaradılması nəzərdə tutulur.

**2015-ci ildə verilmiş dövlətin güzəştli kreditləri hesabına yaradılacaq yeni iş yerlərinin respublikanın iqtisadi rayonları üzrə bölgüsü**




Dövlətin güzəştli kreditləri hesabına maliyyələşdirilən investisiya layihələrinin həyata keçirilməsi nəticəsində yaradılacaq yeni iş yerlərinin 83,5%-i aqrar sektorun, 16,5%-i müxtəlif sənaye və digər sahələrin payına düşmüşdür.

**2015-ci ildə verilmiş dövlətin güzəştli kreditləri hesabına yaradılacaq yeni iş yerlərinin iqtisadiyyatın sahələri üzrə bölgüsü**




Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dünya ölkələrinin qabaqcıl təcrübəsinin Azərbaycana gətirilməsi, ölkədə müasir texnologiyaların tətbiqinə əsaslanan istehsal, emal, infrastruktur sahələrinin yaradılması istiqamətində verdiyi tapşırıqların icrasını təmin etmək məqsədi ilə Sahibkarlığa Kömək Milli Fondunun vasitəsilə son illərdə respublika iqtisadiyyatının qeyri-neft sektoru üzrə ümumi dəyəri 2,4 milyard manat olan 392 investisiya layihəsinin maliyyələşdirilməsinə 1,1 milyard manatdan çox dövlətin güzəştli kreditləri verilmişdir. Maliyyələşdirilmiş müəssisələrdən 321-i (81,9%) istifadəyə verilmiş, digər 71 (18,1%) müəssisə üzrə isə tikinti-quraşdırma işləri davam etdirilmişdir.

Yeni texnologiyalara əsaslanan investisiya layihələrinin güzəştli qaydada maliyyələşdirilməsi sahəsində işlər 2015-ci il ərzində də davam etdirilmiş və bu məqsədlə 65 investisiya layihəsi maliyyələşdirilmişdir. Bu layihələrdən tutumu 57,5 min ton olan 5 logistik mərkəz, 3 ixtisaslaşdırılmış yaşıl market (o cümlədən 7 min tonluq 3 logistik mərkəz, 664 ədəd fermer mağazası), tutumu 10 min ton olan 1 taxıl anbarı, illik istehsal gücü 9,3 min ton quş əti və 47,7 milyon ədəd damazlıq yumurta olan 7 quşçuluq təsərrüfatı, 7900 başlıq 5 müasir heyvandarlıq kompleksi, 5637 ha ərazidə 5 iri fermer təsərrüfatı, 98,8 ha ərazidə 13 istixana kompleksi, gündəlik istehsal gücü 43,6 ton olan 4 çörək zavodu, 419 ha ərazidə 5 intensiv bağçılıq və 20 ha ərazidə 1 üzümçülük təsərrüfatı, illik emal gücü 7,2 min ton olan 1 süd emalı zavodu, illik gücü 3 min ton ət emalı və 1,5 min ton üzvi gübrə istehsalı olan 2 müəssisə, illik istehsal gücü 161 min ton olan 2 qüvvəli yem zavodu, illik istehsal gücü 12,8 milyon litr limonad olan 1 zavod, illik istehsal gücü 180 ton şirniyyat olan 1 müəssisə, illik istehsal gücü 1782 min litr şərab və konyak olan 1 zavod, illik istehsal gücü 3,5 milyon ədəd şüşə taraların dekorasiyası olan 1 müəssisə, illik istehsal gücü 250 dəst mebel olan 1 müəssisə, müxtəlif növ transformator və elektrotexniki avadanlıqlar istehsal edən 2 zavod, illik istehsal gücü 269 ədəd müxtəlif neft-kimya sənayesi avadanlıqları olan 1 müəssisə, illik istehsal gücü 12 min ton PVC tərkibli yarımfabrikat olan 1 müəssisə, illik istehsal gücü 140 min kub metr beton boru, 730 min kvadratmetr döşəmə daşı və 350 min kubmetr qum-çınqıl olan 2 tikinti materiallarının istehsalı müəssisəsinə 185,3 milyon manat güzəştli kredit verilmişdir.

Dövlətin güzəştli kreditləri hesabına rəqabətqabiliyyətli və ixrac yönümlü məhsullar istehsal edən kiçik və orta həcmli qeyri-neft sənaye müəssisələrinin yaradılması respublikanın müxtəlif yeyinti və digər sənaye məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi ilə yanaşı, ölkənin ixrac potensialının artırılmasında mühüm əhəmiyyətə malikdir. Bundan əlavə, müasir texnologiyaların tətbiqinə əsaslan investisiya layihələrinin reallaşdırılması regionlarda məşğulluğun təmin edilməsinə, regionların investisiya cəlbediciliyinin artırılmasına, digər sahələrin inkişafının stimullaşdırılmasına, eləcə də iqtisadiyyatın strukturunun şaxələnməsinə şərait yaradır.

2015-ci ildə 49 istehsal və emal müəssisələri, o cümlədən tutumu 81,3 min ton olan 3 logistik mərkəz, gündəlik istehsal gücü 67 ton (illik 24,4 min ton) çörək olan 5 çörək zavodu, 8350 ha ərazidə 5 iri fermer təsərrüfatı, 3400 başlıq 5 müasir heyvandarlıq kompleksi, 40,3 ha ərazidə 7 istixana kompleksi, 234 ha

ərazidə 3 intensiv bağçılıq təsərrüfatı, 20 ha ərazidə 1 üzümçülük təsərrüfatı, illik istehsal gücü 12 min ton quş əti, 26,4 milyon ədəd əmtəəlik yumurta və 240 min ədəd inkubator olan 4 quşçuluq təsərrüfatı, illik istehsal gücü 18 min ton olan 1 meyvə-tərəvəz emalı zavodu, illik emal gücü 5 min ton olan 1 süd emalı zavodu, illik istehsal gücü 1,8 min ton ət kəsimi, 2 min ton ət emalı və 1,5 min ton gübrə istehsalı olan 2 müəssisə, illik istehsal gücü 5,4 min ton olan 1 karton tara istehsalı müəssisəsi, illik istehsal gücü 140 min kub metr beton boru və 500 min kvadratmetr döşəmə daşı olan 1 müəssisə, illik istehsal gücü 438 min ton tikinti materialları (gips, üzlük, yapışdırıcı) olan 1 müəssisə, illik istehsal gücü 220 min dəst müxtəlif növ geyimlər olan 2 tekstil müəssisəsi, illik 7 min ton çeşidləmə və qablaşdırma sahəsi yaradılmış 1 müəssisə, illik istehsal gücü 46 min ton olan 1 qüvvəli yem zavodu, illik istehsal gücü 15 min ton PVC tərkibli yarımfabrikatlar olan 1 müəssisə, illik istehsal gücü 3440 ədəd transformator və müxtəlif növ elektrotexniki avadanlıqlar olan 1 müəssisə, illik istehsal gücü 22 min ton un olan 1 dəyirman kompleksi, illik istehsal gücü 3,5 milyon ədəd şüşə taraların dekorasiyası olan 1 müəssisə, illik istehsal gücü 6 milyon litr limonad olan 1 zavod istifadəyə verilmişdir.

Müasir istehsal infrastrukturuna malik sənaye parklarının yaradılması ölkədə sənaye sahələrinin, habelə istehsal sahələrinin və onun innovasiya istiqamətinin inkişafını nəzərdə tutan dövlət siyasətinin reallaşdırılmasına yönəldilmişdir. Sənaye parkları həmçinin ölkənin qeyri-neft sektorunun davamlı inkişafı, iqtisadiyyatın ixrac qabiliyyətinin, eləcə də rəqabətqabiliyyətli, idxalı əvəz edən məhsulların istehsalının artırılması, rayonlarda məşğulluğun təmini, investisiyaların və müasir texnologiyaların cəlb edilməsi kimi öncül vəzifələrin yerinə yetirilməsi baxımından xüsusilə əhəmiyyətlidir.

Sənayeləşmə siyasətinə uyğun olaraq regionlarda 2015-ci il ərzində bir sıra işlər həyata keçirilmişdir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 2 fevral tarixli, 1011 nömrəli Sərəncamı ilə Neftçala Sənaye Məhəlləsinin, 2015-ci il 26 fevral tarixli, 1077 nömrəli Sərəncamı ilə isə Mingəçevir Sənaye Parkının yaradılmasına başlanılmışdır. Eyni zamanda Sumqayıt Kimya Sənaye Parkının fəaliyyətinin təşkili və təmin edilməsi, habelə xarici və daxili infrastrukturunun yaradılması istiqamətində işlər davam etdirilmişdir.

Bununla yanaşı, ölkənin digər regionlarında sənaye məhəllələrinin yaradılması istiqamətində verilmiş tapşırığın icrası ilə əlaqədar, mebel istehsalı və satışını həyata keçirən sənaye məhəllələri üzrə dünyanın bir sıra ölkələrinin, xüsusilə Türkiyə Respublikasının təcrübələri araşdırılmışdır. Hesabat dövründə Abşeron iqtisadi rayonunda, xüsusilə də Sumqayıt şəhərində mebel sənayesi sahəsində sənaye məhəlləsinin yaradılması üçün müvafiq araşdırma aparılmışdır. Bu məqsədlə 22 may 2015-ci il tarixində İqtisadiyyat Nazirliyinin nümayəndələri Sumqayıt şəhərində olmuş, bu sahədə fəaliyyət göstərən, istehsal və ya satışla məşğul olan kiçik sahibkarlarla fərdi görüşlər keçirilmişdir. Keçirilən görüşlərin və aparılan araşdırmaların nəticəsində Sumqayıt şəhərində mebel istehsalı üzrə sənaye məhəlləsinin yaradılmasının əlverişli olduğu müəyyənləşdirilmişdir. Həmçinin sənaye məhəllələrinin yaradılması ilə əlaqədar həyata keçirilən tədbirlərin əhatə dairəsinin genişləndirilməsi, regionlarda sahibkarlıq fəaliyyətinin stimullaşdırılması məqsədi ilə növbəti sənaye məhəlləsinin Ağdam rayonunda yaradılması imkanları araşdırılır.

Sahibkarların maarifləndirilməsi, onlara metodiki köməkliyin, məsləhət və informasiya xidmətlərinin göstərilməsi məqsədi ilə Bakı Biznes Tədris Mərkəzi və onun nümayəndəlikləri tərəfindən 2015-ci il ərzində də Bakı şəhərində və regionlarda xarici və yerli ekspertlərin iştirakı ilə sahibkarlar, iş adamları və sahibkarlıq fəaliyyətinə yeni başlayanlar üçün "Biznes-planların və investisiya layihələrinin hazırlanması", "Biznes ideyanı yarat", "Öz biznesinə başla", "Marketinq araşdırmalarının aparılması", "Menecment", "Logistika", "Ekoloji təmiz kənd təsərrüfatının inkişafı", "Kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin sığortalanması", "Mövcud və yeni ixrac bazarlarına çıxış imkanları", "İqtisadiyyat Nazirliyi tərəfindən göstərilən elektron xidmətlər" və s. mövzular üzrə 132 treninq, seminar, dəyirmi masa və digər tədbirlər keçirilmişdir. Tədbirlərdə 3000-dən artıq dinləyici iştirak etmişdir.

2015-ci il ərzində Bakı Biznes Tədris Mərkəzi və onun nümayəndəlikləri tərəfindən regionlarda müraciət edən sahibkarlara, iş adamlarına və sahibkarlıq fəaliyyətinə yeni başlayanlara müxtəlif sahələr üzrə 628 məsləhət xidmətləri göstərilmişdir.

Bakı Biznes Tədris Mərkəzi tərəfindən Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) ilə birlikdə

"Azərbaycan Respublikasında biznesin idarə olunması sahəsində kadrların ixtisasının artırılması üzrə Azərbaycan-Almaniya birgə Proqramı" həyata keçirilir. Proqram çərçivəsində Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyət göstərən sahibkarlar və menecerlər Almaniyada 1 ay müddətində "İqtisadi kooperasiya" üzrə ixtisasartırma kursu keçirlər.

Proqram çərçivəsində 2015-ci ildə 36 nəfər sahibkar və menecer Almaniyada 1 ay müddətində "İqtisadi kooperasiya" üzrə ixtisasartırma kursu keçmişdir. Bütün ixtisasartırma kursu keçənlərin 79%-ni (202 nəfər) gənc sahibkarlar və menecerlər, 21 %-ni (54 nəfər) isə qadın sahibkarlar və menecerlər təşkil etmişdir.

Bakı Biznes Tədris Mərkəzi tərəfindən Quba-Xaçmaz Regional İnkişaf Mərkəzində yaradılmış biznes inkubatorun fəaliyyət proqramına müvafiq olaraq 2015-ci ildə iştirakçılar üçün biznes ideyaların həyata keçirilməsi məqsədi ilə məsləhət xidmətləri göstərilmişdir.

Eyni zamanda, 2015-ci il ərzində Bakı Biznes Tədris Mərkəzinin təşkilatçılığı ilə Bakı Biznes Mərkəzində Avropa İttifaqının "Azərbaycanda büdcəyə dəstək proqramlarının əlaqələndirilməsi və tətbiqinə dəstək" layihəsi çərçivəsində "Azərbaycanda biznes inkubatorlar və kiçik və orta sahibkarlığın inkişafına dəstək", Quba-Xaçmaz Regional İnkişaf Mərkəzində "Azərbaycanda biznes inkubatorların inkişaf perspektivləri", "Kiçik biznesin inkişafında biznes inkubatorların rolu", Biznes inkubatorun səmərəliliyinin yüksəldilməsi" mövzuları üzrə beynəlxalq seminar və dəyirmi masa, biznes inkubator iştirakçıları arasında elan edilmiş "İdeyadan biznesə doğru" mövzusunda müsabiqənin yekunlarına dair və Quba-Xaçmaz Regional İnkişaf Mərkəzində yaradılmış biznes inkubatorun fəaliyyətinin birinci ilinin yekunlarına həsr olunmuş "Biznes inkubatorun gənc sahibkarlığın inkişafında rolu" mövzusunda tədbir keçirilmişdir.

Quba-Xaçmaz Regional İnkişaf Mərkəzində fəaliyyətə başlayan biznes inkubatorun davamı olaraq gələcəkdə Balaxanı Sənaye Parkında, Sumqayıt Kimya Sənaye Parkında, Aran Regional İnkişaf Mərkəzində və s. biznes inkubatorların yaradılması planlaşdırılır.

## Yeni açılmış müəssisələr barədə məlumat (illər üzrə)

| İqtisadi rayonlar | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2004 - 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2009 - 2013 | 2014 | 2015 | 2014 - 2015 | 2004 - 2015 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Ölkə üzrə cəmi, o cümlədən** | **4921** | **5516** | **5123** | **5145** | **6867** | **27572** | **5314** | **4296** | **5137** | **5417** | **7879** | **28043** | **9130** | **6266** | **15396** | **71011** |
| **Bakı** | **2916** | **3326** | **3040** | **3144** | **4236** | **16662** | **3482** | **2608** | **3159** | **3252** | **4293** | **16794** | **4720** | **3373** | **8093** | **41549** |
| **Regionlar üzrə cəmi, o cümlədən** | **2005** | **2190** | **2083** | **2001** | **2631** | **10910** | **1832** | **1688** | **1978** | **2165** | **3586** | **11249** | **4410** | **2893** | **7303** | **29462** |
| Abşeron | 320 | 287 | 242 | 268 | 448 | **1565** | 302 | 296 | 390 | 391 | 514 | **1893** | **690** | **508** | **1198** | **4656** |
| Gəncə-Qazax | 311 | 246 | 251 | 246 | 404 | **1458** | 267 | 229 | 274 | 309 | 552 | **1631** | **637** | **338** | **975** | **4064** |
| Şəki-Zaqatala | 144 | 196 | 195 | 152 | 192 | **879** | 172 | 188 | 186 | 249 | 413 | **1208** | **493** | **190** | **683** | **2770** |
| Lənkəran | 200 | 204 | 198 | 265 | 215 | **1082** | 175 | 228 | 268 | 256 | 591 | **1518** | **622** | **679** | **1301** | **3901** |
| Quba-Xaçmaz | 84 | 119 | 149 | 142 | 150 | **644** | 116 | 98 | 127 | 106 | 204 | **651** | **359** | **121** | **480** | **1775** |
| Aran | 440 | 562 | 498 | 539 | 943 | **2982** | 614 | 477 | 527 | 690 | 991 | **3299** | **1117** | **744** | **1861** | **8142** |
| Yuxarı Qarabağ | 144 | 105 | 81 | 109 | 116 | **555** | 73 | 55 | 90 | 82 | 133 | **433** | **126** | **109** | **235** | **1223** |
| Kəlbəcər-Laçın | 61 | 43 | 31 | 23 | | **158** | 8 | | | 1 | 4 | **13** | **8** | **9** | **17** | **188** |
| Dağlıq Şirvan | 35 | 102 | 72 | 47 | 95 | **351** | 56 | 60 | 74 | 60 | 144 | **394** | **298** | **152** | **450** | **1195** |
| Naxçıvan | 266 | 326 | 366 | 210 | 68 | **1236** | 49 | 57 | 42 | 21 | 40 | **209** | **60** | **43** | **103** | **1548** |

# MÜNDƏRİCAT

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Fərman
-6-

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" haqqında
-8-

27 yanvar 2015-ci il tarixində "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin giriş nitqi
-10-

27 yanvar 2015-ci il tarixində "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yekun nitqi
-15-

Regionların sosial-iqtisadi inkişafı sahəsində nəzərdə tutulmuş tədbirlər 2015-ci ildə uğurla icra olunmuşdur
-23-

Azərbaycan Respublikası Prezidentinin regionlara səfərləri Dövlət Proqramının icrasına təkan verir
-42-

Sahibkarlığın inkişafı ölkə iqtisadiyyatının diversifikasiyası baxımından dövlət siyasətinin aparıcı istiqamətlərindən biridir
-83-

Yeni açılmış müəssisələr barədə məlumat
-93-

# Qeydlər

# Qeydlər